# 15 İyun Milli Qurtuluş Günüdür




# ŞƏRQ QAPISI

100 ilin qəzeti

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 23 (24.405)

*15 iyun 2024-cü il, şənbə*

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Qurtuluşdan Zəfərə



## Ulu Öndər Heydər ƏLİYEV:

“

***Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır.***

”

Səhifə ➡ 8-9

## Azərbaycan-Türkiyə əlaqələri *qlobal layihələrin reallaşmasında önəmli faktordur*



Səhifə ➡ 3

## Misirlə əlaqələr Azərbaycanın Yaxın Şərqdəki mövqelərini gücləndirir



Səhifə ➡ 3


Milli Qurtuluş Günü – Bütöv, Qalib Azərbaycan naminə yolun başlanğıcı 2

Səlahiyyətli nümayəndə ölkə və beynəlxalq səviyyəli müsabiqə və yarışlarda qalib olan şagirdlərlə görüşüb 4

Naxçıvanda Milli Qurtuluş Günü qeyd edilib 10

Muxtariyyət sevdalısı olan Naxçıvan teatrı 14

Tanrıya saf və sonsuz sevgidən doğan müqəddəs bayram 15

Naxçıvanımızın ilk qadın dünya çempionu 16

# Milli Qurtuluş Günü –

## Bütöv, Qalib Azərbaycan naminə yolun başlanğıcı

### Ulu Öndər Heydər ƏLİYEV:

“

***Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqa arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.***

”



Tarixdə elə günlər olur ki, xalqın yaddaşında əbədi iz buraxır, illər, əsrlər ötsə də, unudulmur, əhəmiyyəti daha da çoxalır, əzəməti artır. Məhz hər bir azərbaycanlı üçün şərəf, qürur hissi ilə daim xatırlanan həmin tarixi gündən 31 il ötür artıq. Xalqımızın taleyində əbədiyyət günəşinin parladığı 1993-cü ilin 15 iyun günü...

Məşhur bir aforizmdə deyilir ki, tarix şəxsiyyətləri deyil, şəxsiyyətlər tarixi yaradır! Bəli, ictimai-siyasi hadisələrin cərəyan etdiyi ayrı-ayrı dövrlərə, ölkələrin həyatına, zaman-zaman dəyişilən dünya düzəninə nəzər yetirəndə aydın olur ki, tarix dahi insanların ideya və əməllərinin üzərində yaranır, qərar tutur. Məhz Ümummilli Liderimiz Heydər Əliyev də belə nadir görkəmli şəxsiyyət, fenomen insanlardan biridir ki, Onun əbədiyaşar ideyaları üzərində müasir, müstəqil, qüdrətli, qalib, bütöv Azərbaycan bərqərar olunub. Bu baxımdan Ulu Öndərin adı ilə bağlı olan 15 iyun günü Azərbaycanın dövlətçilik tarixində çox mühüm əhəmiyyətə, həlledici rola malikdir. Bu mühümlüyü artıran əsas məqam isə Azərbaycanın öz müstəqilliyini bərpa etdikdən sonra onu yenidən itirmək təhlükəsi ilə üz-üzə qalması idi. Belə ki, həmin dövrdə ölkəyə rəhbərlik edənlərin siyasi səriştəsizliyi, idarəçilik qabiliyyətsizliyi Azərbaycanın mövcudluğunu, sözün həqiqi mənasında, sual altında qoyurdu. Bir tərəfdə xaos, anarxiya, özbaşınalıq, digər yanda torpaqlarımızın işğal olunması xalqımıza müstəqillik sevincini yaşamaq imkanı verməmişdi. Belə çətin və mürəkkəb bir dövrdə Azərbaycan xalqı üzünü əsl xilaskarına – Ulu Öndər Heydər Əliyevə tutaraq öz varlığını qorudu. ***“Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır”***, – deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: ***“Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz”.*** Dahi şəxsiyyətin müdrik siyasətinin nəticəsi idi ki, ölkəmiz bir dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsindən xilas oldu, müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhran aradan qaldırıldı və uçurumun bir addımlığından qayıdan Azərbaycanda inkişafın təməli qoyuldu...

Milli Qurtuluş Günü haqqında danışan zaman mütləq şəkildə Ümummilli Lider Heydər Əliyevin Naxçıvanda fəaliyyət göstərdiyi 1990-1993-cü illəri yada salmamaq, həmin mərhələni Azərbaycanın müstəqil dövlət quruculuğu tarixində ən mühüm dövr kimi xarakterizə etməmək olmaz. Məhz bu illərdə verilən tarixi qərarlarla müstəqil Azərbaycanın təməl prinsipləri formalaşdırılıb, ölkəmizin gələcək inkişafının əsasları qoyulub. Əvvəlcə qeyd etdiyimiz kimi, həmin dövrdə Azərbaycanda baş verən hadisələr ölkəni faktiki olaraq müstəqilliyini itirmək həddinə gətirib çıxarmış, vətəndaş müharibəsi başlamışdı. 1993-cü il iyunun 4-də baş verən Gəncə hadisələri isə qardaş qırğını ilə bərabər, ölkəni real olaraq parçalanmaq təhlükəsi ilə də üz-üzə qoymuşdu. Ölkə Prezidenti cənab İlham Əliyev həmin dövrü belə xarakterizə edib: ***“O ağır dövrdə xalqın tələbi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev, demək olar ki, gənc müstəqil Azərbaycan dövlətinin, sözün əsl mənasında, xilaskarına çevrilmişdi. Çünki müstəqilliyimiz əldən gedirdi, torpaqlar əldən gedirdi, ölkəmizin müxtəlif yerlərində separatçılıq baş qaldırıb gedirdi, ölkə parçalanma ərəfəsində idi, ölkədə bir çox silahlı birləşmələr faktiki olaraq müxtəlif istiqamətlərdə hakimiyyəti və ya hakimiyyət orqanlarını zəbt etmişdilər. Özbaşınalıq, quldurluq, xaos, anarxiya – 1993-cü ilin Azərbaycanı bax budur. Yəqin ki, gənc nəsil indi bunu kitablardan öyrənə bilir. Amma biz – o dövrü yaşamış insanlar o günləri yaxşı xatırlayırıq və heç vaxt o günləri unutmamalıyıq”.***

Bəli, məhz həmin unudulmaz anlarda, çətin məqamda xalq ayağa qalxdı, təkidli tələblə görkəmli dövlət xadimi Heydər Əliyevi 1993-cü il iyunun 15-də yenidən siyasi hakimiyyətə qaytardı. Bununla da ölkəmizdə milli qurtuluş hərəkatının əsası qoyuldu və 15 iyun müstəqil Azərbaycan dövlətinin tarixinə “Milli Qurtuluş Günü” kimi daxil oldu. Azərbaycan Respublikasının Milli Məclisi 1997-ci il 27 iyun tarixli Qərarı ilə dahi şəxsiyyətin ölkə rəhbərliyinə qayıdışı gününü rəsmi olaraq Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etdi.

Görkəmli dövlət xadiminin ali hakimiyyətə qayıdışı ilə ölkəmizdə mühüm işlər görüldü. Qısa müddətdə əsas vacib məqam sayılan daxili sabitlik bərqərar edildi, cəbhədə atəşkəsə nail olundu, hüquqi-demokratik dövlət quruculuğu istiqamətində potensial baza yaradıldı. Eyni zamanda iqtisadi sahədə mühüm addımlar atıldı, xarici neft şirkətləri ilə bu il 30 illiyi tamam olan “Əsrin müqaviləsi” imzalandı ki, nəticədə, Azərbaycanın iqtisadi inkişafını şərtləndirən layihələrin həyata keçirilməsinə başlanıldı. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Bununla da Azərbaycanın bugünkü və gələcək uğurlarının möhkəm təməli qoyuldu. Ümumilikdə, Azərbaycan dünya iqtisadi sistemində öz layiqli yerini tutdu, beynəlxalq təşkilatlarda uğurla təmsil olundu, dünyada etibarlı tərəfdaş kimi tanındı, ikitərəfli və çoxtərəfli münasibətlərini uğurla inkişaf etdirdi. Bununla bərabər, ölkəmizin beynəlxalq təşkilatlarla ələqəsi təmin olundu, müasir hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiya qəbul edildi. Nəticədə, qısa müddətdə müstəqil Azərbaycan özünün sosial, iqtisadi, siyasi və mədəni həyatında ciddi uğurlar qazandı.

***“İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”***, – deyən dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri sayılan müstəqil Azərbaycanın taleyini Ulu Öndər məktəbinin layiqli davamçısına əmanət edib. Xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi altında böyük uğurlar qazanır. Dahi liderin parlaq ideyalarını layiqincə reallaşdıran Azərbaycan Prezidenti siyasi fəaliyyətini ölkəmizin heç bir güc mərkəzindən asılı olmayaraq, müstəqil siyasət aparmasına, hər bir sahədə xalqın mənafeyinin qorunmasına həsr edib. Məhz bunun nəticəsidir ki, Azərbaycan ötən dövrdə Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz, TANAP, TAP kimi nəhəng iqtisadi layihələrlə bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasına böyük töhfələr verir. Eyni zamanda dövlət başçısının təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Azərbaycan iqtisadiyyatı artıq tam mənası ilə şaxələndirilmiş iqtisadiyyatdır. Dünyanı bürüyən müharibələrə, qlobal böhrana baxmayaraq, Azərbaycanda sabitlik hökm sürür, uğurlu inkişaf təmin edilib, regionun geosiyasi mənzərəsi tam mənasında ölkəmizin xeyrinə dəyişib.

Ölkə Prezidenti cənab İlham Əliyevin məqsədyönlü və milli maraqlara cavab verən xarici siyasəti nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilib və ciddi uğurlara imza atıb. Hazırda BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT və digər nüfuzlu beynəlxalq və regional təşkilatlarla səmərəli əməkdaşlıq aparılır. 120 dövlətin təmsil olunduğu, BMT-dən sonra ikinci böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına 4 il sədrlik etməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunun və qüdrətinin əyani göstəricisidir. Ölkə başçısının təşəbbüsü ilə Türk Şurası və Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizəyə həsr olunan zirvə görüşləri, eləcə də BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi, həmçinin Azərbaycanın Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat (GUAM) və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etməsi ölkəmizə və dövlətimizin başçısına beynəlxalq arenada olan böyük hörmətin nəticəsidir.

Bütün sahələr üzrə regionun söz sahibinə, Cənubi Qafqazın lider ölkəsinə çevrilən Azərbaycan 30 ilə yaxın erməni işğalı altında olan torpaqlarımızı 2020-ci ildə 44 gün ərzində azad etdi, ərazi bütövlüyümüz təmin olundu. “Zəfər Günü” kimi tariximizə əbədi həkk olunan noyabrın 8-də Qarabağın gözü Şuşa şəhərinin işğaldan azad olunması ilə ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Ulu Öndərin müqəddəs arzularını gerçəkləşdirdi. Ötən ilin 19-20 sentyabr tarixlərdə lokal xarakterli antiterror tədbirləri ilə ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam təmin olundu.

2024-cü ildə də ölkəmiz siyasi, diplomatik qələbələri, iqtisadi uğurları ilə müasir, şanlı tarixini yaratmaqda davam edir. Cənab İlham Əliyevin fevral ayında növbədənkənar prezident seçkilərində inamlı qələbəsi, Rusiya sülhməramlılarının Azərbaycan ərazilərindən çıxarılması və Qazaxın 4 kəndinin geri qaytarılması bu tarixin qızıl hərflərlə yazılan parlaq səhifələridir. Hazırda müstəqil Azərbaycan dövləti mühüm beynəlxalq tədbirlərdən sayılan COP29-a ev sahibliyi edir, öz təmiz, keyfiyyətli məhsulları sayəsində ixrac potensialını gücləndirərək “yaşıl enerji” imkanları ilə Avropanın etibarlı tərəfdaşına, milli, mədəni və multikultural dəyərlərinə görə dünya ölkələri üçün əsl nümunəyə çevrilir.

Bu gün Azərbaycan xalqı ərazi bütövlüyü, suverenliyi təmin olunmuş qalib ölkənin nümayəndələri kimi böyük fəxr, qürur hissləri ilə Milli Qurtuluş Gününü qeyd edir, bu xoşbəxtliyin memarı Ümummilli Liderin xatirəsini daim əziz tutur, ehtiramla anır. Hər bir vətəndaş Ulu Öndərin müqəddəs amallarına, əbədiyaşar ideyalarına sadiqliyini, sədaqətini ölkə başçısı cənab İlham Əliyevin yürütdüyü siyasətə davamlı dəstəkdə görür və bununla da inamlı, əminli gələcəyini təmin edir. Məhz 1993-cü ildə təməli qoyulan yolun təntənəsidir ki, bu gün üçrəngli Dövlət Bayrağımız bütün Qarabağ ərazisində, Laçında, Şuşada, Xocalıda, Xankəndidə, Qazaxın 4 kəndində dalğalanır, torpaqlarımıza soydaşlarımızla bərabər əbədi bahar qayıdır. Hər birimizin işində, fəaliyyətində ən ümdə vəzifə Ulu Öndərin xatirəsinə ehtiram əlaməti olaraq müstəqilliyini qoruyub yaşatdığı Azərbaycanın bax bu möhtəşəm qalibiyyətinə layiq olmaq, bütövlüyünü, suverenliyini qoruyub saxlamaq naminə dövlət başçısının ətrafında daha da sıx birləşməkdir. Ölkə Prezidentinin 2023-cü il mayın 10-da, Ümummilli Lider Heydər Əliyevin 100 illiyində Şuşadan xalqa müraciətində dediyi kimi: ***“Bu gün Ulu Öndərin əziz xatirəsinə hörmət edərək biz, bax bu Zəfərə, bu Qələbəyə hər zaman layiq olmalıyıq, hər birimiz, hər bir yerdə. Bu Zəfər, eyni zamanda hər birimizin üzərinə əlavə məsuliyyət qoyur. Biz bu Zəfərə layiq olmalıyıq. Əminəm ki, belə də olacaq. Bu gün Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, biz öz doğma torpaqlarımızda qururuq, yaradırıq. Qarabağın və Zəngəzurun bərpası missiyasını da uğurla icra edəcəyik. Necə ki Ulu Öndərin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad etdik, ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurduq, orada Azərbaycan Bayrağını qaldırdıq, ərazi bütövlüyümüzü tam bərpa etdik, eləcə də mülki missiyamızı – bu gözəl diyarın bərpası missiyasını da şərəflə yerinə yetirəcəyik”.***

**Nail ƏSGƏROV**

# Azərbaycan-Türkiyə əlaqələri
## qlobal layihələrin reallaşmasında önəmli faktordur



İyunun 10-da Azərbaycan Prezidentinin Türkiyəyə birgünlük rəsmi səfəri çərçivəsində qardaş ölkənin dövlət başçısı ilə təkbətək görüşü iki ölkə arasında münasibətlərin mövcud vəziyyəti və ikili fəaliyyətin gələcəkdə də birgə koordinasiyası baxımından əhəmiyyətini ortaya qoyur. Görüşlə bağlı mətbuata verilən açıqlamada iki ölkə arasında münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunur, ölkələrimiz arasında enerji, nəqliyyat, iqtisadiyyat, ticarət əlaqələrinin genişləndirilməsi, müdafiə, hərbi sənaye və digər sahələrdə əməkdaşlıq məsələlərinin müzakirə olunduğu, Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarının genişləndirilməsi, Orta Dəhlizin inkişafı ilə əlaqədar iki ölkənin birgə həyata keçirdiyi fəaliyyətin önəmi vurğulanır.

Açıqlanan məlumatın bu hissəsindən anlaşılır ki, görüşdə daha çox ikitərəfli nəqliyyat-ticarət əlaqələri və gündən-günə daha da aktuallaşan Orta Dəhliz layihəsi çərçivəsində görüləcək işlər müzakirə olunub. Son dövrlərdə Azərbaycan və Türkiyə arasındakı iqtisadi əlaqələrin genişlənməsi, eyni zamanda hər iki ölkənin Çinlə artan təmasları, Orta Asiyanın Türk dövlətləri ilə həyata keçirilən birgə layihələri bu yəqinliyi daha da artırır. Məsələnin birinci tərəfinə nəzər yetirsək, qeyd etməliyik ki, Azərbaycanla Türkiyə arasında iqtisadi əlaqələrin həcmi yüksələn xətlə davam edir. Əgər 2012-2014-cü illər arasında bu göstərici sabit olaraq 6 faiz təşkil edirdisə, 2015-ci ildə 12 faizə yüksəlib. Bu proses də 2015-ci ildən etibarən Türkiyəyə neft-qaz ixracının artması ilə əlaqəli olub. 2019-cu ildə isə Türkiyə Azərbaycanın ümumi xarici ticarət dövriyyəsində 4,5 milyard dollar təşkil etməklə 14 faiz yer tutub. 2020-ci ildə Azərbaycan və Türkiyə liderlərinin Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasındakı çıxışında bu rəqəmin 15 milyard dollara çatdırılmasının hədəfləndiyi qeyd edilib. Hər iki ölkə bu hədəfə nail olmaq üçün bir sıra sazişlər imzalayıb. Nəticədə, 2023-cü ildə Türkiyə ilə ticarət dövriyyəmiz 7 milyard 650 milyon dollaradək yüksəlib. Bu göstərici 2022-ci illə müqayisədə 30 faiz artım deməkdir. Ötən il Azərbaycanın Türkiyəyə ixracatı 5 milyard 359 milyon dollar, qardaş dövlətdən idxalımız isə 2 milyard 291 milyon dollar olub. Beləliklə, 2023-cü ildə Türkiyə Azərbaycanın 3 milyard 348 milyon dollarlıq qeyri-neft ixracatının 23,4 faizini formalaşdırıb. 2024-cü ilin yanvar-mart aylarında isə iki ölkə arasında ticarət dövriyyəsi 1 milyard 469 milyon dollar təşkil edib.

Qeyd etmək lazımdır ki, hazırda Türkiyə 15 faizlik pay ilə İtaliyadan sonra Azərbaycanın ikinci ən böyük ticarət tərəfdaşıdır və iqtisadi əlaqələr bütün istiqamətlərdə durmadan inkişaf edir. Digər tərəfdən, Türkiyə Azərbaycanda həyata keçirilən ən vacib layihələrin önündə yer alır. Məsələn, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan böyük quruculuq işlərində qardaş ölkə 20-dən çox şirkətlə 50-yə yaxın layihə icra edir. Bu bərpa-quruculuq işlərinin ümumi dəyəri 4 milyard ABŞ dolları təşkil edir. Paralel olaraq da Türkiyəyə ən böyük investisiya yatırımlarında Azərbaycan birinci yerdə dayanır. Ölkəmizin neft-kimya sahəsi başda olmaqla neft emalı, energetika, logistika sektorlarını əhatə edən strateji investisiyaları qardaş ölkənin enerji təhlükəsizliyində, ətraf mühitin qorunmasında, əhalinin rifah səviyyəsinin yüksəldilməsində də əhəmiyyətli rol oynayır.

Digər tərəfdən yanaşsaq, Türkiyə və Azərbaycan bu gün regionda bir çox qlobal layihələri həyata keçirir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP və TAP kimi nəhəng layihələr təkcə regional yox, həm də Şərqdən Qərbə iqtisadi hərəkətliliyi təmin edən mühüm layihələrdir. Bu nəqliyyat və enerji layihələri Azərbaycan ilə Türkiyənin regionda mövqeyinin güclənməsində, beynəlxalq daşımalarda məsafə və daşıma müddətinin qısaldılmasında, strateji əhəmiyyətinin artmasında, enerji təhlükəsizliyinin təminatında, bu ölkələrin tranzit və ticarət əməliyyatlarının, deməli, həm də gəlirlərinin artırılmasında əhəmiyyətli rol oynayır.

Son dövrlərdə Azərbaycan və Türkiyənin Çinlə əlaqələrində təmasların daha da intensivləşməsi tarixi İpək Yolunun bərpasını gündəmə gətirir ki, burada da əsas istiqamət Orta Dəhliz boyuncadır. Azərbaycanın Cənubi Qafqazda yaratdığı reallıq, əlverişli infrastruktur, Türkiyə ilə bir sıra regional layihələrin uğurla davam etdirilməsi Orta Dəhlizin işləkliyini daha ön plana çıxarır. Digər tərəfdən, həm Azərbaycanın, həm də Türkiyənin müstəqil siyasət yürütməsi, etibarlı tərəfdaş kimi imic qazanması da layihəni hər kəs üçün maraqlı və cəlbedici edir. Hətta bir neçə gün bundan əvvəl Türkiyənin BRICS-ə qoşulmaq istəyini dilə gətirməsi də Qərbin təəccübünə, Çin və Rusiyanın isə xoş reaksiyasına səbəb olmuşdu. Bununla yanaşı, Azərbaycan-Türkiyə birliyinin Orta Asiyanın Türk dövlətləri ilə əlaqələrinin sıxlaşması, müxtəlif sahələr üzrə əməkdaşlıq imkanlarının artırılması da Orta Dəhlizin əhəmiyyətini artırır. Azərbaycan Prezidentinin Türkiyənin dövlət başçısı ilə görüşündə Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarının artırılması, Orta Dəhlizin inkişafı yönündə müzakirələri də bu baxımdan əbəs sayıla bilməz. Görünən odur ki, hər iki ölkə başçısının bu kimi məsələləri müzakirə etməyinə yeni zərurət yaranmışdı və kompasın əqrəbi də eyni istiqamətə yönləndirildi.

# Misirlə əlaqələr
## Azərbaycanın Yaxın Şərqdəki mövqelərini gücləndirir




Məlum olduğu kimi, iyunun 7-də Azərbaycan Prezidenti cənab İlham Əliyev Misir Ərəb Respublikasına səfər etdi və burada çox yüksək səviyyədə ikitərəfli əlaqələrin inkişafı üçün faydalı müzakirələr apardı. Hazırkı dövrdə Misir və Azərbaycan arasındakı əlaqələr hər iki ölkə üçün mühüm əhəmiyyət daşıyır və Prezidentin son səfəri bu əlaqələri daha üst səviyyəyə daşımaq üçün böyük rol oynayacaq. Ümumilikdə isə hər iki ölkə üçün bu əlaqələr vacibdir.

Qeyd edək ki, Misirlə Azərbaycan arasındakı dostluq əlaqələri hələ sovet dövründən mövcud olub. Misirin ötən əsrdə həyata keçirdiyi nəhəng layihələrdən olan Asuan bəndinin tikintisində azərbaycanlı mühəndislər çox yaxından iştirak etmişlər. Həmçinin Misir ölkəmizin müstəqilliyini ilk tanıyan (26 dekabr 1991-ci il) 5 müsəlman ölkəsindən biri olub. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Ulu Öndər Heydər Əliyev Azərbaycan Prezidenti kimi 1994-cü ildə Misirə səfər etmiş, qarşılıqlı görüşlər keçirmiş, hər iki ölkə arasında əlaqələrin əsasını qoymuşdur. Cənab İlham Əliyev isə Azərbaycan Prezidenti kimi ilk dəfə 2007-ci ilin 6-8 may tarixlərində Misirdə səfərdə olmuş, ölkə rəhbəri Hüsnü Mübarəklə qarşılıqlı münasibətlərin inkişafı ilə bağlı müzakirələr aparmışdır. Ötən il, 2023-cü ilin yanvarında isə Misir Prezidenti Əbdülfəttah əs-Sisi Azərbaycana səfər etmişdir. İki lider arasında keçirilən görüşün yekunu olaraq bir sıra sənədlər imzalanmışdır. Azərbaycan liderinin iyunun ilk ongünlüyündə Misirə səfəri isə qarşılıqlı əlaqələrin yeni mərhələyə daşınmasına imkan açır. Bəs bu yeni mərhələ özünü hansı istiqamətlərdə göstərəcək?

İlk olaraq bunu qeyd etməliyik ki, Misir Ərəb Respublikası hər zaman ən yüksək kürsülərdə Ermənistan-Azərbaycan münasibətlərində Azərbaycanın haqlı mövqeyini müdafiə edib. Bunu da nəzərə almalıyıq ki, ərəb dövlətləri içərisində Livandan sonra erməni diasporunun çox ciddi təsir imkanları olduğu ölkə Misirdir. Ancaq buna baxmayaraq, Misir BMT-də, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında və digər yüksək tribunalarda ölkəmizin mövqeyini yekdilliklə dəstəkləyib, Azərbaycanla həmrəylik nümayiş etdirib. Azərbaycan Prezidentinin də dediyi kimi, Misirin dəstəyi ilə Azərbaycan dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik edib. Bu gün Misir Şimali Afrikanın, ümumilikdə isə Yaxın Şərqin ən böyük ölkəsidir. 110 milyonu ötmüş əhali sayı ilə dünya orduları sırasında 14-cü yerdədir. Həmçinin Afrika qitəsində Nigeriyadan sonra ən böyük iqtisadiyyata malikdir. Bu ölkənin büdcəsinin, demək olar ki, yarısını turizm və xidmət sektoru ödəyir. Ümummilli gəliri 400 milyard dollar təşkil edən Misirin xarici dövlət borcu çox olsa da, ölkə islahatlar yolu ilə getməkdə qərarlıdır və hazırda 2030-cu ilə qədər iqtisadi sıçrayışı əldə edəcək yeni Dövlət Proqramını icra edir. Yaxın Şərq və Şimali Afrikada sənaye iqtisadiyyatı və texnoloji məhsulların əsas ixracatçısı olmağı qarşısına məqsəd qoyan bu ərəb ölkəsi son illərdə iqtisadiyyatına 140 milyarddan çox xarici sərmayə də cəlb edib. Misirin əsas gəlir mənbələrindən biri də Süveyş kanalından keçən gəmi rüsumlarından formalaşır. Amma Həmasın İsrailə hücumundan sonra Yəmən husilərinin Qırmızı dənizdə İsrailə və müttəfiqlərinə yük aparan gəmiləri hədəfə alması səbəbindən Misirin buradan gəlirləri xeyli aşağı düşüb. Buna görə də Misir öz iqtisadi gəlirlərini həm də digər ölkələrlə qarşılıqlı əlaqələr qurmaqla əldə etmək istəyir. Bu baxımdan Azərbaycan Misir üçün əməkdaşlıq baxımından çox yaxşı partnyordur. Eyni zamanda Azərbaycanın İslam ölkələrinin həmrəyliyi yönündə atdığı addımlar Misir tərəfindən rəğbətlə qarşılanır. Digər tərəfdən, Azərbaycanın hazırkı dövrdə Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzərində nəqliyyat imkanları, son illərdə ərəb dövlətləri ilə qarşılıqlı əlaqələri Misirin də maraqlarını təmin edir. Həmçinin Türkiyə-Azərbaycan əlaqələri və Türkiyə ilə Misir arasında yeni əməkdaşlıq imkanları da qarşılıqlı əməkdaşlığın yeni mərhələsi üçün əlavə perspektivlər təqdim edir. Təsadüfi deyil ki, cənab İlham Əliyevin Misirə dövlət səfərində qarşılıqlı əlaqələrin daha da möhkəmləndirilməsi üçün imzalanmış sənədlər, əldə edilmiş razılaşmalar bu işi daha da irəli aparacaq. Xüsusilə, ilk növbədə, energetika, bərpa olunan enerji növlərinin inkişafı, neft sənayesi, əczaçılıq, alüminium sənayesi sahələrində və digər sahələrdə yaxşı nəticələr əldə etmək perspektivi yüksəkdir.

Vurğulamaq lazımdır ki, müsəlman ölkələri içərisinə əhali və ordusunun sayı, yerləşdiyi geostrateji mövqeyinə görə Misirlə əlaqələr Azərbaycan üçün də perspektivlidir. Misirin COP27-yə uğurla sədrliyi və bu təcrübədən Azərbaycanın yararlanmağı, Yaxın Şərqin ən ağrılı qarşıdurmalarından olan İsrail-Fələstin münaqişəsində Fələstin dövlətinin qurulmasında bir çox ölkələrlə yanaşı, Misirlə də həmfikir olmağı, qarşılıqlı ticarət dövriyyəsinin artırılmasının qarşıya məqsəd qoyulması həm də Azərbaycanın Misir vasitəsilə Yaxın Şərqdəki nüfuzunun artırılmasına birbaşa təsir göstərən amillərdəndir. Bütün bunları nəzərə aldıqda hər iki ölkə arasında yüksələn əlaqələrin regional və beynəlxalq siyasətdə mühüm rol oynayacağı şübhəsizdir.

✍ Səbuhi HƏSƏNOV

# Səlahiyyətli nümayəndə ölkə və beynəlxalq səviyyəli müsabiqə və yarışlarda qalib olan şagirdlərlə görüşüb

İyunun 13-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 2023-2024-cü tədris ilində Azərbaycan və beynəlxalq səviyyəli müsabiqə və yarışlarda qalib olan şagirdlərlə görüşüb.

Səlahiyyətli nümayəndə bu il şagirdlərin təhsildə və idman sahəsində daha yüksək nəticələr əldə etməsini fəxarət dolu hisslərlə vurğulayıb. Bildirib ki, dövlətimizin qarşıya qoyduğu əsas hədəflərdən biri uşaqların hərtərəfli inkişafını təmin etməkdir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva təhsilin inkişafına xüsusi önəm verir. Çünki təhsilli və dünyagörüşlü uşaqlar xalqımızın sağlam gələcəyidir. Hər bir cəmiyyətin inkişafını şərtləndirən əsas amil təhsilli və vətənpərvər gənclər yetişdirməkdir. Azərbaycanda bunun üçün münbit şərait yaradılıb.

Fuad Nəcəfli qeyd edib ki, bu il Naxçıvan Muxtar Respublikasının yaranmasından 100 il ötür. Bu tarixi nailiyyət asan əldə edilməyib. Məhz SSRİ-nin hakimiyyəti altında olduğumuz illərdə məqsədli şəkildə milli maraqlara əsaslanan kadr potensialının formalaşmasının qarşısı alınırdı. Torpaqlarımızın bir hissəsi Ermənistana hədiyyə edilmiş və ya işğal olunmuşdu. Bunlara baxmayaraq, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək vəzifələrdə çalışan Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə bu istiqamətdə mühüm addımlar atılıb. Sevindirici haldır ki, xalqımız gələcəyə işıqsaçan Liderin ideyaları ətrafında birləşdi, düzgün addım atmaq iqtidarında olan, müstəqilliyimizi daha da möhkəmləndirib inkişaf etdirəcək gənclər yetişdirdi. Sonrakı illərdə hansı ki bu görüşün baş tutduğu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin binasında dahi şəxsiyyətin rəhbərliyi ilə dövlətçiliyimizin inkişafı və müstəqilliyimizin qorunması naminə mühüm qərarlar qəbul edilib. Bu gün biz çox







xoşbəxt xalqıq ki, Ulu Öndərimizin əmanəti olan müstəqil dövlətimiz var.

Səlahiyyətli nümayəndə bildirib ki, bu günün gəncliyinin qarşısında daha geniş imkanlar mövcuddur. Vətən müharibəsində qazandığımız parlaq qələbə regionda yeni reallıqlar yaradıb. Heç bir dövlət Azərbaycana qarşı qeyri-konstruktiv addım ata bilməz. Bu isə imkan verir ki, gələcəyimizi daha çox quruculuq və inkişaf istiqamətində quraq. Bu məqamda, Naxçıvanda da görüləcək işlər çoxdur. Muxtar respublikada innovativ yeniliklər olacaq. Bu, təhsil sahəsində də özünü göstərəcək. Bütün bunlar bu günümüz və gələcəyimiz üçün peşəkar kadrların formalaşmasını zəruri edir. Bunun üçün gənclərimiz yaxşı təhsil almalı, pis vərdişlərdən uzaq olmaqla sağlam böyüməli və innovativ yeniliklərə əsaslanan hərtərəfli biliyə malik olmalıdır.

Naxçıvanda tarixboyu yaxşı təhsil ənənələrinin formalaşdığını deyən Fuad Nəcəfli qeyd edib ki, bu uğurlu estafet davam edir. Builki nəticələr də olduqca sevindiricidir. Təhsildə və digər istiqamətlərdə yüksək nəticə göstərən şagirdlərdən bir neçəsinin adını çəkən səlahiyyətli nümayəndə bu nailiyyətlərə görə təbriklərini çatdırıb, gənclərlə fəxr etdiyini bildirib, hər birinə uğurlar arzulayıb.







Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov bildirib ki, 2023-2024-cü tədris ilində Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində təhsil alan bir çox şagird həm Azərbaycan, həm də beynəlxalq səviyyəli müsabiqə və yarışlarda fəal iştirak edib, yüksək nəticələr göstəriblər. Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən buraxılış imtahanında muxtar respublika üzrə 9 şagird maksimum nəticə göstərib. Son 5 ildə ali məktəblərə qəbul imtahanlarında ən yüksək nəticələr əldə edilib. Bu göstəricilərə görə, muxtar respublika məktəbləri ölkə üzrə ikinci yerdə qərarlaşıb. Cari tədris ilində muxtar respublikada olimpiada və müsabiqə hərəkatı gücləndirilib. Şagirdlər respublika fənn olimpiadasında və beynəlxalq müsabiqələrdə uğurlu nəticələr əldə ediblər.

Səlahiyyətli nümayəndə görüşdə iştirak edən şagirdlərlə səmimi söhbət edib, fikir və təkliflərini dinləyib, onlara təhsillərində və gələcək fəaliyyətlərində uğurlar arzulayıb, hər biri ilə foto çəkdirib.

“Ən yaxşı təqdimat” müsabiqəsinin qalibi Fidan Babayeva, buraxılış və ali məktəblərə qəbul imtahanlarında maksimum və ən yüksək nəticə göstərmiş, fənn olimpiadalarının qalibi olmuş şagirdlərdən Kənan İsmayıllı, Leyla Nağıyeva, Yaqub Rzayev, “Gimnastika hamı üçün” növü üzrə 2-ci Bakı Beynəlxalq “Challenge” turnirinin qalibi olmuş gimnastlardan Damla İsgəndərli, Nilufər Kərimli, Dəniz Əliyeva, Zeynəb Fərəcova, Mədinə Novruzlu və digərləri səmimi və motivasiyaedici görüşün təşkilinə görə minnətdarlıq edib, səmimi qəbulu onlar üçün gələcəkdə daha böyük uğurlara aparacaq stimul kimi qiymətləndiriblər.

Balaca gimnastlardan İlay Sangur uğur əldə etmələrində əməyi olan məşqçilərinə təşəkkür edib, xoreoqrafiya imkanlarının olmadığını bildirib, bu imkanın yaradılmasını xahiş edib.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli şagirdlərin təkliflərini dəyərləndirərək qısa zamanda xoreoqrafiya imkanlarının yaradılacağını bildirib.

Görüşdə iştirak edən şagirdlərə diplom və hədiyyələr təqdim olunub, onlarla xatirə fotosu çəkdirilib.

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin fəaliyyətinin təkmilləşdirilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iş qaydası” təsdiq edilsin (əlavə olunur).

2. “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

3. “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının strukturu” təsdiq edilsin (əlavə olunur).

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Aparatının işçilərinin say həddi 90 ştat vahidi müəyyən edilsin.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

5.1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının struktur bölmələrinin ştat cədvəlini bir ay müddətində təsdiq etsin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iş qaydası”nın və “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 4 iyul tarixli 28-VI FR nömrəli Fərmanı ləğv edilsin.

7. “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin ştat strukturunun təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 31 may tarixli 30-06/S nömrəli Sərəncamı ləğv edilsin.

8. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 13 iyun 2024-cü il*

## Naxçıvan Dövlət Universitetinin əməkdaşlarına Naxçıvan Muxtar Respublikası fəxri adlarının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin 25 illiyi münasibətilə **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında tibb təhsilinin inkişafında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə Naxçıvan Muxtar Respublikasının fəxri adları verilsin:

**“Əməkdar həkim”**

Cəfərov Rauf Mehralı oğlu
Mustafayeva İlhamə Rafiq qızı
Rzayev Elmar İlqar oğlu

**“Əməkdar müəllim”**

Əsədov Elsevər Sabir oğlu
Məmmədov Bəhruz Qibləli oğlu.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini**
**Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 13 iyun 2024-cü il*

## Naxçıvan Dövlət Universitetinin əməkdaşlarının “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin 25 illiyi münasibətilə **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında tibb təhsilinin inkişafında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilsinlər:

Hüseynov Zaur Səbuhi oğlu
İbrahimov Mətləb Süleyman oğlu.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini**
**Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 13 iyun 2024-cü il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 13 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iş qaydası

**1. Ümumi müddəalar**

1.1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iş qaydası (bundan sonra – bu Qayda) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Konstitusiyasında və Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında təsbit edilmiş, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin aktları ilə ona həvalə olunmuş səlahiyyətlərin həyata keçirilməsi üçün onun fəaliyyətinin təşkili qaydalarını müəyyən edir.

1.2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti (bundan sonra – Nazirlər Kabineti) öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin və Nazirlər Kabinetinin aktlarını, habelə bu Qaydanı rəhbər tutur.

1.3. Naxçıvan Muxtar Respublikasının Baş naziri (bundan sonra – Baş nazir) Nazirlər Kabinetinin işini təşkil edir.

1.4. Nazirlər Kabinetinin iclasına Baş nazir sədrlik edir. Nazirlər Kabinetinin iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri iştirak etdikdə iclasa Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri sədrlik edir.

1.5. Baş nazir rəhbəri olduğu əlaqələndirici və məşvərətçi orqanların iclaslarını, habelə öz yanında müşavirələr keçirir, operativ məsələlərə dair qərarlar qəbul edir. Baş nazir məzuniyyətdə və ya ezamiyyətdə olduqda, yaxud səlahiyyətlərini müvəqqəti icra edə bilmədikdə, onun səlahiyyətlərini Baş nazirin birinci müavini icra edir. Həmin səbəblərə görə Baş nazirin səlahiyyətlərini Baş nazirin birinci müavininin icra etməsi mümkün olmadıqda və ya o, təyin edilmədikdə, Baş nazirin səlahiyyətlərini onun müavini icra edir.

1.6. Baş nazir Nazirlər Kabinetinin işi barədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisini mütəmadi məlumatlandırmalıdır.

1.7. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Nazirlər Kabinetinə, habelə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri və Nazirlər Kabineti tərəfindən yaradılan publik hüquqi şəxslərə, qeyri-kommersiya hüquqi şəxslərinə və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə (bundan sonra – dövlətin hüquqi şəxsləri) verdiyi tapşırığın icrasının nəticələri barədə müvafiq hesabat tapşırığın icraçısı tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim olunmalıdır.

1.8. Nazirlər Kabineti Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin və Nazirlər Kabinetinin hüquqi aktlarının, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Baş nazirinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, Baş nazirin və onun müavinlərinin tapşırıqlarının Nazirlər Kabinetinin tərkibinə daxil olan mərkəzi icra hakimiyyəti orqanları

Ardı 5-ci səhifədə

(bundan sonra – mərkəzi icra hakimiyyəti orqanları), habelə dövlətin hüquqi şəxsləri tərəfindən icrasına nəzarəti həyata keçirir. İcraya nəzarət Nazirlər Kabinetinin Aparatı tərəfindən təşkil və təmin olunur.

1.9. Baş nazir, onun müavinləri, nazirlər və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri (bundan sonra – Nazirlər Kabinetinin üzvləri) qəbul olunmuş qərarların həyata keçirilməsinə, habelə onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyırlar.

1.10. Nazirlər Kabinetinin üzvləri öz fəaliyyətlərini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi sədrinin sədrliyi ilə keçirilən iclaslarda, müşavirələrdə və digər tədbirlərdə, Nazirlər Kabinetinin iclaslarında, Baş nazirin və onun müavinlərinin sədri olduqları əlaqələndirici və məşvərətçi orqanların (bundan sonra – əlaqələndirici və məşvərətçi orqanlar) iclaslarında, Baş nazirin və onun müavinlərinin yanında keçirilən müşavirələrdə, habelə Nazirlər Kabineti üzvlərinin iştirakı nəzərdə tutulan digər rəsmi tədbirlərdə iştirak zərurətini nəzərə almaqla planlaşdırırlar.

1.11. Nazirlər Kabinetində ona təqdim olunmuş və ya Nazirlər Kabinetinin Aparatında hazırlanmış hüquqi aktların layihələrinə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, Baş nazirin və onun müavinlərinin tapşırıqlarına, habelə digər sənədlərə baxılır. Nazirlər Kabinetində, həmçinin barəsində müvafiq aktların qəbul olunması tələb olunmayan məsələlərə, habelə müraciətlərə (sorğulara), yuxarı inzibati orqanın səlahiyyətlərinin həyata keçirilməsi ilə bağlı digər məsələlərə də baxılır.

1.12. Bu Qaydanın məqsədləri üçün aktların layihələrinə və digər sənədlərə Nazirlər Kabinetində baxılması onlara Nazirlər Kabinetinin iclaslarında, əlaqələndirici və məşvərətçi orqanların iclaslarında, habelə Baş nazir və onun müavinlərinin yanında keçirilən müşavirələrdə və ya təkbaşçı baxılması deməkdir.

1.13. Nazirlər Kabinetində aktların layihələrinə və digər sənədlərə baxılmanın nəticələri Nazirlər Kabinetinin aktları, Nazirlər Kabinetinin iclasının, əlaqələndirici və məşvərətçi orqanların iclaslarının, Baş nazirin və onun müavinlərinin yanında keçirilən müşavirələrin protokolları, habelə Baş nazirin və onun müavinlərinin dərkənarı və ya onların imzaladığı digər sənədlər ilə rəsmiləşdirilir.

1.14. Nazirlər Kabinetinin aktları, Nazirlər Kabinetinin iclasının, əlaqələndirici və məşvərətçi orqanların iclaslarının, Baş nazirin və onun müavinlərinin yanında keçirilən müşavirələrin protokolları, habelə Baş nazirin və onun müavinlərinin dərkənarı və ya onların imzaladığı digər sənədlər Nazirlər Kabinetinin Aparatı tərəfindən rəsmiləşdirilir.

1.15. Nazirlər Kabineti öz fəaliyyəti haqqında məlumatları "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıqlayır.

1.16. Nazirlər Kabinetində baxılmış məsələlər haqqında məlumatlar Nazirlər Kabinetinin aktlarına, Baş nazirin və onun müavinlərinin göstərişlərinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarına, yerli icra hakimiyyəti orqanlarına, dövlətin hüquqi şəxslərinə, habelə müraciət (sorğu) etmiş şəxslərə Nazirlər Kabinetinin Aparatı tərəfindən göndərilir.

1.17. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Nazirlər Kabinetində baxılan məsələlərlə bağlı informasiya xidməti istifadə üçün nəzərdə tutula bilər.

**2. Nazirlər Kabinetinin iş planı**

2.1. Nazirlər Kabineti Azərbaycan Respublikasının Konstitusiyasında və Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında təsbit edilmiş, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin aktları ilə ona həvalə olunmuş səlahiyyətlərin (o cümlədən normativ hüquqi aktların layihələrinin hazırlanması ilə bağlı fəaliyyətinin) həyata keçirilməsini, eləcə də iclasların və digər tədbirlərin keçirilməsini planlaşdırır.

2.2. Nazirlər Kabineti növbəti il üçün bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulmuş məsələlərlə bağlı illik iş planlarını (bundan sonra – iş planı) təsdiq edir.

2.3. Növbəti il üçün iş planına dair təkliflər Nazirlər Kabinetinin Aparatı, mərkəzi icra hakimiyyəti orqanları, yerli icra hakimiyyəti orqanları, habelə dövlətin hüquqi şəxsləri tərəfindən hər il noyabr ayının 1-dək Baş nazirə göndərilir. İş planına dair təkliflərə aşağıdakılar əlavə olunur:

2.3.1. məsələnin adı (hüquqi aktın layihəsinin işçi adı), konsepsiyası və onun tənzimlənməsinin zəruriliyinin əsaslandırılması;

2.3.2. məsələnin həyata keçirilməsi üçün tələb olunanlar (maliyyə, insan və digər resurslar);

2.3.3. məsul icraçılar;

2.3.4. gözlənilən nəticələr;

2.3.5. Nazirlər Kabinetinin iclasında baxılmasının təxmini müddəti.

2.4. Növbəti il üçün iş planına dair Baş nazirə ünvanlanan təkliflər Nazirlər Kabinetinin Aparatında baxılaraq ümumiləşdirilir və Baş nazirə təqdim olunur. Növbəti il üçün iş planına dair Nazirlər Kabinetində Naxçıvan Muxtar Respublikasının qanun layihələrinin hazırlanması fəaliyyəti ilə bağlı Nazirlər Kabinetinin Aparatında təkliflərə baxılarkən, qanun layihələrinin hazırlanmasına dair Naxçıvan Muxtar Respublikası Ali Məclisinin illik planı nəzərə alınmalıdır.

2.5. Növbəti il üçün iş planına dair təqdim olunan təkliflərə dekabr ayının 1-dək Nazirlər Kabinetinin iclasında baxılaraq Nazirlər Kabinetinin növbəti il üçün iş planı təsdiq edilir.

2.6. Baş nazir Nazirlər Kabinetinin növbəti il üçün təsdiq edilmiş iş planı və onun icrası barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrini məlumatlandırır.

2.7. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırığı, habelə Nazirlər Kabinetinin iclasının qərarı ilə Nazirlər Kabinetinin təsdiq edilmiş illik iş planında dəyişikliklər edilə bilər. Dəyişikliklər barədə təkliflər bu Qaydanın 2.3-cü bəndində müəyyən edilmiş qaydada verilir.

**3. Nazirlər Kabinetinin iclaslarının planlaşdırılması, hazırlanması və keçirilməsi**

3.1. Nazirlər Kabinetinin iclasları və iclaslarının gündəliyi təsdiq edilmiş illik iş planına uyğun olaraq planlaşdırılır.

3.2. Nazirlər Kabineti iclasının gündəliyinin layihəsi Nazirlər Kabineti Aparatının rəhbəri tərəfindən hazırlanır və müvafiq materiallarla birlikdə Baş nazirə təqdim olunur.

3.3. Baş nazir tərəfindən bəyənilmiş iclas gündəliyinin layihəsi və müvafiq materiallar iclasın tarixindən azı 5 iş günündən əvvəl iclasda iştirak edəcək Nazirlər Kabinetinin üzvlərinə, habelə iclasda iştirak edəcək digər şəxslərə Nazirlər Kabinetinin Aparatı tərəfindən göndərilir. Nazirlər Kabinetinin iclasının gündəliyi bilavasitə onun iclasında təsdiq olunur.

3.4. İclas gündəliyinin layihəsinin və müvafiq materialların göndərildiyi Nazirlər Kabinetinin üzvləri, habelə iclasda iştirak edəcək digər şəxslər, zərurət yarandıqda, iclasın başlanmasına 24 saat qalanadək müvafiq məsələlər üzrə rəy və təkliflərini Nazirlər Kabinetinə təqdim edə bilərlər.

3.5. Nazirlər Kabinetinin iclasında Nazirlər Kabinetinin üzvləri şəxsən iştirak etməlidirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin sədrlik etdiyi hallar istisna olmaqla, Nazirlər Kabinetinin iclasında gündəlikdəki məsələyə aidiyyəti olan Nazirlər Kabinetinin üzvləri iştirak edirlər. Nazirlər Kabinetinin üzvü məzuniyyətdə və ya ezamiyyətdə olduqda, yaxud səlahiyyətlərini müvəqqəti icra edə bilmədikdə, Nazirlər Kabinetinin iclasında onun səlahiyyətlərini icra edən müavini iştirak etməlidir. Nazirlər Kabinetinin iclasına Nazirlər Kabineti Aparatının rəhbəri, Nazirlər Kabineti Aparatının struktur bölmələrinin rəhbərləri, yerli icra hakimiyyəti orqanlarının, digər dövlət orqanlarının nümayəndələri, habelə dövlətin hüquqi şəxslərinin rəhbərləri də dəvət oluna bilərlər.

3.6. Nazirlər Kabinetinin iclasına dəvət olunan şəxslərin siyahısı Baş nazirlə razılaşdırılmaqla Nazirlər Kabineti Aparatının rəhbəri tərəfindən müəyyən olunur.

3.7. Nazirlər Kabinetinin iclasında iştirak edən şəxslər Nazirlər Kabinetinin Aparatı tərəfindən qeydiyyata alınır.

3.8. Nazirlər Kabinetinin, bu Qaydanın 3.5-ci bəndi nəzərə alınmaqla iclasda iştirak edəcək üzvlərinin azı yarısı iştirak etdikdə Nazirlər Kabinetinin iclası səlahiyyətli hesab olunur.

3.9. Nazirlər Kabinetinin iclasında iştirak edən Nazirlər Kabinetinin üzvləri gündəlikdəki məsələlərə dair məruzələrlə çıxış edə bilərlər. Nazirlər Kabinetinin iclasında orada iştirak edən digər şəxslər də iclasa sədrlik edənin razılığı ilə çıxış edə bilərlər.

3.10. Nazirlər Kabinetinin iclasında baxılan məsələlərə dair qərarlar səsvermə ilə qəbul edilir. Qərar iclasda iştirak edən Nazirlər Kabineti üzvlərinin sadə səs çoxluğu ilə qəbul olunur. Səslər bərabər olduqda, iclasda sədrlik edənin səsi həlledici sayılır.

3.11. Nazirlər Kabinetinin iclasında baxılan məsələyə dair Nazirlər Kabineti üzvünün xüsusi rəyi olduqda, onun tələbi və ya iclasa sədrlik edənin göstərişi ilə xüsusi rəy iclas protokoluna daxil edilməlidir.

3.12. Nazirlər Kabinetinin iclasında məruzələr üçün vaxt 15 dəqiqəyə qədər, həmməruzələr üçün 10 dəqiqəyə qədər, müzakirələrdə çıxışlar üçün isə 5 dəqiqəyə qədər müəyyən olunur.

3.13. Nazirlər Kabinetinin iclası açıq keçirilir. Nazirlər Kabinetinin iclasına sədrlik edənin təşəbbüsü ilə Nazirlər Kabinetinin iclası qapalı da keçirilə bilər. Nazirlər Kabinetinin qapalı iclası keçirilərkən (ayrı-ayrı məsələlər qapalı müzakirə olunarkən) materialların hazırlanması, iclaslara buraxılış, stenoqraflama, protokolların və qəbul edilən aktların tərtibi məxfi sənədlərlə müəyyən olunmuş iş qaydalarına və məxfilik rejiminə riayət olunmaqla həyata keçirilir.

3.14. Nazirlər Kabinetinin iclasında baxılacaq məsələlər və materiallar haqqında medianın məlumatlandırılması, iclas başa çatdıqda Nazirlər Kabineti üzvlərinin iclaslarda baxılmış məsələlərə dair mətbuat konfransının (brifinqin) təşkili, vətəndaşların iclasda baxılmış məsələlər və bu məsələlərə dair qəbul olunmuş qərarlar haqqında media vasitəsilə məlumatlandırılması Nazirlər Kabinetinin Aparatı tərəfindən təmin edilir.

3.15. Nazirlər Kabinetinin iclasında media nümayəndələrinin iştirakı, video və fotoçəkilişlərin, habelə səsyazmanın aparılması qaydası Nazirlər Kabineti Aparatının rəhbəri tərəfindən müəyyən olunur.

3.16. Nazirlər Kabinetinin iclasının stenoqrafik, audio və videoyazılışı Nazirlər Kabinetinin Aparatı tərəfindən təmin edilir. Qapalı iclasın (qapalı müzakirənin) audio və videoyazılışı aparılmır.

3.17. Nazirlər Kabinetinin iclasında iştirak edən şəxslərin iclasa video və fotoaparatlar, səsyazma qurğuları, habelə rabitə vasitələri gətirməsinə icazə verilmir.

3.18. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi sədrinin tapşırığı ilə və ya Baş nazirin təşəbbüsü ilə Nazirlər Kabinetinin iclasında əlavə (gündəlikdənkənar) məsələlərə də baxıla bilər.

3.19. Nazirlər Kabinetinin növbədənkənar iclası Baş nazirin, Baş nazir məzuniyyətdə və ya ezamiyyətdə olduqda, yaxud səlahiyyətlərini müvəqqəti icra edə bilmədikdə Baş nazirin birinci müavininin, o, olmadıqda isə digər müavininin qərarı ilə keçirilir.

3.20. Nazirlər Kabinetinin iclasında baxılmaq üçün hazırlanmış materialların keyfiyyətinə və vaxtında təqdim olunmasına görə Nazirlər Kabinetinin üzvləri, Nazirlər Kabineti Aparatının rəhbəri, habelə dövlətin hüquqi şəxslərinin rəhbərləri şəxsən məsuliyyət daşıyırlar.

**4. Nazirlər Kabinetinin və əlaqələndirici və məşvərətçi orqanların iclaslarında, Baş nazirin və onun müavinlərinin yanında keçirilən müşavirələrdə qəbul olunan, habelə Baş nazirin operativ məsələlərə dair qəbul etdiyi qərarların rəsmiləşdirilməsi**

4.1. Nazirlər Kabinetinin və əlaqələndirici və məşvərətçi orqanların iclaslarında, Baş nazirin və onun müavinlərinin yanında keçirilən müşavirələrdə qəbul olunan qərarlar protokolla rəsmiləşdirilir. Həmin protokollar Nazirlər Kabinetinin Aparatı tərəfindən iclas və ya müşavirə başa çatdıqdan sonra 24 saat müddətində tərtib olunur və iclasa və ya müşavirəyə sədrlik edən şəxs tərəfindən imzalanır.

4.2. Operativ məsələlərə dair Baş nazirin qəbul etdiyi qərarlar Nazirlər Kabinetinin aktları və ya Baş nazirin dərkənarı ilə rəsmiləşdirilir.

4.3. Nazirlər Kabinetinin iclasında baxılmış Naxçıvan Muxtar Respublikası qanunlarının, Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin və Nazirlər Kabinetinin aktlarının layihələrinin təkmilləşdirilməsi zərurəti yarandıqda, həmin layihələr barəsində iclasda bildirilmiş rəy və təkliflər, habelə aidiyyəti mərkəzi icra hakimiyyəti orqanına (orqanlarına) verilən tapşırıqlar iclas protokoluna daxil edilir. Tapşırıqda başqa müddət müəyyən olunmadıqda, təkmilləşdirilmiş layihə 10 iş günü müddətində Baş nazirə təqdim edilməlidir.

4.4. Nazirlər Kabinetinin iclaslarının və müşavirələrin protokolları Nazirlər Kabinetinin üzvlərinə, habelə Nazirlər Kabineti Aparatının rəhbəri tərəfindən müəyyən olunmuş siyahı üzrə digər şəxslərə iclasdan və ya müşavirədən sonra 2 iş günü müddətində göndərilir.

4.5. Bu Qaydada nəzərdə tutulan digər məsələlərə dair tapşırıqların icra müddəti bu Qaydanın 5-ci hissəsi ilə müəyyən olunur.

**5. Nazirlər Kabinetinin hüquqi aktlarında, Nazirlər Kabinetinin və əlaqələndirici və məşvərətçi orqanların iclaslarının protokollarında verilən tapşırıqların, habelə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, Baş nazirin və onun müavinlərinin tapşırıqlarının icrası qaydası**

5.1. Azərbaycan Respublikasının Konstitusiyasında, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin aktlarında Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş məsələlərin həlli, habelə Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin Nazirlər Kabinetinə verdiyi tapşırıqların icrasının təşkili, həmçinin Nazirlər Kabinetinin aktlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Naxçıvan Muxtar Respublikasının qanunlarına, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin aktlarına uyğunlaşdırılması məqsədilə Nazirlər Kabineti aktlar qəbul edir, həmçinin Baş nazir və onun müavinləri Nazirlər Kabinetinin digər üzvlərinə, Nazirlər Kabineti Aparatının rəhbərinə, Nazirlər Kabineti Aparatının struktur bölmələrinin rəhbərlərinə və dövlətin hüquqi şəxslərinin rəhbərlərinə tapşırıqlar verirlər.

5.2. Bu Qaydanın 5.1-ci bəndində müəyyən edilən hallarda, habelə Nazirlər Kabinetinin və əlaqələndirici və məşvərətçi orqanların iclaslarının protokollarında, həmçinin Baş nazirin və onun müavinlərinin keçirdikləri müşavirələrin protokollarında və dərkənarlarında tapşırıqlar verildikdə, əsas icraçı müəyyən olunmalı və layihənin razılaşdırılması vacib olan mərkəzi icra hakimiyyəti orqanı (orqanları) yerli icra hakimiyyəti orqanı (orqanları) və dövlətin hüquqi şəxsi (şəxsləri) göstərilməlidir. Verilmiş tapşırıqda əsas icraçı kimi əsasnaməsinə və ya nizamnaməsinə uyğun olaraq müvafiq sahədə dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı (orqanları) yerli icra hakimiyyəti orqanı (orqanları) və ya dövlətin hüquqi şəxsi (şəxsləri) müəyyən olunmalıdır.

5.3. Naxçıvan Muxtar Respublikasının Ali Məclisindən Nazirlər Kabinetinə daxil olan sənədlərə (bu Qaydanın 5.4-cü bəndi nəzərə alınmaqla), məktubda başqa müddət nəzərdə tutulmadıqda, bir ay müddətində Nazirlər Kabinetində baxılmalıdır.

5.4. Naxçıvan Muxtar Respublikasının Ali Məclisindən Nazirlər Kabinetinə normativ hüquqi akt layihəsinin hazırlanması və ya yenidən işlənilməsi ilə bağlı göndərilən təklifə, həmçinin baxılması (münasibət bildirilməsi) üçün göndərilən normativ hüquqi akt layihəsinə ən geci 3 (üç) ay müddətində, əlavə araşdırma tələb olunduqda isə 6 (altı) aydan gec olmayaraq baxılmalıdır (münasibət bildirilməlidir). Naxçıvan Muxtar Respublikası Ali Məclisinin məktubunda normativ hüquqi akt layihəsinin hazırlanması və ya yenidən işlənilməsi, habelə normativ hüquqi akt layihəsinə baxılması (münasibət bildirilməsi) üçün daha qısa müddət müəyyən edilə bilər.

5.5. Naxçıvan Muxtar Respublikasının Ali Məclisindən Nazirlər Kabinetinə icra hakimiyyəti orqanlarının təsdiq edilmiş (qüvvəyə minmiş) normativ hüquqi aktlarının təkmilləşdirilməsi, aşkar edilmiş boşluqların, ziddiyyətlərin və digər nöqsanların aradan qaldırılması ilə bağlı göndərilən təkliflər nəzərə alınmalı və ən geci 1 (bir) ay müddətində müvafiq normativ hüquqi aktlarda dəyişiklik edilməsi və ya onların ləğv edilməsi ilə bağlı tədbirlər görülməli, nəticəsinə dair məlumat, təkliflərin nəzərə alınması mümkün olmadıqda isə bu barədə əsaslandırılmış cavab məktubu Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədrinə təqdim edilməlidir.

5.6. Tapşırıqların icraçılara çatdırılması Nazirlər Kabinetinin Aparatı tərəfindən 2 iş günü müddətində, operativ məsələlərə dair Baş nazirin qəbul etdiyi qərarlar və ya onun dərkənarları, habelə "təcili" və "qısa müddətdə" göstərişi ilə verilən tapşırıqlar isə imzalandığı gündən etibarən 12 saatdan gec olmamaq şərtilə təxirəsalınmadan təmin olunur.

5.7. Nazirlər Kabinetinin hüquqi aktlarında verilən tapşırıqlar icraçılara onlara aktın nüsxəsi göndərilməklə çatdırılır.

5.8. Nazirlər Kabinetinin iclaslarının protokollarında verilən tapşırıqlar icraçılara onlara iclas protokolundan çıxarış göndərilməklə çatdırılır.

5.9. Baş nazirin və onun müavinlərinin keçirdikləri müşavirələrin protokollarında verilən tapşırıqlar icraçılara onlara müşavirə protokolu və ya ondan çıxarış göndərilməklə çatdırılır. Baş nazir və onun müavinləri tərəfindən baxılan sənədlər üzrə tapşırıqlar icraçılara tərtib edilmiş dərkənar onlara göndərilməklə çatdırılır.

*Ardı 6-cı səhifədə*

5.10. Tapşırığın icra müddəti təqvim günü ilə və ya dövrlə müəyyən olunur. Tapşırığın icra müddəti dövrlə müəyyən olunduqda, onun icrasının başlanma tarixi imzalandığı gündən hesablanır.

5.11. Normativ hüquqi aktların layihəsinin hazırlanması ilə bağlı tapşırıq istisna olmaqla, "təcili" göstərişi ilə verilən tapşırıq 3 iş günü, "qısa müddətdə" göstərişi ilə verilən tapşırıq isə 7 iş günü müddətində icra olunmalıdır. "Təcili" və ya "qısa müddətdə" göstərişi ilə verilmiş tapşırıqlarda təkliflərin razılaşdırılması nəzərdə tutula bilməz. Tapşırığın icra müddəti göstərilmədikdə o, tapşırığın (qərarın) imzalanması tarixindən etibarən bir ay müddətində (növbəti ayın müvafiq gününə qədər, növbəti ayda həmin gün olmadıqda isə ayın son gününə qədər) icra olunmalıdır. Tapşırığın icra müddətinin son günü qeyri-iş gününə təsadüf etdikdə, icra müddətinin son günü növbəti iş günü hesab olunur.

5.12. Normativ hüquqi akt layihəsinin hazırlanması ilə bağlı tapşırıq istisna olmaqla, digər tapşırığın müəyyən olunmuş müddətdə icrası mümkün olmadıqda, tapşırığı icra edən uzadılmanın səbəbləri və mümkün icra tarixi göstərilməklə, müddətin uzadılması haqqında Nazirlər Kabinetinə təklif verməlidir. Belə təklif tapşırığın (qərarın) icrasının başa çatma tarixindən azı 7 iş günü əvvəl təqdim olunmalıdır. "Təcili" və ya "qısa müddətdə" göstərişi ilə verilmiş tapşırıqların icra müddəti uzadılmır.

5.13. Normativ hüquqi akt layihəsinin hazırlanması ilə bağlı tapşırıq istisna olmaqla, digər tapşırıq bir neçə mərkəzi icra hakimiyyəti orqanına, dövlətin hüquqi şəxsinə verildikdə, tapşırıqda birinci göstərilmiş və ya "çağırış" sözü ilə ifadə olunmuş orqanın (qurumun) rəhbəri tapşırığın əsas icraçısı hesab edilir. Birgə icraçılar təkliflərini əsas icraçıya tapşırığın icrasına ayrılmış müddətin birinci yarısında təqdim etməlidirlər.

5.14. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin Nazirlər Kabinetinə verdiyi tapşırığın icrası ilə bağlı Baş nazir və ya onun müavinləri tərəfindən müəyyən edilən əsas icraçı hazırladığı təklifləri həmin tapşırığın icrası məqsədilə Nazirlər Kabinetinin qəbul etdiyi aktlarda, habelə Baş nazir və ya onun müavinlərinin müəyyən etdiyi icra müddətində Baş nazirə və ya onun müavinlərinə təqdim edir.

5.15. Normativ hüquqi akt layihəsinin hazırlanması ilə bağlı tapşırıq istisna olmaqla, digər tapşırıq müəyyən olunmuş müddətdə icra olunmadıqda, tapşırığın icraçısı tapşırığın icrası üçün verilmiş müddət bitdikdən sonra 3 iş günü müddətində müvafiq olaraq tapşırığı vermiş Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinə, Baş nazirə və ya onun müavinlərinə tapşırığın icrasının vəziyyəti və onun müəyyən olunmuş müddətdə icra olunmamasının səbəbləri haqqında arayış təqdim edir.

5.16. Normativ hüquqi akt layihəsinin hazırlanması ilə bağlı tapşırığın icra müddətinin ilk üçdə bir hissəsi ərzində (bu Qaydanın 5.15-ci bəndi nəzərə alınmaqla) əsas icraçı tərəfindən müvafiq normativ hüquqi akt layihəsi hazırlanmalı və razılaşdırılmaq üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərilməlidir. Tapşırığın icra müddətinin qalan hissəsində normativ hüquqi akt layihəsi "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 46-cı və 48-ci maddələri və "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 41-ci və 43-cü maddələrinin tələbləri nəzərə alınmaqla razılaşdırılmalı və Nazirlər Kabinetinə təqdim olunmalıdır.

5.17. Normativ hüquqi akt layihəsinin hazırlanması ilə bağlı tapşırığın müəyyən olunmuş müddətdə icrası mümkün olmadıqda, tapşırığı icra edən bunun səbəbləri və tapşırığın icra tarixini göstərməklə, yuxarı dövlət orqanına tapşırığın icrasının başaçatma tarixindən azı 7 (yeddi) iş günü əvvəl məlumat verməlidir.

**6. Nazirlər Kabinetində hüquqi aktların layihələrinin hazırlanması, təqdim edilməsi, baxılması və Nazirlər Kabinetinin aktlarının qəbul edilməsi, rəsmi dərc edilməsi və qüvvəyə minməsi**

6.1. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 40-cı maddəsinin I hissəsinə uyğun olaraq, Nazirlər Kabineti ümumi qaydalar müəyyən etdikdə qərarlar, başqa məsələlər üzrə sərəncamlar qəbul edir.

6.2. Nazirlər Kabinetinin aktları Baş nazir (bu Qaydanın 1.5-ci bəndi nəzərə alınmaqla) tərəfindən imzalanır.

6.3. Nazirlər Kabinetində hüquqi aktların layihələrinin hazırlanması, təqdim edilməsi, baxılması və Nazirlər Kabinetinin aktlarının qəbul edilməsi, rəsmi dərc edilməsi və qüvvəyə minməsi zamanı "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun, "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 385 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və yerli özünüidarə orqanlarının aktlarının elektron informasiya sistemləri vasitəsilə açıqlanması Qaydası"nın, habelə Nazirlər Kabinetinin aktlarının rəsmi dərc edilməsinə dair Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaların tələbləri nəzərə alınır.

6.4. Mərkəzi icra hakimiyyəti orqanları və dövlətin hüquqi şəxsləri tərəfindən Naxçıvan Muxtar Respublikası qanunlarının, Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin və Nazirlər Kabineti aktlarının layihələrinin razılaşdırılması həyata keçirildiyi zaman layihəyə və ya onun ayrıca struktur elementinə dair icraçılar arasında fikir ayrılıqları olduqda, digər dövlət orqanları (qurumları) tərəfindən vizalanmış layihə, ona razılıq verməyən icraçıların rəylərini əks etdirən iclas protokolu və "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 43.2-ci maddəsində göstərilənlər əlavə olunmaqla əsas icraçı tərəfindən Baş nazirə təqdim edilir. Bu qaydaya əməl edilmədən təqdim olunan sənədlər əsas icraçıya geri qaytarılır.

6.5. Həmin layihə və ya onun ayrıca struktur elementinə dair qarşılıqlı həllin tapılması məqsədilə Baş nazirin tapşırığı ilə onun müavini və ya Nazirlər Kabineti Aparatının rəhbərinin yanında Aparatın müvafiq struktur bölməsinin (bölmələrinin), layihənin əsas icraçısının, habelə aidiyyəti dövlət orqanları (qurumları) rəhbərlərinin (onların müavinlərinin) iştirakı ilə müzakirə aparılır və nəticələr protokollaşdırılır.

6.6. Bu Qaydanın 6.5-ci bəndinə uyğun aparılan müzakirə nəticəsində layihəni razılaşdırmaq mümkün olmadıqda, bu barədə Baş nazirin müavini və ya Nazirlər Kabineti Aparatının rəhbəri tərəfindən Baş nazirə məlumat verilir.

6.7. Müzakirə nəticəsində qarşılıqlı həlli tapılmayan normativ hüquqi akt layihəsinə və ya onun ayrıca struktur elementinə dair Baş nazir aşağıdakı tədbirlərdən birini görür:

6.7.1. razılığın əldə edilməməsi normativ hüquqi akt layihəsinin və ya onun ayrıca struktur elementinin qəbul edilməsinin məqsədəuyğunluğu ilə bağlıdırsa, layihəyə və ya onun ayrıca struktur elementinə dair öz qərarını həyata keçirir;

6.7.2. razılığın əldə edilməməsi qüvvədə olan normativ hüquqi aktların tələbləri ilə əlaqədardırsa, həmin tələblərə əsaslanaraq qərar qəbul edir.

**7. Əlaqələndirici və məşvərətçi orqanlar**

7.1. Əlaqələndirici orqan olan komissiyalar və təşkilat komitələri müəyyən tapşırıqların yerinə yetirilməsi üçün mərkəzi icra hakimiyyəti orqanlarının və dövlətin hüquqi şəxslərinin işini əlaqələndirmək məqsədilə yaradılır.

7.2. Məşvərətçi orqan olan şuralar konkret sahənin araşdırılması və təhlili, habelə inkişafı ilə bağlı təkliflərin hazırlanması məqsədilə yaradılır.

7.3. Əlaqələndirici və məşvərətçi orqanlar təmsilçilik əsasında yaradılır. Əlaqələndirici və məşvərətçi orqanların tərkibinə, baxılan məsələlərdən asılı olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının və (və ya) dövlətin hüquqi şəxslərinin nümayəndələri daxil edilir. Əlaqələndirici və məşvərətçi orqanların fəaliyyətinə yerli özünüidarə orqanlarının, qeyri-hökumət təşkilatlarının və digər qurumların nümayəndələri də cəlb edilə bilər.

7.4. Əlaqələndirici və məşvərətçi orqanların qərarları ilə onların tərkibində işçi qruplar yaradıla bilər.

7.5. Əlaqələndirici və məşvərətçi orqanların qərarları iclas protokolları ilə rəsmiləşdirilir.

7.6. Əlaqələndirici və məşvərətçi orqanların fəaliyyəti əsasnamələri ilə tənzimlənir.

**8. Nazirlər Kabinetinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qarşısında hesabatı**

8.1. Nazirlər Kabineti hər il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasında öz fəaliyyəti haqqında hesabat verir.

8.2. Hesabatın layihəsinin hazırlanması üçün Baş nazir aidiyyəti üzrə Nazirlər Kabinetinin üzvlərinə tapşırıqlar verir.

8.3. Nazirlər Kabinetinin üzvləri aidiyyəti üzrə hesabatın layihəsini hazırlayaraq Baş nazirə təqdim etməlidirlər.

8.4. Nazirlər Kabinetinin üzvlərindən daxil olmuş layihələr baxılmaq və ümumiləşdirilmək üçün Baş nazirin müavinlərinə, Nazirlər Kabineti Aparatının rəhbərinə və Aparatın müvafiq struktur bölmələrinə göndərilir.

8.5. Nazirlər Kabinetinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qarşısında hesabatını Baş nazir və ya onun müavinlərindən biri verir.

**9. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Nazirlər Kabinetinə sorğuları**

9.1. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Nazirlər Kabinetinə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair sorğu ilə müraciət etdikdə, Nazirlər Kabinetinin sorğuya cavabının layihəsi Baş nazirin tapşırığı ilə aidiyyəti mərkəzi icra hakimiyyəti orqanı (orqanları) tərəfindən hazırlanır.

9.2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sorğusuna cavab Nazirlər Kabinetini təmsil edən səlahiyyətli şəxs tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında bir aydan gec olmayaraq təqdim edilir.

**10. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının Nazirlər Kabinetinin üzvlərinə sorğuları**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarından Baş nazirin və ya onun müavinlərinin ünvanına daxil olmuş sorğulara cavab layihələri Nazirlər Kabinetinin Aparatı tərəfindən 15 gündən gec olmayaraq hazırlanır. Nazirlər Kabinetinin digər üzvlərinə daxil olmuş sorğulara cavablar aidiyyəti mərkəzi icra hakimiyyəti orqanı tərəfindən hazırlanmalıdır. Sorğulara cavab vermək üçün Baş nazir və ya onun tapşırığı ilə Nazirlər Kabinetinin digər üzvləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclaslarında iştirak edirlər.

**11. Nazirlər Kabinetinin Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə sorğuları**

11.1. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 44-cü maddəsinin II hissəsinin 1-3-cü bəndlərində nəzərdə tutulmuş məsələlərin həllinə dair Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə sorğu verə bilər.

11.2. Bu Qaydanın 11.1-ci bəndində nəzərdə tutulmuş sorğu Baş nazirin və ya onun müavinlərinin tapşırığı ilə Nazirlər Kabinetinin Aparatı və ya sorğu təşəbbüsü ilə çıxış edən aidiyyəti mərkəzi icra hakimiyyəti orqanı (orqanları) tərəfindən hazırlanır.

11.3. Bu Qaydanın 11.1-ci bəndində nəzərdə tutulmuş sorğu Baş nazir tərəfindən verilə bilər.

**12. Vətəndaşların qəbulu və müraciətlərinə baxılması**

12.1. Nazirlər Kabineti "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq vətəndaşların müraciətlərinə baxılmasını, onlara dair qərarların qəbul edilməsini və cavablandırılmasını, həmçinin vətəndaşların qəbulunu təmin edir.

12.2. Nazirlər Kabinetinin üzvləri tərəfindən vətəndaşların qəbulu Baş nazir tərəfindən hər ay təsdiq olunan qrafik üzrə aparılır.

12.3. Baş nazirin və ya onun müavinlərinin ünvanına daxil olan müraciətlər ilə iş Nazirlər Kabinetinin Aparatı tərəfindən aparılır.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 13 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında

# ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin (bundan sonra – Nazirlər Kabineti) Aparatı ikinci kateqoriya dövlət orqanıdır.

1.2. Nazirlər Kabinetinin Aparatı öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və Naxçıvan Muxtar Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin aktlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aktlarını, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iş qaydasını, habelə bu Əsasnaməni rəhbər tutur.

1.3. Nazirlər Kabinetinin Aparatı Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə, habelə Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları və digər dövlət orqanları (qurumları) ilə qarşılıqlı əlaqəli surətdə fəaliyyət göstərir.

1.4. Nazirlər Kabineti Aparatının müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Nazirlər Kabineti Aparatının saxlanması xərcləri və fəaliyyəti Naxçıvan Muxtar Respublikası büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.

**2. Nazirlər Kabineti Aparatının fəaliyyət istiqaməti**

Nazirlər Kabineti Aparatının fəaliyyət istiqaməti Azərbaycan Respublikasının Konstitusiyasında və Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında təsbit olunmuş, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin aktları ilə həvalə olunmuş səlahiyyətlərin (bundan sonra – Nazirlər Kabinetinin səlahiyyətləri) Nazirlər Kabineti tərəfindən həyata keçirilməsini təşkil və təmin etməkdən ibarətdir.

**3. Nazirlər Kabineti Aparatının vəzifələri**

3.0. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətinə uyğun olaraq, Nazirlər Kabineti Aparatının vəzifələri aşağıdakılardır:

3.0.1. Nazirlər Kabinetinin səlahiyyətlərinin həyata keçirilməsini təmin etmək üçün bilavasitə, yaxud Nazirlər Kabinetinin tərkibinə daxil olan mərkəzi icra hakimiyyəti orqanlarını (bundan sonra – mərkəzi icra hakimiyyəti orqanları), həmçinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri və ya Nazirlər Kabineti tərəfindən yaradılan publik hüquqi şəxsləri və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxsləri (bundan sonra – dövlətin hüquqi şəxsləri) cəlb etməklə tədbirlər görmək;

3.0.2. Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Baş nazirinin (bundan sonra – Baş nazir) və onun müavinlərinin fəaliyyətinin hüquqi, analitik-informasiya və təşkilati-texniki təminatını həyata keçirmək;

3.0.3. Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabatların hazırlanmasını təmin etmək;

3.0.4. Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin və Nazirlər Kabinetinin aktlarının, habelə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, Baş nazirin və onun müavinlərinin tapşırıq və göstərişlərinin icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası qanunlarının, Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin və Nazirlər Kabinetinin aktlarının layihələrini, həmçinin barəsində müvafiq aktların qəbul edilməsi tələb olunmayan məsələlərlə bağlı təklifləri hazırlamaq və Baş nazirə təqdim etmək;

3.0.5. Nazirlər Kabinetinin aktlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Naxçıvan Muxtar Respublikasının qanunlarına, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin aktlarına uyğunlaşdırılmasını təmin etmək;

3.0.6. Nazirlər Kabineti Aparatının rəhbərinin tapşırığı ilə onun əmr və sərəncamlarının layihələrini hazırlamaq;

3.0.7. Baş nazirin və onun müavinlərinin tapşırıqlarını hazırlamaq;

3.0.8. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Nazirlər Kabinetinə həvalə etdiyi vəzifələrin, habelə Baş nazirin və onun müavinlərinin tapşırıqlarının icrasını təşkil etmək;

3.0.9. Nazirlər Kabinetinin aktlarını, Nazirlər Kabinetinin iclasının, Baş nazirin və onun müavinlərinin sədrlik etdikləri əlaqələndirici və məşvərətçi orqanların (bundan sonra – əlaqələndirici və məşvərətçi orqanlar) iclaslarının, Baş nazirin və onun müavinlərinin yanında keçirilən müşavirələrin protokollarını, habelə Baş nazirin və onun müavinlərinin dərkənarlarını və ya onların imzaladığı digər sənədləri rəsmiləşdirmək;

3.0.10. Nazirlər Kabinetində baxılmış məsələlər haqqında məlumatları Nazirlər Kabinetinin aktlarına, Baş nazirin və ya onun müavinlərinin göstərişlərinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarına, dövlətin hüquqi şəxslərinə, habelə müraciət (sorğu) etmiş şəxslərə göndərmək;

Ardı 7-ci səhifədə

3.0.11. Nazirlər Kabinetinin növbəti il üçün iş planına dair Baş nazirə təqdim olunan təkliflərə baxaraq, onları ümumiləşdirmək və Baş nazirə təqdim etmək;

3.0.12. Nazirlər Kabinetinin növbəti il üçün iş planına dair Nazirlər Kabinetində Naxçıvan Muxtar Respublikasının qanun layihələrinin hazırlanması ilə bağlı təkliflərə baxılarkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanun layihələrinin hazırlanmasının illik planını nəzərə almaq;

3.0.13. Nazirlər Kabineti iclasının Baş nazir tərəfindən bəyənilmiş gündəliyinin layihəsini və müvafiq materialları iclasın keçiriləcəyi tarixdən azı 5 iş günü əvvəldən iclasda iştirak edəcək Nazirlər Kabinetinin üzvlərinə, habelə Nazirlər Kabinetinin iclasında iştirak edəcək digər şəxslərə göndərmək;

3.0.14. Nazirlər Kabinetinin iclaslarında iştirak edən şəxslərin qeydiyyatının aparılmasını təmin etmək;

3.0.15. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarından Baş nazirin və ya onun müavinlərinin ünvanına daxil olmuş sorğulara cavabların layihələrini hazırlamaq;

3.0.16. Baş nazirin və ya onun müavinlərinin tapşırığı ilə Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə sorğular hazırlamaq;

3.0.17. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin və Nazirlər Kabinetinin aktlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, Baş nazirin və onun müavinlərinin, habelə Nazirlər Kabineti Aparatı rəhbərinin tapşırıqlarının mərkəzi icra hakimiyyəti orqanları və dövlətin hüquqi şəxsləri tərəfindən icrasına nəzarəti təşkil və təmin etmək;

3.0.18. Nazirlər Kabineti qərarlarının layihələrinə dair "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda və "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda nəzərdə tutulmuş məcburi ekspertizaların keçirilməsini və müvafiq rəylərin hazırlanmasını təmin etmək;

3.0.19. qanunvericilik təşəbbüsü hüququna malik subyektlərdən daxil olan qanun layihələrinə baxmaq və onlara dair rəy (maliyyə, hüquqi, iqtisadi, ekoloji və sair) hazırlanmasını təmin etmək;

3.0.20. Baş nazirin sədrlik etdiyi Nazirlər Kabineti iclaslarının, Baş nazir və onun müavinlərinin rəhbərliyi ilə keçirilən tədbirlərin, habelə Nazirlər Kabinetinin Aparatında təşkil edilən digər görüş və müşavirələrin hazırlanmasını və maddi-texniki təchizatını təmin etmək, həmçinin belə iclas, görüş, müşavirə və digər tədbirlərdə müzakirə ediləcək məsələlərlə bağlı sənədləri hazırlamaq;

3.0.21. Baş nazirin, onun müavinlərinin, habelə Nazirlər Kabineti Aparatının rəhbərinin çıxışlarını və məruzələrini hazırlamaq;

3.0.22. Baş nazirin və onun müavinlərinin səfərlərini, habelə onların iştirakı ilə keçirilən tədbirlərin protokol təminatını təşkil etmək;

3.0.23. bu Əsasnamənin 3.0.24-cü yarımbəndində nəzərdə tutulan hallar istisna olmaqla digər hallarda Baş nazirin və onun müavinlərinin, habelə Nazirlər Kabineti Aparatının rəhbərinin tapşırığı ilə Nazirlər Kabineti Aparatının müvafiq struktur bölmələrinin, mərkəzi icra hakimiyyəti orqanlarının, habelə dövlətin hüquqi şəxslərinin nümayəndələrinin iştirakı ilə müzakirə və məsləhətləşmələr keçirmək;

3.0.24. razılıq əldə edilməsi mümkün olmayan normativ hüquqi akt layihəsinə və ya onun ayrıca struktur elementinə dair qarşılıqlı həllin tapılması məqsədilə Baş nazirin tapşırığı ilə onun müavini və ya Nazirlər Kabineti Aparatının rəhbərinin yanında Aparatın müvafiq struktur bölməsinin (bölmələrinin), layihənin əsas icraçısının, habelə aidiyyəti dövlət orqanları (qurumları) rəhbərlərinin (onların müavinlərinin) iştirakı ilə müzakirə aparmaq və nəticələrini protokollaşdırmaq;

3.0.25. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının qərarlarına, digər hərəkətlərinə (hərəkətsizliyinə) münasibətdə yuxarı inzibati orqanın səlahiyyətlərinin həyata keçirilməsini təmin etmək;

3.0.26. idarələrarası elektron sənəd dövriyyəsi sisteminin iştirakçısı kimi müvafiq tədbirlər həyata keçirmək;

3.0.27. Nazirlər Kabinetinin normativ hüquqi aktlarını rəsmi şərh etmək;

3.0.28. əlaqələndirici və məşvərətçi orqanların işini təşkil etmək;

3.0.29. mərkəzi icra hakimiyyəti orqanlarından, yerli icra hakimiyyəti orqanlarından, dövlətin hüquqi şəxslərindən, habelə yerli özünüidarəetmə orqanlarından daxil olan məlumat və təklifləri təhlil edib ümumiləşdirərək, Baş nazirə və onun müavinlərinə təqdim etmək;

3.0.30. Nazirlər Kabinetinin qərarlarının rəsmi dərcini təmin etmək;

3.0.31. Nazirlər Kabinetinin aktlarının nüsxələrinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə, aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına, yerli icra hakimiyyəti orqanlarına və dövlətin hüquqi şəxslərinə, habelə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün kağız və elektron daşıyıcılarda Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsi üçün tədbirlər görmək;

3.0.32. Naxçıvan Muxtar Respublikası qanunlarının icrasının təmin edilməsi ilə bağlı qəbul edilən Nazirlər Kabineti qərarlarının nüsxələrinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin aparatlarına, Naxçıvan Muxtar Respublikasının Prokurorluğuna, aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına, yerli icra hakimiyyəti orqanlarına və dövlətin hüquqi şəxslərinə göndərilməsi üçün tədbirlər görmək;

3.0.33. Naxçıvan Muxtar Respublikasının normativ hüquqi aktlarının (mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları istisna olmaqla), Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlarının, Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin sərəncamlarının və Nazirlər Kabinetinin sərəncamlarının nəzarət nüsxələri ilə iş aparmaq;

3.0.34. Nazirlər Kabinetinin iclaslarında baxılmış (baxılacaq) məsələlər və materiallar haqqında və bu məsələlərə dair qəbul olunmuş qərarlar haqqında, habelə Baş nazirin, onun müavinlərinin və Nazirlər Kabineti Aparatının fəaliyyəti haqqında məlumatlandırmanı, internet saytının və sosial şəbəkələrdəki səhifələrinin yaradılmasını, siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda və sosial şəbəkələrdəki səhifələrdə yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.0.35. Nazirlər Kabinetinin iclaslarında baxılmış məsələlərə dair Nazirlər Kabineti üzvlərinin mətbuat konfranslarını (brifinqlərini) təşkil etmək;

3.0.36. Nazirlər Kabineti iclaslarının stenoqrafik, audio və videoyazılışını təmin etmək;

3.0.37. Nazirlər Kabineti Aparatının əməkdaşlarını kurs və təlimlərə cəlb və ezam etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.0.38. Nazirlər Kabineti Aparatında kargüzarlığı təşkil etmək, icra və əmək intizamına riayət olunması üzrə işin təşkili vəziyyətini yoxlamaq;

3.0.39. vətəndaşlardan, habelə vətəndaşlığı olmayan şəxslərdən, əcnəbilərdən və hüquqi şəxslərdən daxil olmuş müraciətləri (sorğuları) təhlil etmək və onlara baxılmanı təmin etmək, fiziki şəxslərin qəbulunu həyata keçirmək;

3.0.40. Nazirlər Kabineti Aparatının maliyyə, təsərrüfat və maddi-texniki təminatı məsələlərini həll etmək;

3.0.41. bu Əsasnamə ilə, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin başqa aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Nazirlər Kabineti Aparatının hüquqları**

4.0. Nazirlər Kabineti Aparatının öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqları vardır:

4.0.1. Nazirlər Kabinetinin səlahiyyətlərinin həyata keçirilməsinə dair təkliflər vermək;

4.0.2. Nazirlər Kabinetinin növbəti il üçün iş planına dair təklifləri hər il noyabr ayının 1-dək Baş nazirə təqdim etmək;

4.0.3. müvafiq hüquqi aktların layihələrini, habelə barəsində müvafiq aktların qəbul edilməsi tələb olunmayan məsələlərə dair təkliflər hazırlamaq və aidiyyəti subyektlərlə razılaşdırmaq, habelə onların hazırlanmasında iştirak etmək;

4.0.4. təhlillər aparmaq, təkliflər, tövsiyələr, rəylər, arayışlar, analitik və digər yönümlü materiallar hazırlamaq, onları Baş nazirə və onun müavinlərinə, habelə Nazirlər Kabineti Aparatının rəhbərinə təqdim etmək;

4.0.5. Baş nazirin razılığı və ya tapşırığı ilə qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etmək, əməkdaşlığa dair təkliflər hazırlamaq;

4.0.6. ölkə və ya muxtar respublika miqyaslı tədbirlərdə iştirak etmək;

4.0.7. hər hansı məsələnin araşdırılması və ya həlli üçün aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarının, habelə dövlətin hüquqi şəxslərinin əməkdaşlarını, müstəqil ekspert və mütəxəssisləri cəlb etməklə işçi qruplar yaratmaq;

4.0.8. mərkəzi icra hakimiyyəti orqanlarına, yerli icra hakimiyyəti orqanlarına, dövlətin hüquqi şəxslərinə, yerli özünüidarəetmə orqanlarına, habelə fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə yazılı və ya şifahi sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.9. müxtəlif görüşlər, iclaslar, müşavirələr və digər tədbirlər keçirmək;

4.0.10. mərkəzi icra hakimiyyəti orqanlarının kollegiya iclaslarında iştirak etmək;

4.0.11. Nazirlər Kabineti Aparatının əməkdaşlarının maddi təminatının, əmək və sosial-məişət şəraitinin yaxşılaşdırılması və onların təltif edilməsi barədə Baş nazirə təkliflər vermək;

4.0.12. bu Əsasnamə ilə, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin başqa aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Nazirlər Kabineti Aparatının fəaliyyətinin təşkili**

5.1. Nazirlər Kabinetinin Aparatı bilavasitə Naxçıvan Muxtar Respublikasının Baş nazirinə və onun müavinlərinə, habelə Nazirlər Kabineti Aparatının rəhbərinə tabedir.

5.2. Nazirlər Kabineti Aparatının strukturunu və işçilərinin say həddini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri müəyyən edir.

5.3. Nazirlər Kabineti Aparatının struktur bölmələrinin ştat cədvəlini Nazirlər Kabineti təsdiq edir.

5.4. Nazirlər Kabinetinin Aparatına ümumi rəhbərliyi Nazirlər Kabineti Aparatının rəhbəri həyata keçirir.

5.5. Nazirlər Kabineti Aparatının inzibati vəzifə tutan işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, habelə dövlət qulluğu haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə aid edilmiş hallar istisna olmaqla inzibati vəzifə tutan işçilərə müvafiq ixtisas dərəcələrinin verilməsi Baş nazir tərəfindən həyata keçirilir.

5.6. Nazirlər Kabineti Aparatının rəhbəri Baş nazirə və onun müavinlərinə tabedir.

5.7. Nazirlər Kabineti Aparatının rəhbəri bu Əsasnamə ilə Nazirlər Kabinetinin Aparatına həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.8. Nazirlər Kabineti Aparatının rəhbərinin bir müavini vardır. Nazirlər Kabineti Aparatının rəhbərinin müavini Nazirlər Kabineti Aparatının rəhbəri tərəfindən onlara həvalə olunmuş vəzifələri yerinə yetirir və buna görə şəxsən məsuliyyət daşıyır.

5.9. Nazirlər Kabineti Aparatının rəhbəri:

5.9.1. Nazirlər Kabineti Aparatının fəaliyyətini təşkil edir və ona rəhbərlik edir, habelə Nazirlər Kabineti Aparatının rəhbərinin müavininin, Nazirlər Kabineti Aparatının struktur bölmələrinin rəhbərlərinin işini əlaqələndirir, onlara müvafiq tapşırıqlar verir;

5.9.2. Baş nazirin sədrlik etdiyi Nazirlər Kabineti iclaslarının, habelə Baş nazirin və onun müavinlərinin rəhbərliyi ilə keçirilən görüş, müşavirə və digər tədbirlərin təşkilini təmin edir;

5.9.3. Nazirlər Kabineti Aparatının struktur bölmələrinin fəaliyyət istiqamətlərinə dair təklifləri təsdiq olunmaq üçün Baş nazirə təqdim edir;

5.9.4. Baş nazirin, onun müavinlərinin, habelə Nazirlər Kabineti Aparatının ünvanına daxil olmuş sənədləri və müraciətləri baxılmaq üçün Nazirlər Kabineti Aparatının müvafiq struktur bölməsinə (bölmələrinə) göndərir;

5.9.5. hüquqi aktların layihələrini razılaşdırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə göndərmək üçün Baş nazirə müraciət edir, Naxçıvan Muxtar Respublikasının Ali Məclisindən Nazirlər Kabinetinə baxılması (münasibət bildirilməsi) üçün göndərilən normativ hüquqi akt layihələrini baxılması (münasibət bildirilməsi) üçün mərkəzi icra hakimiyyəti orqanlarına, yerli icra hakimiyyəti orqanlarına və dövlətin hüquqi şəxslərinə göndərir;

5.9.6. Nazirlər Kabineti Aparatının strukturu və işçilərinin say həddi barədə Baş nazirə təkliflər verir;

5.9.7. Nazirlər Kabineti Aparatının müəyyən edilmiş strukturu və işçilərinin say həddi daxilində Nazirlər Kabineti Aparatının struktur bölmələrinin ştat cədvəlini təsdiq olunmaq üçün Baş nazirə təqdim edir, təsdiq edilmiş ştat cədvəli və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetasını təsdiq edir;

5.9.8. Nazirlər Kabinetinin Aparatını təmsil edir;

5.9.9. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Nazirlər Kabinetinə həvalə etdiyi vəzifələrin, habelə Baş nazirin və onun müavinlərinin tapşırıqlarının icrasını təşkil edir;

5.9.10. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aktlarının icrasını təmin edir;

5.9.11. Nazirlər Kabinetinin səlahiyyətlərinin həyata keçirilməsi üçün mərkəzi icra hakimiyyəti orqanlarına və dövlətin hüquqi şəxslərinə müvafiq tapşırıqlar verir, bu tapşırıqların icrasına nəzarət edir və onlardan zəruri məlumatlar alır;

5.9.12. Nazirlər Kabineti Aparatının struktur bölmələri tərəfindən Baş nazirə və onun müavinlərinə təqdim edilən hüquqi aktların layihələrinə və digər sənədlərə viza verir;

5.9.13. Nazirlər Kabinetinin normativ hüquqi aktlarının rəsmi şərhini təşkil edir;

5.9.14. əlaqələndirici və məşvərətçi orqanların işinin təşkilini təmin edir;

5.9.15. bu Əsasnamənin 5.9.16-cı yarımbəndində nəzərdə tutulan hallar istisna olmaqla digər hallarda Baş nazirin tapşırığı, habelə Nazirlər Kabineti Aparatının müvafiq struktur bölmələrinin müraciətləri əsasında mərkəzi icra hakimiyyəti orqanlarının, yerli icra hakimiyyəti orqanlarının, dövlətin hüquqi şəxslərinin, habelə digər aidiyyəti qurumların rəhbərlərinin (müavinlərinin) və ya nümayəndələrinin iştirakı ilə müzakirə aparır;

5.9.16. razılıq əldə edilməsi mümkün olmayan normativ hüquqi akt layihəsinə və ya onun ayrıca struktur elementinə dair qarşılıqlı həllin tapılması məqsədilə Baş nazirin tapşırığı ilə Nazirlər Kabineti Aparatının müvafiq struktur bölməsinin (bölmələrinin), layihənin əsas icraçısının, habelə aidiyyəti dövlət orqanları (qurumları) rəhbərlərinin (onların müavinlərinin) iştirakı ilə müzakirə aparır;

5.9.17. Baş nazir tərəfindən vəzifəyə təyin olunmuş şəxslərin həvəsləndirilməsi və intizam tənbehi barədə Baş nazirə təkliflər verir;

5.9.18. Nazirlər Kabineti Aparatının işçiləri barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi, habelə işçilərin məzuniyyətləri, ezamiyyətləri və xidməti fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı məsələləri həll edir, Nazirlər Kabineti Aparatının yardımçı vəzifə tutan dövlət qulluqçularını, dövlət qulluqçusu olmayan işçiləri vəzifəyə təyin və vəzifədən azad edir, habelə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, yardımçı vəzifə tutan dövlət qulluqçularına müvafiq ixtisas dərəcələri verir;

5.9.19. "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Nazirlər Kabinetinin Aparatında məxfiləşdirilməli məlumatların siyahısını təsdiq edir, dövlət sirrinin mühafizəsinin təmin olunmasına nəzarət edir;

5.9.20. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Nazirlər Kabinetinin Aparatında informasiyanın əldə olunmasına məhdudiyyət qoymaq yolu ilə onu xidməti istifadə üçün nəzərdə tutulmuş hesab edir;

5.9.21. Nazirlər Kabineti iclasının gündəliyinin layihəsini formalaşdırır və müvafiq materiallarla birlikdə Baş nazirə təqdim edir;

5.9.22. Nazirlər Kabinetinin iclasına dəvət olunan şəxslərin siyahısını Baş nazirlə razılaşdırmaqla müəyyən edir;

5.9.23. Nazirlər Kabinetinin iclaslarında media subyektlərinin nümayəndələrinin iştirakı, video və fotoçəkilişlər, habelə səsyazma aparılması qaydasını müəyyən edir;

5.9.24. Nazirlər Kabineti iclaslarının və müşavirələrinin protokollarının Nazirlər Kabinetinin üzvlərinə, habelə digər şəxslərə iclasdan və ya müşavirədən sonra 2 iş günü müddətində göndərilməsini təmin edir;

5.9.25. bu Əsasnamə ilə, Baş nazirin və onun müavinlərinin tapşırığı ilə müəyyən edilən digər səlahiyyətləri həyata keçirir.

5.10. Nazirlər Kabineti Aparatının rəhbəri öz vəzifələrini yerinə yetirə bilmədikdə, ezamiyyətdə və ya məzuniyyətdə olduqda, Nazirlər Kabineti Aparatının rəhbərinin səlahiyyətlərini onun müavini icra edir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 13 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının

## STRUKTURU

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatı (şöbələr və sektorlar)

# Qurtuluşdan Zəfərə






*Azərbaycanın müstəqillik tarixinin ən mühüm siyasi hadisələrindən olan 15 İyun – Milli Qurtuluş Gününün növbəti ildönümü tamam olur. 31 il öncə Ulu Öndər Heydər Əliyev tərəfindən güclü və müstəqil dövlət quruculuğu missiyası başladı. Bu gün tarixin ən güclü Azərbaycanı kimi möhtəşəm zirvədən 31 il əvvəl respublikamızda baş verən hadisələrə nəzər salanda görürük ki, əgər xalqımızın böyük oğlu Heydər Əlirza oğlu Əliyev olmasaydı, yenicə bərpa etdiyimiz müstəqilliyimiz yenidən itiriləcək, dövlətçiliyimiz tamamilə süqut edəcəkdi.*

### *Xalq yalnız böyük Heydər Əliyevə inanırdı*

1993-cü ilin ağır, gərgin və keşməkeşli günlərində respublikamızda baş verən siyasi-hərbi proseslər orta və yaşlı nəslin xatirindədir. Hakimiyyətdə olan qüvvələrin idarəçilikdəki kobud səhvlərinin nəticəsi olaraq artıq 1992-ci ilin əvvəllərindən başlayaraq bir tərəfdən torpaqlarımız mənfur qonşumuz Ermənistan tərəfindən işğal olunur, bir tərəfdən də sapı özümüzdən olan baltaların dəstəyi ilə respublikamızda separatçılıq get-gedə güclənirdi. Bununla yanaşı, ölkəmizdə xaosun və anarxiyanın baş alıb getməsi, iqtisadi tənəzzül və vətəndaşların sosial vəziyyətinin həddən artıq aşağı düşməsi ölkənin gələcəyi baxımından yaxşı heç nə vəd etmirdi.

Bütün bunlar, əlbəttə ki, AXC-Müsavat iqtidarının yarıtmaz siyasətinin nəticəsi idi. İdarəçilikdə buraxılan kobud səhvlər, dövlətin qarşısında duran milli məqsəd və prioritetlərə laqeyd yanaşılması, hərbi hissələrin vahid komandanlığın deyil, ayrı-ayrı şəxslərin əmrində olması, qonşu dövlətlərə qarşı düşmənçilik üzərində qurulan xarici siyasət kursunun həyata keçirilməsi, iqtisadi potensialın tamamilə məhv edilməsi, bir sözlə, ölkəyə rəhbərlik edənlərin öz məsuliyyətlərini və vəzifələrini anlamamaları, nəticə etibarilə, dərin siyasi, iqtisadi, sosial və hərbi böhrana gətirib çıxarmış, can Azərbaycanımızın taleyini açıq sual altında qoymuşdu.

AXC-Müsavat qaragüruhunun yürütdüyü siyasətin ölkəni uçuruma doğru apardığını insanlar görür və dərin narahatlıq keçirirdilər. Həmin günlərdə cəmiyyətdə Azərbaycanın aydın sabahına olan inam itsə də, azalsa da, ümidlər hələ tam tükənməmişdi və bu ümid dünyaca tanınmış lider Heydər Əliyev faktoru idi. Qədirbilən xalqımız qəti əmin idi ki, yalnız böyük Heydər Əliyevin yenidən siyasi hakimiyyətə gəlişi və ölkəyə rəhbərlik etməsi Azərbaycanı problemlərdən xilas edə bilər. O zaman Naxçıvana, Heydər Əliyevin ünvanına göndərilən məktublar da Ulu Öndərə olan ümidin, sonsuz inamın ifadəsi idi.

Bu da təsadüfi deyildi. Çünki Ümummilli Lider Heydər Əliyev hansı vəzifədə çalışmasından asılı olmayaraq, həmişə dövlətə və xalqa xidmətin ən möhtəşəm nümunələrini yaratmışdır. Buna qədər xalqımız Heydər Əliyevin sovet Azərbaycanına və Naxçıvan Muxtar Respublikasına rəhbərliyinin timsalında Vətənə xidmətin mükəmməl modellərini görmüş və o illəri yaşamışdır. Sovet dövründə Heydər Əliyevə qədər və ondan sonra respublikamıza bir çox dövlət adamı rəhbərlik edib. Amma onların heç birinin rəhbərliyi milli dəyərlərin qorunmasına bu qədər xidmət etməyib. Bu baxımdan Heydər Əliyev sovet illərində Azərbaycanı yalnız geridə qalmış aqrar respublikadan inkişaf etmiş sənaye mərkəzinə çevirməyib və ya inkişaf göstəricilərinə görə ittifaq üzvləri arasında 14-cü yerdən qabaqcıllar sırasına yüksəltməyib. Heydər Əliyev həm də sovet ideologiyasının hakim olduğu və buna qarşı çıxmağın son dərəcə təhlükəli olduğu bir dövrdə həyata keçirdiyi cəsarətli tədbirlərlə xalqımızın milli-mədəni və mənəvi dəyərlərini yaşatmış, qorumuş, qürurla gələcək nəsillərə ötürmüşdü.

Bütün bunlar onu deməyə əsas verir ki, böyük Heydər Əliyevin Qurtuluş missiyası, əslində, tariximizin sovet illərindən başlayır. Hansı ki həmin mərhələdə Ulu Öndər xalqımızı manqurtlaşmadan qorudu, milli-mənəvi dəyərlərimizin itib-batmasına imkan vermədi və özü qədər inandığı gələcək müstəqilliyimizin əsaslarını formalaşdırdı.

### *Qurtuluşun ilk ünvanı olan Naxçıvan*

Azərbaycan xalqı Ulu Öndərimiz Heydər Əliyevin öz xalqına layiqli xidmətinin daha bir nümunəsini ötən əsrin 90-cı illərinin əvvəllərində gördü. Bu həmin dövr idi ki, Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən və Siyasi Büro üzvlüyündən istefa vermişdi. Lakin buna baxmayaraq, Heydər Əliyev yenə də doğma xalqının yanında idi və özünün parlaq siyasi dühası ilə yenicə baş qaldırmış milli azadlıq mübarizəsinin vüsət almasına silinməz töhfələr verirdi. Dahi şəxsiyyətin hələ 1990-cı ildə, 20 Yanvar hadisələrindən dərhal sonra oğlu İlham Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlməsi və böyük cəsarətlə xalqımızın haqq səsini ucaltması milli müstəqilliyə gedən yolumuzun ən önəmli hadisələrindən biridir.

Ulu Öndərin 1990-cı ilin iyul ayında Azərbaycana qayıdışı və daha sonra doğulub boya-başa çatdığı Naxçıvana gəlməsi isə xalqımızın müstəqillik mübarizəsinin tamamilə yeni mərhələyə yüksəlməsinə və daha mütəşəkkil forma almasına yeni yol açdı. Əvvəlcə onu qeyd edim ki, heç bir vəzifə tutmasa da, Ümummilli Liderimiz Heydər Əliyev cəmiyyətdə böyük nüfuza malik idi. Xalqımız SSRİ kimi bir dövlətin rəhbərləri sırasına yüksəlmiş dahi oğluna böyük ehtiram və intəhasız məhəbbətlə yanaşırdı. Elə buna görə Naxçıvana gələn kimi Azərbaycan Ali Sovetinə və Naxçıvan Ali Məclisinə keçirilən seçkilərdə böyük Heydər Əliyevin namizədliyi irəli sürülmüşdü. Üstəlik, iki seçki dairəsindən Heydər Əliyevin namizəd kimi göstərilməsi Ulu Öndərə olan dərin ehtiramın, etibarın və tükənməz ümidin göstəricisi idi.

İctimaiyyət nümayəndələrinin təkidli xahişi ilə 1990-cı ildə Azərbaycan Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilən Heydər Əliyevin təşəbbüsləri ilə hələ 1990-cı ilin noyabr ayında Naxçıvan Ali Məclisinin qəbul etdiyi qərarlar xalqımızın müstəqillik yolunun ən cəsarətli və ilk siyasi-hüquqi addımları idi. O zaman Ali Məclisin qəbul etdiyi qərarlarla Azərbaycanın üçrəngli bayrağının rəsmi bayraq kimi təsbit olunması, muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması, SSRİ-nin saxlanılması ilə bağlı referendumun Naxçıvanda boykot edilməsi sovet hakimiyyətinə böyük cəsarətlə meydan oxumaq idi.

Dövlətçilik tariximizin şərəfli səhifələrinə çevrilən bu cür siyasi addımların atılması ilə yanaşı, Heydər Əliyev həm də muxtar respublikanın Ermənistan tərəfindən işğal edilməsinə imkan vermədi. 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Heydər Əliyevin böyük müdrikliklə həyata keçirdiyi tədbirlər, ilk növbədə, muxtar respublikanı işğaldan xilas etdi. O illərdə Naxçıvan sakinləri Ulu Öndərin liderliyi ilə silaha sarılaraq, qəhrəmancasına şəhidlər verərək doğma diyarın müdafiəsində dayandı.

Qüdrətli şəxsiyyət Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan mərhələsinin diqqəti çəkən məqamlarından biri də odur ki, sovet ordusunun hissələri muxtar respublikanı tərk edərkən bütün silah və texnikalarını Azərbaycan Ordusunun hissələrinə təhvil vermişdilər. Bu isə Heydər Əliyevin siyasi uzaqgörənliyi, müdrikliyi nəticəsində mümkün olmuşdu. 1992-ci ilin avqust-sentyabr aylarında sözügedən hərbi hissələrin şəxsi heyətinin Azərbaycanı tərk etməsindən sonra Naxçıvanın müdafiəsi daha da möhkəmləndi. Blokada vəziyyətində olmasına baxmayaraq, bu qədim diyar Ermənistanın təcavüzkarlığının qarşısında qətiyyətlə, mərdi-mərdanə mübarizə apardı.

Naxçıvan yalnız Ermənistanın işğalçılığına görə blokada vəziyyətinə düşməmişdi. Naxçıvanı həm də o dövrdəki Azərbaycan hakimiyyəti blokada vəziyyətinə salmışdı. Belə ki, muxtar respublikadakı iqtisadi və sosial çətinliklərdə mərkəzi hakimiyyət orqanlarının Naxçıvana olan ögey və laqeyd münasibəti böyük rol oynayırdı. Lakin nəhəng və təcrübəli dövlət xadimi Heydər Əliyevin həmin vaxtlar qardaş Türkiyə və İranla yaratdığı əlaqələri Naxçıvandakı mövcud sosial-iqtisadi çətinliklərin azaldılmasında mühüm amil olmuşdu. Ulu Öndərin qətiyyətli siyasəti nəticəsində 1992-ci il mayın 28-də Azərbaycanla qardaş Türkiyə arasındakı "Ümid" körpüsünün istifadəyə verilməsi və digər tədbirlər enerji çatışmazlığından, nəqliyyat blokadasından, sosial-iqtisadi böhrandan əziyyət çəkən muxtar respublikanı bütün labüd fəlakətlərdən xilas etmişdi.

Bütün bunları görən, ümidini itirməyən müdrik xalqımız sevimli oğlu Heydər Əliyevə güvənir, ictimaiyyət nümayəndələri isə Ulu Öndərin rəhbərliyi ilə yeni siyasi partiyanın yaradılmasını arzu və təklif edirdilər. Hətta işğal təhlükəsi ilə üzləşən Qarabağ ictimaiyyətinin nümayəndələri belə Bakıya yox, məhz Naxçıvana gəlir, böyük Heydər Əliyevin respublikamıza rəhbərliyə gəlişini Ondan təkidlə xahiş edirdilər.

Odövrkü hakimiyyət orqanları da bunu bilir, uzaqgörən lider Heydər Əliyevin güclü nüfuzu qarşısında narahatlıq keçirir və ona görə Ulu Öndəri Ali Məclisin Sədri vəzifəsindən müxtəlif vasitələrlə kənarlaşdırmaq istəyirdilər. Amma onların bu niyyəti və cəhdləri Naxçıvan ictimaiyyətinin Heydər Əliyevin ətrafında güclü səfərbər olması səbəbindən baş tutmadı. Hakimiyyətin yaratdığı süni əngəllər Heydər Əliyevin liderliyi ilə yeni siyasi partiyanın yaradılmasının da qarşısını ala bilmədi. 1992-ci ilin noyabr ayında Naxçıvanda Ulu Öndərin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının təsis edilməsi respublikamızın müstəqillik tarixinin böyük siyasi hadisəsinə çevrildi.

Bu hadisələrin hər biri dünya lideri Heydər Əliyevin yenicə müstəqillik əldə etmiş Azərbaycanı növbəti dəfə xilas etməsinin ilk addımları idi. Bu mənada, görkəmli dövlət xadimi kimi Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan mərhələsi Ulu Öndərin müstəqillik illərində həyata keçirdiyi qurtuluş missiyasının başlanğıcıdır desək, yanılmarıq.

### *Ulu Öndər dövlətçiliyimizi qorudu, müstəqilliyimizi xilas etdi*

Təsis konfransından bir neçə ay sonra YAP-ın artıq on minlərlə üzvü vardı və bu kütləvilik yalnız Heydər Əliyevə inamdan irəli gəlirdi. YAP müxalifət partiyası kimi yaranmışdı, lakin bugünkü bəzi müxalifət partiyalarından fərqli olaraq xalqa, dövlətçiliyə qarşı müxalifətdə deyildi. YAP o vaxt hakimiyyəti zəbt edən, respublikamızı anarxiya və xaos burulğanına salan, yeni qazanılmış müstəqilliyimizi itirilmək təhlükəsi qarşısında qoyan hakimiyyətə qarşı müxalifətdə idi.

1992-1993-cü illərin məlum hadisələri, ölkəni bürüyən siyasi böhran, nəhayət, böyük Heydər Əliyevin Bakıya gəlişini tarixi zərurətə çevirmişdi. İflasa uğramış ozamankı iqtidar mənsubları da vəziyyətdən çıxış yolunu məhz Heydər Əliyevin Bakıya dəvət edilməsində görürdü. Hansı ki buna qədər özlərinə əsas təhlükə, ən qorxulu rəqib kimi xalqın içərisində böyük hörməti və nüfuzu olan Heydər Əliyevi hesab edir və onu necə sıradan çıxarmaq barədə düşünürdülər.

1993-cü ilin iyun ayının əvvəllərində baş verən Gəncə hadisələrindən sonra ölkədəki siyasi-hərbi böhran artıq pik nöqtəsinə çatmışdı. Bir tərəfdən torpaqlarımız işğal olunur, digər tərəfdən isə separatçılar Azərbaycanı parçalamaq üçün yeni planlarını işə salmışdılar. Belə vəziyyətdə təkidli xahişləri nəzərə alan xalqımızın dahi oğlu Heydər Əliyevin 1993-cü il iyun ayının 9-da Naxçıvandan Bakıya gəlişi xalqımızın məhv olmaqda olan ümidlərini özünə qaytardı, ölkəsinin taleyini düşünən hər bir vətəndaşımızın sabaha olan inamını bərpa etdi.

Yalnız Heydər Əliyevin Bakıya gəlişindən sonra ağır sarsıntılar içərisində olan narahat cəmiyyətimiz rahat nəfəs aldı, hər kəsin çiynindən sanki ağır yük götürüldü. Bütün xalq tam əmin idi ki, xalqımızın seçilən və sevilən oğlu Heydər Əliyevin proseslərə müdaxiləsi ilə respublikamızın başının üstünü almış təhlükələr aradan qalxacaq. Xalq isə yanılmırdı, çünki Heydər Əliyev kimi görkəmli dövlət xadimi, zəngin siyasi təcrübəsi olan bir siyasətçi üçün siyasət meydanında həlli mümkünsüz olan məsələ yox idi. Bakıya gəldikdən sonra xilaskarlıq missiyasına başlayan, parlamentə sədr seçilmək barədə iqtidarın və deputatların xahişini qəbul etməyərək yaranmış vəziyyətlə yerində tanış olmaq üçün Gəncəyə səfər edən Heydər Əliyev döyüş meydanına çevrilmiş hərbi hissələrin ərazisini gəzdi, şəhər sakinləri, hərbi qulluqçularla görüşüb söhbət etdi. Heydər Əliyevin bu müdrik addımı xalqda böyük ruh yüksəkliyi yaratdı. Bu səfər real siyasi və hərbi proseslərə böyük təsir göstərdi və ilk növbədə, qardaş qırğınının, vətəndaş qarşıdurmasının böyüməsinin qarşısını aldı.

Azərbaycan ictimaiyyətinin arzu və gözləntilərinin, o cümlədən ölkədəki bütün siyasi partiyaların vəziyyətdən çıxış yolu ilə bağlı mövqelərinin əsas nəticəsi kimi Heydər Əliyevin 1993-cü il iyun ayının 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilməsi müstəqillik və dövlətçilik tariximizin dönüş məqamına çevrildi.

## Prezident İlham ƏLİYEV:

***"O ağır dövrdə xalqın tələbi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev demək olar ki, gənc müstəqil Azərbaycan dövlətinin, sözün əsl mənasında, xilaskarına çevrilmişdi. Çünki müstəqilliyimiz əldən gedirdi, torpaqlar əldən gedirdi, ölkəmizin müxtəlif yerlərində separatçılıq baş qaldırıb gedirdi, ölkə parçalanma ərəfəsində idi, ölkədə bir çox silahlı birləşmələr faktiki olaraq müxtəlif istiqamətlərdə hakimiyyəti və ya hakimiyyət orqanlarını zəbt etmişdilər. Özbaşınalıq, quldurluq, xaos, anarxiya – 1993-cü ilin Azərbaycanı bax, budur. Yəqin ki, gənc nəsil indi bunu kitablardan öyrənə bilir. Amma biz – o dövrü yaşamış insanlar o günləri yaxşı xatırlayırıq və heç vaxt o günləri unutmamalıyıq."***

Bu siyasi qərar bütün xalqımızın dahi şəxsiyyət Heydər Əliyevə olan dərin inamının təntənəsi idi. Heydər Əliyev hər siyasətçinin öhdəsindən gələ bilməyəcəyi missiyanı qətiyyətlə yerinə yetirdi, dövlətçiliyimizi və müstəqilliyimizi labüd məhvolmadan xilas etdi. Bu özünün dediyi kimi, ömrünün qalan hissəsini də xalqına həsr edən böyük Heydər Əliyevin xalq və dövlət qarşısındakı əvəzolunmaz fədakarlığı oldu.

31 il əvvəl xalqımızın taleyinin, dövlətçiliyinin müqəddəratının həll olunduğu ən ağır günlərdə Ulu Öndər Heydər Əliyevin idarəçilik sükanının arxasına keçməsi, əslində, onun ölkəmizi məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Aradan illər ötdükcə, zaman kəsiyi uzandıqca, can Azərbaycanımız daha da gücləndikcə, inkişaf etdikcə, Heydər Əliyevin o ağır dövrdə gördüyü işlərin mahiyyətini, məzmununu, Ulu Öndərin həmin mürəkkəb şəraitdə hansı çətinliklərə qalib gəldiyini daha dərindən anlayırıq. Ona görə iyunun 15-nin "Milli Qurtuluş Günü" kimi əbədiləşdirilməsi Heydər Əliyevin tarixi missiyasına verilən layiqli ümumxalq qiymətidir.

Müasir Azərbaycanın, sözün əsl mənasında, müstəqilliyinin tarixi məhz Heydər Əliyevin 1993-cü il iyunun 15-də Ali Sovetin Sədri seçilməsindən sonra başlayır. Ulu Öndər dövlətçiliyimizə qənim kəsilən dairələrin xaos yaradıb müstəqil Azərbaycanı parçalamaq planlarını puça çıxardı, dövlətçiliyimizin və müstəqilliyimizin əbədiliyini və dönməzliyini təmin etdi. Dövlətçiliyimizin etibarlı təməllərini yaradan, hüquqi dövlət quruculuğunu həyata keçirən, Azərbaycanı inkişaf yoluna çıxaran böyük lider Heydər Əliyev öz əməlləri ilə xalqımızın Ümummilli Liderinə çevrildi.

### *Ata Heydər Əliyev yolunun və Oğul İlham Əliyev siyasətinin təntənəsi*



Ümummilli Lider Heydər Əliyevin əmanəti və şah əsəri olan müstəqil Azərbaycan bu gün etibarlı əllərdədir. Xalqımız illərdir ki, Ümummilli Lider Heydər Əliyevin yoluna və Prezident cənab İlham Əliyevin siyasi kursuna heç bir alternativi qəbul etmir. Çünki bu yol və bu siyasət qüdrətli, azad Azərbaycan, güclü dövlətçilik, sarsılmaz müstəqillik və inkişaf yolu deməkdir.

Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz uğurlar, ilk növbədə, ondan xəbər verir ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyası layiqincə davam etdirilir, Onun ideyaları reallaşır. Ona görə ötən 21 il tariximizə inkişaf, quruculuq, müstəqilliyimizin və dövlətçiliyimizin daha da qüdrətləndiyi illər kimi yazılıb. Prezident cənab İlham Əliyevin müdrik siyasətinin ən mühüm nəticələrindən biri kimi Azərbaycan öz tarixinin ən qüdrətli dövlətinə, dünyanın harasında yaşamasından asılı olmayaraq, bütün soydaşlarımızın qürur mənbəyinə, ümid yerinə çevrilib.

Böyük Heydər Əliyevin ən böyük arzusu torpaqlarımızın işğaldan azad edilməsi, məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı idi. Respublikamıza rəhbərliyinin ilk günündən Prezident cənab İlham Əliyev heç vaxt Azərbaycan torpaqlarının işğal altında qalması ilə barışmayacağını və doğma ərazilərini nəyin bahasına olursa-olsun, azad edəcəyini bəyan etdi. Cənab Prezident, ilk növbədə, Azərbaycanı inkişaf yoluna çıxarmaqla, tarixinin ən qüdrəti dövlətinə çevirməklə həm də Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın azad edilməsi üçün zəmin hazırladı. Bu baxımdan 2020-ci ilin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi Müzəffər Ali Baş Komandanın, cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin təntənəsinə çevrildi. Ötən ilin sentyabrında ərazilərimizdə qarayaraya çevrilmiş erməni separatizminə birdəfəlik son qoymaqla dünyaca tanınmış siyasi lider, xalqımızın sevimli oğlu İlham Heydər oğlu Əliyev növbəti tarixi missiyanı qətiyyətlə və şərəflə yerinə yetirdi. Bütün bunların məntiqi davamı olaraq Azərbaycanla Ermənistan arasında dövlət sərhəd xəttinin delimitasiyası və demarkasiyası prosesi çərçivəsində Qazax rayonunun 1990-cı illərin əvvəllərində işğal edilmiş 4 kəndinin bir güllə belə atılmadan azad edilməsi Prezident cənab İlham Əliyevin xalqımıza yaşatdığı növbəti bir qələbə idi.

Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzurda başlanan bərpa və quruculuq işləri bu gün sürətlə davam edir, keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarına qayıdırlar. Şuşa, Laçın, Füzuli, Xocalı şəhərlərində, Laçın rayonunun Zabux və Sus, Zəngilanın Ağalı, Tərtər rayonunun Talış kəndlərində artıq məskunlaşma var və Böyük Qayıdış artıq davamlı prosesə çevrilib.

Ulu Öndər Heydər Əliyevin ən böyük arzuları Azərbaycanın yüksəlişi, torpaqlarımızın azadlığı, məcburi köçkünlərin doğma yurdlarına qayıdışı idi. Öz tarixi missiyası ilə Ulu Öndərin bu müqəddəs arzularını Milli Ordumuzun, qəhrəman Vətən övladlarımızın fədakarlığı ilə, özünün böyük qətiyyəti ilə reallaşdıran Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Heydər Əliyevin həm də ata vəsiyyətini layiqincə yerinə yetirir. Ona görə də artıq böyük öndərimizin ruhu şaddır, rahatdır, çünki müstəqil Azərbaycan sahib olduğu gücü, qüdrəti ilə Onun istədiyi səviyyəyə yüksəlib. Vaxtilə müstəqilliyini itirmək təhlükəsi qarşısında qalan respublikamız artıq elə bir mərhələyə qədəm qoyub ki, istənilən taleyüklü problemi həll etməyə qadirdir.

Hər birimizin qarşısında dayanan ən ümdə mənəvi vəzifələrdən biri harada və hansı vəzifədə çalışmağımızdan asılı olmayaraq, öz işimizlə, fəaliyyətimizlə ölkəmizdə gedən inkişaf proseslərinə dəstək vermək, bu məqsədlə Müzəffər Sərkərdə, Prezident cənab İlham Əliyevin siyasi kursu ətrafında daha sıx səfərbər olmaqdır. Düşünürəm ki, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti bu baxımdan hər birimiz üçün böyük nümunədir, müqayisəsiz, mükəmməl örnəkdir. Onu qeyd edim ki, Ümummilli Lider Heydər Əliyev məktəbinin layiqli yetirmələrindən olan Mehriban xanım Əliyevanın Birinci-vitse prezident kimi fəaliyyəti müstəqil Azərbaycanın dövlət quruculuğu prosesinin modernləşməsinə və davamlı islahatlarla təkmilləşməsinə böyük töhfələr verir. Eyni zamanda Mehriban xanım Əliyevanın idarəçilik üslubu dövlət aparatının daha da mükəmməlləşməsinə xidmət edir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu missiyası respublikamızın davamlı inkişafına, ölkəmizdə mənəvi mühitin daim təmizliyinə, vətəndaş cəmiyyətinin möhkəmlənməsinə, beynəlxalq əlaqələrin genişlənməsinə və vətəndaşların sosial rifahının daha da yaxşılaşdırılmasına yönəlib.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun fəaliyyəti bütün Azərbaycan cəmiyyətinin, xalqımızın qürur mənbəyidir. Ulu Öndərin ideyalarını və irsini yaşatmaq üçün ictimai həyatın müxtəlif sahələrində Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr və proqramlar, ilk növbədə, Azərbaycanın yüksəlişinə, vətəndaş məmnunluğuna xidmət edir və xalqımız tərəfindən həmişə rəğbətlə qarşılanır. Bir sözlə, Mehriban xanım Əliyevanın respublikamızın idarəçiliyindəki uğurlu fəaliyyətinin, yüksək göstəricilərinin təməlində həm də onun məhz Azərbaycanın sayılan-seçilən böyük bir ziyalı nəslinin yetirməsi olaraq sonradan Ulu Öndər Heydər Əliyev ailəsində təkmilləşməsi, ictimai-siyasi xadim kimi, Prezident cənab İlham Əliyevin siyasi silahdaşı kimi Vətənə və xalqa layiqli xidmət məramı dayanır.

Prezident cənab İlham Əliyevin ən fədakar silahdaşı olaraq Mehriban xanım ƏliyevanınVətənə xidmətinin daha bir nümunəsi Heydər Əliyev Fondu tərəfindən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işlərinə rəhbərlik etməsidir. Bütün bunlar həm də Mehriban xanım Əliyevanın Vətən-Azərbaycan sevgisindən, öz xalqının milli-mədəni və mənəvi dəyərlərinə son dərəcə bağlılığından xəbər verir.

Ərazi bütövlüyümüzün bərpasından sonra tarixinin yeni dövrünə qədəm qoyan Azərbaycanda sosial-iqtisadi inkişafın da yeni mərhələsi başlayıb. Milli Məclisdə 2024-cü ilin dövlət büdcəsinin artırılması ilə bağlı müzakirələrin başlanması da, ilk növbədə, inkişafdan xəbər verir. Bu inkişafın göstəricisi kimi Qurtuluşun ilk ünvanı olan Naxçıvan Muxtar Respublikası da intibahının müasir dövrünü yaşayır. Prezident cənab İlham Əliyevin diqqət və qayğısının, qarşıya qoyduğu vəzifələrin Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin rəhbərliyi ilə uğurla həyata keçirilməsinin nəticəsidir ki, bu ilin əvvəlindən muxtar respublikada sosial-iqtisadi sferada mühüm uğurlar əldə olunub. Məsələn, cari ilin yanvar-aprel aylarında muxtar respublikada ümumi daxili məhsul istehsalı 424 milyon 762 min 800 manat olmuşdur ki, bu da 2023-cü ilin müvafiq dövründəki göstəricidən 2,6 faiz çoxdur. Bu dövr ərzində bölgə əhalisinin hər nəfərinə düşən ümumi daxili məhsul istehsalı isə 2 faiz artaraq 905,9 manat təşkil edib.

Təkcə 2024-cü ilin yanvar-may ayları ərzində muxtar respublikanın büdcəsinə bu iqtisadi rayonun yol vergisi üzrə 2 milyon 45 min manat proqnoza qarşı 10 milyon 460 min manat vəsaitin daxil olması və bu vəsaitin nəzərdə tutulan proqnozdan 8,4 milyon manat, yaxud 412 faiz çox olması qısa müddət ərzində muxtar respublikada, əslində, bütün sahələrdə baş verən mütərəqqi dəyişikliklərin göstəricisidir. Naxçıvan Muxtar Respublikasında Prezident cənab İlham Əliyevin qarşıya qoyduğu bütün tapşırıqların, Dövlət proqramlarının icrasının yeni idarəçiliklə, Naxçıvanda səlahiyyətli nümayəndəliyin rəhbərliyi ilə layiqincə və ən qısa zamanda həyata keçirilməsi, bütövlükdə, əldə olunan bu uğurlar bir daha göstərir ki, Prezident cənab İlham Əliyevin yeni islahatları bütün sahələrdə olduğu kimi, iqtisadi rayonlar üzrə də praktiki şəkildə özünü doğrultmaqdadır.

31 il əvvəl, tariximizin ağır günlərində təsəvvür belə etməzdik ki, vaxt gələcək müstəqil Azərbaycan güclü, qüdrətli dövlətə, beynəlxalq birliyin nüfuzlu, layiqli üzvünə çevriləcək. Lakin bütün bunlar indi reallıqdır və vaxtilə böyük Heydər Əliyevin xilas edərək inkişaf yoluna çıxardığı Azərbaycan artıq özünün azad, müstəqil yolu, qətiyyətli siyasi kursu olan, cazibəsi, inkişafı ilə fərqlənən qürurlu bir dövlətdir.

Bu gün Ulu Öndərimiz Heydər Əliyev yolunu layiqincə davam etdirən Prezident cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə tariximizin yeni şərəfli səhifələri yazılır. Qurtuluşla başlanan və Zəfərlə davam edən şanlı tariximiz təsdiq edir ki, Ümummilli Lider böyük Heydər Əliyev yolu və Prezident cənab İlham Əliyev siyasəti müstəqil Azərbaycanın dönməz yüksəlişinin yeganə təminatçısıdır.

**Bəxtiyar ƏSGƏROV**
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri***

# Naxçıvanda Milli Qurtuluş Günü qeyd edilib










İyunun 14-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Sarayında Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət, hökumət rəsmiləri və ictimaiyyət nümayəndələri tədbirdə iştirak ediblər.



Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirin aparıcıları qeyd ediblər ki, dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömürboyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız Ulu Öndərimizin əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – "Milli Qurtuluş Günü" kimi qeyd edir. Artıq dörd ildir ki, bu günü qalib xalq kimi daha yüksək əhvali-ruhiyyə, milli qürur hissi, Qələbə ovqatı ilə qarşılayırıq. Müasir Azərbaycan Ulu Öndər Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş Azərbaycandır. Xalqımız əmindir ki, regionun lider dövləti olan Azərbaycan bundan sonra da böyük uğurlar qazanacaq, öz qüdrətini daha da artıracaq. Çünki ölkəmizin İlham Əliyev kimi qətiyyətli, güclü siyasi iradəyə malik Prezidenti var.

Tədbirdə 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş, eləcə də "Heydər Əliyev – Azərbaycan", "Heydər Əliyev – Mən fəxr edirəm ki, azərbaycanlıyam" videoçarxları nümayiş etdirilib. Videoçarxlarda son bir ildə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin tapşırığı ilə rəqəmsallaşdırılan Naxçıvan Dövlət Film Fondunun arxivində mühafizə edilən, eləcə də Naxçıvan televiziyasının arxivində qorunub saxlanılan Ümummilli Liderin heç yerdə olmayan unikal kadrları yer alıb.

Bədii hissə ilə davam edən tədbirdə Naxçıvan Dövlət Milli Dram Teatrının baş rejissoru Mir Qabil Əkbərov görkəmli dövlət xadiminə həsr olunmuş və Onun sevdiyi şeirləri bədii qiraət edib.

Naxçıvan Dövlət Filarmoniyasının solistlərinin ifasında "Heydər xalqım deyəcək", "Məşəl kimi yanan ürək", "Canım qurban, Azərbaycan", "Azərbaycan, sənsən mənim" mahnıları səsləndirilib, rəqs kollektivlərinin çıxışları izlənilib.

## "StartupFest Naxçıvan"a yekun vurulub, qaliblər mükafatlandırılıb




İyunun 14-də Asiya İnkişaf Bankının Azərbaycandakı Daimi Nümayəndəliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşkilatçılığı və Naxçıvan Dövlət Universitetinin tərəfdaşlığı ilə "StartupFest Naxçıvan" proqramının yekun tədbiri keçirilib, qaliblər mükafatlandırılıb.






Yekun tədbirində çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli festivalın əhəmiyyətindən bəhs edib. Bildirib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın əhatə etdiyi 11 prioritetə əlverişli biznes mühitinin yaradılması, ticarətin inkişafı, ixracyönümlü sənayenin inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, turizmin inkişafı, elektrik enerjisinin istehsalı və ixracı, sosial sektorun inkişafı və digər məsələlər daxildir. Sözügedən Dövlət Proqramının icrası həm də "yaşıl enerji", kənd təsərrüfatı, təhsil, dövlət sektorunda innovasiyalar istiqamətində startapların formalaşmasına təkan verəcək.



Samir Seyidəhmədli diqqətə çatdırıb ki, bu gün Naxçıvan Muxtar Respublikası yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu inkişaf mərhələsində gənc investorların və startapçıların iştirakı xüsusi əhəmiyyətə malikdir. Festivalın Naxçıvanda keçirilməsi də məhz muxtar respublika gəncləri üçün innovativ düşüncə tərzinin formalaşdırılması, qlobal trendlərin izlənilməsi və startap ekosisteminin inkişafı baxımından önəmli xarakter daşıyır.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov, Asiya İnkişaf Bankının Azərbaycandakı daimi nümayəndəliyinin rəhbəri Kendis MakDeyqan və Naxçıvan Dövlət Universitetinin Elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov iştirakçılara və komandalara innovasiyaların, startapların inkişafı, bu istiqamətdə həyata keçirilən dəstək tədbirləri barədə məlumat veriblər.

Diqqətə çatdırılıb ki, aprel ayından start verilən proqram çərçivəsində qeydiyyat və ilkin seçimlərdən sonra, ümumilikdə, 34 iştirakçı olmaqla, 14 komanda müsabiqəyə qoşulub. Bir ay ərzində peşəkar mütəxəssislər tərəfindən 29 təlim keçirilib, komandalara uğurlu texnoloji startapın təsis edilməsi məsələləri izah edilib.

"Yerli Texnoloji Startapların İnkişafının Təşviqi" layihəsi çərçivəsində həyata keçirilən festivalın final mərhələsində iştirak edən gənclər layihələrini təqdim ediblər.

Sonda təqdim olunan layihələr münsiflər tərəfindən qiymətləndirilib. Nəticələrə əsasən NDU-nun "Easy Agriculture" komandası 1-ci yerin qalibi olub. Qalib komandalara pul mükafatı və hədiyyələr təqdim edilib.

Qeyd edək ki, layihə qrant şəklində Koreya Respublikasının "e-Asiya" və "Bilik Tərəfdaşlığı" Fondu tərəfindən maliyyələşdirilir.

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ləğv edilmişdir

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 11 iyun 2024-cü il tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısının təsdiq edilməsi haqqında" 2011-ci il 26 noyabr tarixli Qərarında dəyişiklik edilərək "Duzdağ Fizioterapiya Mərkəzi" publik hüquqi şəxs həmin siyahıdan çıxarılmış və "Duzdağ Fizioterapiya Mərkəzi" publik hüquqi şəxsin işçiləri üçün stimullaşdırıcı əlavələrin həddinin təsdiq edilməsihaqqında" Nazirlər Kabinetinin 2018-ci il 13 sentyabr tarixli Qərarı ləğv edilmişdir.

*Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti*

# Kükü kənd tam orta məktəbinin 100 illik yubileyi qeyd olunub







İyunun 8-də Şahbuz rayonu Kükü kənd tam orta məktəbinin 100 illik yubiley tədbiri keçirilib. Tədbir iştirakçıları əvvəlcə məktəbdə olub, müasir tədris avadanlıqları ilə təchiz olunmuş sinif otaqlarında müəllim kollektivi və şagirdlərlə görüşüb, səmimi söhbət edib, təbriklərini çatdırıb, uğurlar arzulayıb, təhsil ocağında yaradılan “Kükü kənd tam orta məktəbinin 100 illiyi” guşəsi ilə tanış olublar.



Sonra məktəb binasının qarşısında müəllim və şagirdlərlə xatirə şəkli çəkdirilib.

Şahbuz Rayon Mədəniyyət Sarayında davam edən yubiley tədbirində Ümummilli Liderin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib. Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov əlamətdar hadisə münasibətilə məktəbin kollektivini təbrik edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin 2024-cü il 1 aprel tarixli əmri ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbin 20 illik və Şahbuz rayon Kükü kənd orta məktəbinin 100 illik yubileylərinin qeyd olunması, istər muxtar respublikanın, istərsə də ölkəmizin ictimai-mədəni həyatında mühüm hadisədir. Hər iki məktəbin yubileylərinin Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə eyni vaxta təsadüf etməsi təhsil ictimaiyyəti üçün çox sevindirici haldır. Yüzillik təhsil ənənələrinə malik Kükü kənd tam orta məktəbi hər bir məktəb üçün uğur payıdır və məktəbin tarixi inkişaf yolu barədə araşdırmaların aparılması təhsilə yön verməkdə əhəmiyyətli rol oynaya bilər. Bu baxımdan muxtar respublikanın aparıcı kütləvi informasiya vasitələri sayılan həm Naxçıvan televiziyasında, həm də “Şərq qapısı” qəzetində məktəbin tarixi, təhsil ənənələri barədə yayımlanan materiallarda da maraqlı faktlar öz əksini tapıb.




Elxan Nəcəfov qeyd edib ki, Naxçıvanda təhsil sahəsində son üç tədris ilində yüksək göstəricilər əldə olunub, buraxılış imtahanlarının nəticələrinə görə muxtar respublika məktəbləri ölkə üzrə ilk üçlükdə yer alıb. Builki nəticələrin bütün təhsil müəssisələri ilə yanaşı, Kükü kənd tam orta məktəbi üçün də uğurlu olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Tükəzban Quliyeva səlahiyyətli nümayəndə Fuad Nəcəflinin salamlarını bütün təhsil ictimaiyyətinə, Kükü kənd tam orta məktəbinin kollektivinə çatdırıb. Qeyd edib ki, Naxçıvan diyarı öz tarixi-mədəni abidələri, keçmişi, ən çətin günlərdə nüfuzu, məğrurluğu ilə tanınıb, bugünkü Azərbaycanın qurulmasında müstəsna rol oynayıb. Muxtar respublika qabaqcıl təhsil ənənələri ilə də hər zaman seçilib, burada fəaliyyət göstərən məktəblər ölkəmizə dəyərli ziyalılar, müxtəlif sahələr üzrə mütəxəssis, alimlər, xadimlər yetişdirib. Həmin təhsil ocaqlarından biri də bu gün 100 yaşı qeyd olunan Kükü kənd tam orta məktəbidir. Məktəbin tarixi ölkəmizin və Naxçıvanın keşməkeşli dövrünə, 1924-cü ilə gedib çıxır. Naxçıvan Muxtar Respublikasının da yaradılması ilə tarixə düşmüş həmin ildə Naxçıvan şəhərindən 52 kilometr məsafədə yerləşən Kükküdə ilk məktəbin açılması o dövrün şərtlərinə görə olduqca mühüm hadisə olub. Məktəbin yetirmələri Naxçıvanda təhsil quruculuğu sahəsində böyük işlər görüb, İkinci Dünya müharibəsi dövründə kadr ehtiyacını ödəmək üçün əllərindən gələni əsirgəməyiblər. 1950-ci illərdə məktəbdə 234 şagird təhsil alıb. Təqdirəlayiq haldır ki, təhsil ocağı bu gün də öz tarixi ənənələrinə sadiq şəkildə uğurla inkişaf edir, hər il nailiyyətləri ilə ölkəmizin təhsil sahəsinə töhfələr verir.



Kükü kənd tam orta məktəbinin məzunu olmasından böyük qürur hissi keçirdiyini deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli yubiley tədbirinin təşkilində göstərdiyi dəstəyə görə həm kənd sakinləri, həm də məktəbin məzunları adından səlahiyyətli nümayəndəyə minnətdarlıq edib. Qeyd edib ki, bu məktəb tarixi ənənələri, dəyəri olan təhsil ocağı kimi tanınır, seçilir. Bu baxımdan yubiley tədbirinin keçirilməsi həm də ölkəmizdə həyata keçirilən təhsil siyasətinin göstəricisidir. Məhz həmin siyasətin əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Bu gün bu siyasət ölkəmizdə uğurla davam etdirilir.

Vurğulanıb ki, məhz Ulu Öndərin müəyyənləşdirdiyi təhsil strategiyasının nəticəsi olaraq istər ötən əsrin 70-80-cı illərində, istərsə də müstəqilliyin bərpasından sonra Kükü kənd tam orta məktəbi böyük uğur yolu keçib. Hər iki tarixi dövrdə məktəb tam orta məktəb kimi fəaliyyətini bərpa edib, onun maddi-texniki bazası gücləndirilib, tədrisin təşkili üçün geniş imkanlar yaradılıb. 1990-1993-cü illərdə Ümummilli Liderimiz Naxçıvanda yaşadığı, fəaliyyət göstərdiyi dövrdə dəfələrlə ucqar kəndlərə səfər edib, oranın sosial-mədəni inkişafı ilə maraqlanıb. Həmin kəndlərdən biri də Kükü olub. Dahi şəxsiyyətin kəndə səfəri həm də sakinlərin yaşayışında stimul, motivasiya rolu oynayıb. Kənddə fəaliyyət göstərən məktəb müasir bina ilə təmin olunub, ən müasir maddi-texniki baza yaradılıb. Məktəbin ölkəmizin ictimai-siyasi həyatında mühüm yer tutan məzunları barədə söhbət açan Ali Məclisin Aparat rəhbəri Ülvi Hüseynli ölkə Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrasının Naxçıvanda təhsil sahəsinin daha da inkişafı, onun tərkib hissəsi kimi Kükü kənd tam orta məktəbinin uğurlarının çoxalması ilə nəticələnəcəyini vurğulayıb.

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev çıxışında bildirib ki, göstərilən yüksək dövlət qayğısından bəhrələnən Kükü kənd tam orta məktəbinin pedaqoji kollektivi şagirdlərin təhsili və təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olub. Bu özünü muxtar respublikada, eləcə də Azərbaycan Respublikasında keçirilən bilik yarışlarında, olimpiadalarda və digər tədbirlərdə məktəb şagirdlərinin qazandığı uğurlarda göstərir. Məktəb bir əsrlik fəaliyyətində, istər sovetlər zamanında, istərsə də müstəqillik illərində öz şagirdləri və yetişdirdiyi ziyalı nəsli ilə seçilən təhsil ocaqlarındandır. Bu gün rayonun, muxtar respublikanın, eləcə də ölkəmizin inkişafında Kükü kəndindən olan, ilk təhsilini bu məktəbdə alan yüzlərlə ziyalının əməyi vardır.

Sonra ölkə hüdudlarından kənarda təhsillərini davam etdirən və əmək fəaliyyəti ilə məşğul olan Kükü kənd tam orta məktəbinin məzunlarının videomüraciəti izlənilib.

Kükü kənd tam orta məktəbinin direktoru Mais Məmmədov məktəbin son illərdə qazandığı uğurlardan söhbət açıb. Bildirib ki, 2022-2023-cü tədris ilində məktəbi bitirən 4 nəfərin hamısı 100 faiz nəticə göstərərək ali məktəblərə qəbul olublar. Şagirdlərdən 2-si 500-700 intervalında bal toplayıb. Bu şagirdlərdən Mirisa Seyidov 550 balla NDU-nun Tibb fakültəsinə, Əli Məmmədli isə 668 balla ATU-nun tədris ingilis dilində Tibb fakültəsinə qəbul olaraq 4-cü qrup üzrə muxtar respublika birincisi olub, “Qızıl” nişana və respublika üzrə 102 şagirddən biri olaraq prezident təqaüdünə layiq görülüb. Bu il məktəbin 11-ci sinfini 9 şagird bitirir. Attestat imtahanında şagirdlər yüksək nəticələr göstərib, məktəbi bitirən şagirdlərdən 2-si – Gülay Kərimli 294 və Nihat Bağırlı isə 293 bal toplayıblar. XI sinfi bitirən şagirdlərdən 3-ü “Qızıl” nişana namizəd göstərilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimovun imzaladığı Sərəncama əsasən Kükü kənd tam orta məktəbinin 100 illik yubileyi münasibətilə təhsil sahəsində səmərəli fəaliyyətlərinə görə məktəbin 2 müəllimi “Əməkdar müəllim” fəxri adına layiq görülüb. Yubiley tədbirində həmin təltiflər, eyni zamanda fəaliyyətlərində fərqlənən bir qrup müəllimə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Fəxri fərmanı, təşəkkürnamələri, Şahbuz Rayon İcra Hakimiyyətinin Fəxri fərmanı təqdim olunub.

Sonra yubiley tədbirinin bədii-kompozisiya hissəsi başlayıb, rayon məktəblərinin şagirdləri şeirlər, mahnılar səsləndirib, rəqs nümunələri göstəriblər.

✍ **Nail ƏSGƏROV**

---

**Baş redaktordan**
**Sara ƏZİMOVA**



# Qərbi Azərbaycana Qayıdışın sədası Naxçıvandan eşidiləcək

Naxçıvan Azərbaycanın ən möhtəşəm tədbirinə – “Qərbi Azərbaycana Qayıdış” festival-konqresinə hazırlaşır. Ötən ilin noyabr ayında da keçirilən “Qərbi Azərbaycana Qayıdış” festival-konqresində də bizim silahla deyil, sülh yolu ilə, beynəlxalq hüquq çərçivəsində tarixi dədə-baba torpaqlarımıza qayıtmaq kimi mühüm mesajlar verdik. Azərbaycanın bugünkü reallıqları Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi və inkişafı ilə yanaşı, həm də Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın hüquqlarının bərpasıdır. Qeyd etməliyik ki, böyük tarixi Zəfərimizdən sonra Prezident cənab İlham Əliyevin dəstəyi ilə Qərbi Azərbaycan İcmasının yaradılması Azərbaycan tarixinin mühüm mərhələsini təşkil edir. Ali Baş Komandanın qərbi azərbaycanlılar məsələsində daim nümayiş etdirdiyi prinsipial mövqe, onların hüquqlarının bərpa olunmasına və öz doğma torpaqlarına qayıtmasına qəti və birmənalı dəstəyi, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının icrası ilə bağlı tapşırıqları hər bir azərbaycanlının qarşısına mühüm vəzifələr qoyur. Məhz bu baxımdan muxtar respublika rəhbərliyinin ikinci dəfədir, keçirdiyi “Qərbi Azərbaycana Qayıdış” festival-konqresi mühüm tarixi hadisədir. Daha dəqiq desək, Naxçıvanda keçirilən bu möhtəşəm tədbir cənab Prezidentin bu istiqamətdə müəyyənləşdirdiyi tapşırıqların icrası, xüsusilə də Qərbi Azərbaycanın tarixi, mədəni irsi və azərbaycanlıların tarixi-etnik torpaqlarından kütləvi deportasiyası məsələlərinə işıq tutulması ilə bağlı ölkəmizdə həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Bu tədbirin Naxçıvanda keçirilməsi təsadüfi deyil. Çünki Naxçıvan deportasiyaya məruz qalan qərbi azərbaycanlı soydaşlarımıza çətin günlərində dəstək olub, onlara qucaq açıb. Bu gün qərbi azərbaycanlıların böyük əksəriyyəti Naxçıvanda məskunlaşıb. Onlar öz adət-ənənələrini yaşadır, bir gün öz dədə-baba torpaqlarına qayıdacaqları günü səbirsizliklə gözləyirlər.

İyun ayının 21-22-də Zəngəzur Milli Parkında (Batabat yaylağında) Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə keçiriləcək festival-konqres dünyaya Qərbi Azərbaycana qayıdışın ayaq səslərini eşitdirən hadisələrdən olacaq. Konqresdə soydaşlarımıza qarşı həyata keçirilən mənfur deportasiya siyasətinin bütün qaranlıq məqamlarına yenidən aydınlıq gətiriləcək. Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasının üzvlərinin və Musiqi Kollecinin tələbələrinin təqdimatında Qərbi Azərbaycan ənənələrini əsasında kompozisiyalar, 2023-cü ildə keçirilmiş “Qərbi Azərbaycana Qayıdış” festival-konqresindən videoçarx nümayiş olunacaq. “Qərbi Azərbaycana Qayıdış” olimpiadasının qalibləri mükafatlandırılacaq. Həmçinin Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımıza məxsus tarixi faktlar, ədəbi-mədəni dəyərlər, folklor nümunələri, toponimika məlumatları, o yurd yerlərindəki tarixi-mədəni abidələri özündə əks etdirən kitab, jurnal, tədqiqat işləri, monoqrafiyalar, qəzetlər nümayiş olunacaq. Rəsm və memarlıq sərgisi festivala ayrı rəng qatacaq.

Hədəfimiz isə bəllidir:

*– deportasiyaya məruz qalmış soydaşlarımızın hüquqlarının bərpası*

*– Qərbi Azərbaycanda etno-mədəni terrora məruz qalmış tarixi-mədəni irsimizlə bağlı faktların ortaya qoyulması*

*– dünya elmi ictimaiyyətinə çatdırılması.*

Bu dəfə konqresin ən mühüm və maraqlı hissəsi Batabatda qərbi azərbaycanlı iki gəncin toy mərasiminin baş tutması olacaq. Toy mərasimində qərbi azərbaycanlı soydaşlarımızın adət-ənənələri, mətbəxi də nümayiş etdiriləcək. Dövlət başçımızın ***“Biz torpağımıza tankla, topla deyil, dinc şəkildə qayıtmaq istəyirik”*** ideyası ilə toy sədaları o yurd yerlərimizə çatacaq. Böyük Qayıdış missiyası ilə Qərbi Azərbaycanımıza da dönməyə, qəribsəmiş elimizi, yurdumuzu qəriblikdən qurtarıb qurub-yaratmağa başlayacağıq. Biz gəlirik. Özü də silahsız. Sülhlə Vətənimizə qayıdırıq. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar”.***

# İqlim dəyişiklikləri və dövlət idarəçiliyində yeni çağırışlar mövzusunda səyyar təlim keçirilib

Ölkə başçısı cənab İlham Əliyevin 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın müvafiq bəndinin icrasını təmin etmək məqsədilə dövlət qulluğunda bilik bacarıq və səriştənin inkişaf etdirilməsi ilə bağlı tədbirlər həyata keçirilir.

Bu tədbirlərin davamı olaraq 14 iyun tarixdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının təşkilatçılığı ilə Naxçıvan Biznes Mərkəzində dövlət orqanlarında çalışan dövlət qulluqçularına səyyar təlim keçirilib.

Təlimdən əvvəl Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının əməkdaşları Ulu Öndərin abidəsini ziyarət etmiş, dərin ehtiramlarını bildirmişlər.

Təlimdə giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Hüquq şöbəsinin müdiri Gülçin Dünyamalıyev çıxış edərək keçirilən təlimin mahiyyəti barədə məlumat vermişdir.



Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun "Prezident İlham Əliyevin yeni idarəçilik texnologiyaları: COP29-a aparan yol" mövzusunda mühazirəsi dinlənilib.

Qeyd olunub ki, mədəni irs bütün zamanlarda ətraf mühitin tərkib hissəsi olmaqla iqlim və münaqişələrin təsirinə məruz qalıb. XIX və XX əsrin sənayeləşməsi və böyük müharibələr bu prosesi daha da sürətləndirib. Bu gün isə bu çağırışlar, xüsusilə iqlim dəyişiklikləri qlobal xarakter alıb. İqlim dəyişiklikləri insan sağlamlığı, kənd təsərrüfatı, sənaye və digər sahələrlə yanaşı, mədəni və təbii irsə də öz mənfi təsirini göstərir. Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə daim öz töhfəsini verir. Ölkəmiz tərəfindən, əsasən, öz maliyyə vəsaitləri hesabına ətraf mühitin qorunması, yaşıllıqların bərpası, artırılması, təbii ehtiyatlardan, o cümlədən su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə imkanlarının genişləndirilməsi istiqamətində mühüm işlər görülür.



Rektor belə bir təlimin keçirilməsinin çox vacib olduğunu bildirib. O, Azərbaycan Prezidentinin Sərəncamı ilə 2024-cü ilin respublikamızda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin tərkib hissəsi olduğunu diqqətə çatdırıb.

Urxan Ələkbərov dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29-un ölkəmizdə keçirilməsinin siyasi və digər istiqamətlərlə yanaşı, Azərbaycanın iqtisadi və turizm cəhətdən də daha geniş inkişafına töhfə verəcəyinə əminliyini vurğulamışdır. Bildirilib ki, COP29-a ölkəmizin ev sahibliyi etməsi ilə bağlı qlobal həmrəylik artıq Azərbaycanın dünya səviyyəsində nüfuzunu göstərir və cənab Prezidentin apardığı əməli fəaliyyət neft ölkəsi kimi Azərbaycanın dünyanın karbon emissiyasının azaldılması gündəliyinə sadiqliyinə etimadın formalaşdığını ifadə edir.

Səyyar təlimdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası İntellektual sistemlərin idarə edilməsi kafedrasının müdiri, dosent Elvin Əzizbəyovun "Yaşıl Rəqəmsal dövlət idarəçiliyi:yeni çağırışlar və problemlər", Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası İnzibati idarəetmə fakültəsinin dekanı, dosent Elnur Əliyevin "Dövlət idarəçiliyində islahatlar: iqlim dəyişiklikləri prizmasında siyasi, hüquqi və institusional çərçivələr", Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının I prorektoru, professor Əlikram Abdullayevin "İqlim dəyişikliklərinin etik imperativləri" mövzularında mühazirələri dinlənilmişdir.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

# Göstərilən etimadı doğrultmağa çalışacağam



**İlhamə MUSTAFAYEVA**
***Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, tibb üzrə fəlsəfə doktoru, dosent***

Bu gün dövlət başçısı cənab İlham Əliyev Ulu Öndərin müəyyənləşdirdiyi strateji siyasət kursunu səhiyyə sistemində də layiqincə davam etdirir. Bu istiqamətdə görülən tədbirlər çərçivəsində kadr təminatının təkmilləşdirilməsi də vacib məsələ kimi daim diqqət mərkəzində saxlanılır. Ölkəmizin ali təhsil müəssisələri sırasında qabaqcıl yerlərdən birində qərar tutan, yaradılmasının 25 illiyi tamam olan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi Naxçıvanın blokada şəraitində olması nəzərə alınaraq tibbi kadrlara tələbatın ödənilməsi məqsədilə 1999-cu ildə Ümummilli Liderimiz Heydər Əliyevin himayəsi ilə yaradılmışdır. O dövrdə bir ixtisasla fəaliyyətə başlayan fakültə ötən müddətdə inkişaf edərək hazırda həm bakalavr, həm də rezidentura təhsili üzrə həkim hazırlığı həyata keçirir. Bu gün fakültənin müasir xəstəxanası tələbələrin nəzəri və praktiki biliklərinin təkmilləşdirilməsində müstəsna rol oynayır. Tibb sahəsi üzrə yüksəkixtisaslı kadrlar hazırlamaq və dünya tibb elminə daha sıx inteqrasiya etmək üçün universitet xarici ölkə universitetləri ilə sıx əlaqələr qurmuşdur.

Universitetimizdə yüksək səviyyədə qurulan beynəlxalq əlaqələr xarici ölkələrin ali məktəbləri ilə əməkdaşlıq müqavilələrinin bağlanılmasına, ikili diplom layihələrinin həyata keçirilməsinə, ortaq elmi araşdırmaların aparılmasına şərait yaradıb. Bu tədbirlər içərisində Tibb ixtisası üzrə təhsil alan tələbələrin qardaş Türkiyə Cümhuriyyətinin, eləcə də bir sıra xarici ölkələrin nüfuzlu universitetləri ilə əməkdaşlıq və keçirilən ənənəvi istehsalat təcrübələrinin də xüsusi yeri vardır.

Tibb fakültəsinin yaranmasının 25 illiyində mənim, eləcə də bir sıra həmkarlarımın fəxri adlarla təltif edilməsi əməyimizə verilən böyük qiymətdir. Mən fürsətdən istifadə edib Prezidentimiz cənab İlham Əliyevə, dövlətimizə dərin minnətdarlığımı bildirirəm. Bundan sonra da tibb sahəsinə, tibbi təhsilə töhfələr verəcək, bizə göstərilən etimadı doğrultmağa çalışacağıq.

# Əməyimizə verdiyi qiymətə görə dövlətimizə daim minnətdarıq



**Bəhruz MƏMMƏDOV**
***Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı, dosent***

Ulu Öndər Heydər Əliyevin xüsusi qayğısı sayəsində Naxçıvanda tibbi kadrlara, xüsusən də uşaq həkimlərinə olan tələbatı nəzərə alaraq 1999-cu ildə Naxçıvan Dövlət Universitetində Tibb fakültəsi açıldı.

Bu gün fakültənin müasir xəstəxanası tələbələrin nəzəri və praktiki biliklərinin təkmilləşməsində mühüm rol oynayır. Muxtar respublikamızda fəaliyyət göstərən bütün xəstəxanalarda tələbələrin təcrübə keçmələrinə hər cür şərait yaradılıb. Fakültəmizin məzunları təkcə muxtar respublikamızda deyil, respublikamızın bütün rayonlarında yerləşən xəstəxanalarında, həmçinin Avropa və Asiya ölkələrində də uğurla fəaliyyət göstərərək universitetimizin adını daim yüksəklərdə tutmaqla insanlara şəfa verirlər.

Universitetimizin professor-müəllim heyəti, hər bir tələbəsi daim dövlət qayğısını öz üzərində hiss edir. Bu gün Naxçıvan Dövlət Universitetində tibb sahəsi üzrə kadr hazırlığının 25 illiyi münasibətilə təltif edilməyimiz də məhz biz müəllimlərə bir daha göstərilən dövlət qayğısının bariz nümunəsidir. Əməyimizə verdiyi qiymətə görə dövlətimizə daim minnətdarıq.



# Naxçıvanın ümumtəhsil məktəblərində "Son zəng" tədbirləri keçirilib



İyunun 14-də Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində və liseylərdə "Son zəng" tədbirləri keçirilib.

Tədbirlərdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra Təhsil Nazirliyinin əməkdaşları, məktəb direktorları, valideynlər, ictimaiyyət nümayəndələri çıxış edərək müəssisələrin qazandığı uğurlardan, şagirdlərin əldə etdikləri nailiyyətlərdən danışıb, məzunları təbrik ediblər.

Tədbirlər məzunların hazırladıqları ədəbi-bədii kompozisiyalarla davam etdirilib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov bir neçə təhsil müəssisəsində "Son zəng" tədbirlərində iştirak edib və məzunlar, onların valideynləri, müəssisələrin kollektivləri ilə görüşüb, məzunları təbrik edib, gələcək həyat və təhsillərində nailiyyətlər arzulayıb.

Heydər Əliyev adına tam orta məktəbin "Son zəng" tədbirində iştirak edən təhsil naziri 2023-2024-cü tədris ilinin uğurlarından söz açaraq son dövrlərdə muxtar respublikada təhsil sahəsində həyata keçirilən məqsədyönlü tədbirlərdən danışıb. Qeyd edib ki, əsası Ulu Öndər tərəfindən qoyulan təhsil strategiyası bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasında da təhsil sahəsi özünün yeni inkişaf mərhələsinə qədəm qoyub.





Nazir vurğulayıb ki, bu il muxtar respublikanın 212 ümumtəhsil məktəb və liseyindən 3500 məktəbli məzun olur. Məzunlar builki buraxılış imtahanlarında yüksək nəticələri ilə yadda qalıb. Belə ki, son üç ilin nəticələrinə nəzər saldıqda ilk dəfə olaraq 4 məzun Dövlət İmtahan Mərkəzi tərəfindən tam (11 illik) orta təhsil səviyyəsi üzrə keçirilmiş buraxılış imtahanında 300 bal toplamaqla ən yüksək nəticəni göstərib. Həmçinin 749 məzun 200-300 intervalında bal toplayıb ki, bu da son üç ilin ən yüksək nəticəsidir. "Müqayisə üçün bildirək ki, ötən tədris ilində 295 məzunumuz 200-300 bal intervalında nəticə göstərib", – deyən Elxan Nəcəfov diqqətə çatdırıb ki, Dövlət İmtahan Mərkəzi də açıqlamasında tam (11 illik) orta təhsil səviyyəsi üzrə keçirilmiş buraxılış imtahanında ən yüksək nəticəsinə görə muxtar respublikanın ümumtəhsil məktəblərinin ikinci yerdə olduğunu bildirib.



Qeyd edək ki, 2023-2024-cü tədris ilində Naxçıvanda ümumtəhsil məktəbləri və liseylərdən 3500 məktəbli məzun olub.

# Naxçıvan şahmatçısı ölkə birincisi kimi dünya çempionatına vəsiqə qazanıb

*Azərbaycan Şahmat Federasiyası və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə şahmat üzrə 8, 10, və 12 yaşadək oğlanlar və qızlar arasında ölkə çempionatının final mərhələsi keçirilib. Respublika Şahmat Mərkəzində reallaşan həlledici yarışda Naxçıvan Şahmat Federasiyasından 2 idmançı medallar uğrunda mübarizə aparıb.*



*Təmsilçilərimizdən Yasin Əzimov 10 yaşlı oğlanlar arasında 9 turluq mübarizədən məğlubiyyətsiz ayrılıb. Keçirdiyi görüşlərdən 7 qələbə, 2 heç-heçə əldə edən idmançı 8 xallıq göstərici ilə öz yaş kateqoriyasında ölkə çempionu olub. Ötən ildə 9 yaşlılar arasında qitə birincisi olan azyaşlı şahmatçımız uğurun davamını gətirmək üçün əla fürsət əldə edib. Belə ki, ölkə çempionatının reqlamentinə əsasən 1-ci yerlərin sahibləri dünya çempionatında ölkəmizi təmsil etmək hüququ qazanır.*

*Əlavə edək ki, ölkə çempionatının final mərhələsinə vəsiqə qazanan daha 4 muxtar respublika şahmatçısı – Fatimə Yusifli, Rza Həsənli, Mirsaleh Seyidli və Ramal Həsənov 14-16 iyun tarixlərdə Quba şəhərində keçiriləcək 14, 16 yaşlıların mübarizəsində iştirak edəcək. Həmin yaş kateqoriyaları üzrə yarışlar 17-27 iyun tarixlərini əhatə edəcək.*




*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şahbuz rayonunun Ayrınc kəndindən olan şəhidimiz Elşən Orucovun anası Səfurə Orucovanın, Babək rayonunun Nəzərabad kəndindən olan şəhidimiz Elvin Məmmədovun anası Nisə Məmmədovanın və Şahbuz rayonunun Şada kəndindən olan şəhidimiz Səbuhi Tağıyevin anası Ceyhunə Tağıyevanın övladları haqqında xatirələri yer alıb.*

# 100 ilin qəhrəmanları

## Elşən Yavər oğlu Orucov

*(11.08.1985-22.10.2020)*

## Elşən mənim dərd ortağım idi





Oğlumun xatirələri çoxdur. Biz kənddə yaşamışıq. Elşən də kənddə böyüyüb. Bilirsiniz ki, kənddə böyüyən insanlar daha zəhmətkeş olurlar. Elşən də belə oğlan idi. Düzdür, biz deyirik ki, övladlarımızı çətin şəraitdə böyütmüşük. Onlar da bizimlə bərabər çətinlik çəkiblər.

Elşən tam başqa oğul idi. Qayğıkeş, qədirbilən uşaq olub. O sanki mənim valideynim idi. Uşaqlar balaca olanda ataları bəzi səbəbdən yanımızda olmadı. Həmin vaxt Elşən mənə ata, ana, bacı, qardaş, sirdaş, hər şey oldu. Evin bütün qayğılarını Elşən çəkdi. Həmin vaxtlar Naxçıvanda şərait çətin idi. Elşən balaca olmağına baxmayaraq, çöldən odun yığıb gətirir, qışda soyuqdan əziyyət çəkməyimizə imkan vermirdi.




Bir hadisə heç yadımdan çıxmır. Elşənin atası yanımızda deyildi. Oğlumun beş yaşı var idi. Bir gün mişarla odun doğrayırdım. Tək idim. Bilirsiniz ki, mişarı iki nəfərlə çəkirlər. Elşən gördü ki, mən mişardan tək yapışmışam odunu kəsmək istəyirəm. Tez qabağa gəldi. Mişardan yapışıb odunu kəsməyə başladı. Uşağın gücü çatmadığı halda mənə belə kömək edirdi. Balacalığından belə qayğıkeş idi. Məni bir çətin vəziyyətdə görəndə özünü rəsmən oda atırdı. Çalışırdı ki, çətin işləri özü görsün.

Çox çətin vəziyyətdə yaşayırdıq. Birdən buna görə ağlayırdım. Baxırdım ki, məni qucaqlayıb o da mənimlə bərabər ağlayır. Sanki mənim dərd ortağım idi. Onda sakitləşirdim ki, uşaq ağlamasın.

Atası qaynaqçı idi. Hələ 2 ya 3-cü sinifdə oxuyardı. Bir dəfə həmin qaynaqdan istifadə edərək elə soba düzəltmişdi ki, az odunla ev yaxşı isinirdi. Əlindən hər şey gəlirdi.

Hərbiyə də özü getdi, çox meyili var idi. Çox yaxşı oxuyurdu. Elşən şəhid olanda mayor idi. Sonuncu danışığı oktyabrın 6-da oldu. Ayın 22-də isə şəhid oldu. Mənim oğlum da digər şəhidlərimiz kimi qəhrəman idi. Vətən sağ olsun!

## Elvin Etibar oğlu Məmmədov

*(01.10.1997-01.10.2020)*

## Doğum günündə şəhidlik zirvəsinə ucalan Elvin





Elvin evimizin balacası, ərköyünü, uşaqlarımızın gözü olub. Ona heç vaxt "yox" kəlməsini işlətməmişik. Çox yaxşı oxuyurdu Elvin. Müəllimi görəndə ki, bir az zəiflik göstərir dərslərində tez göndərirdi evə ki, anan gəlsin. Mən də tez-tez gedib onun dərsində otururdum. Çox yaxşı oxuyurdu. Hərbi liseyə də 270 balla qəbul olmuşdu.

Elvinin o qədər xatirələri vardır ki... Böyük arzuları var idi Elvinin. Elə hey deyirdi ki, evlənim. Evlənmək istəyirdi. Amma gözündə qaldı balamın. Elə hey xəyal qururdu. Deyirdi, ana, belə ailə quraram, belə yaşayarıq.

Sonuncu dəfə 30 sentyabrda danışdıq. Səhərisi 1 oktyabrda ad günü olacaqdı.



Dedim, Elvin, ehtiyatlı ol. Dedi, ana, Allaha təvəkkül. Düz üç dəfə o sözü dedi. Atası ilə də danışdı. Atası dedi, vəziyyət belədir. Dedi, ata, narahat olma. Bizi heç yerə aparmayıblar. Olar ki, birdən mənə zəng çatmaz. Ya şəbəkə olmaz, ya da telefonun batareyası qurtarar. Onun da narahat olmağını istəmirdi. Əvvəl elə bilirdi ki, mənim xəbərim yoxdur ki, o müharibədədir. Sonra böyük oğlum deyib ki, anam bilir sənin harada olduğunu. Sonra gündə iki dəfə mənə zəng vururdu.

Sonuncu danışığımız da 30 sentyabrda oldu. Oktyabrın 1-də doğum günü üçün tezdən zəng vurduq. Amma zəng çatmadı. Sən demə, həmin vaxt balam şəhid olub. Öz doğum günündə şəhidlik zirvəsinə ucaldı.

Döyüş yoldaşları bizi görməyə gəlmişdilər. Onlar danışırdılar ki, heç qorxmurdu. Hətta olduğumuz yeri top atəşinə tuturdular. Elvin isə heç yerə əyilmirdi. Əyilmədiyi üçün də qəlpələr qurşaqdan aşağı bədəninə dolmuşdu. Sonra onu yaralı vəziyyətdə maşına götürüblər. Maşın yaralıları Füzuliyə aparanda yolda maşını vurublar. Elvin elə orada da şəhid olub.

Övlad dərdi çox ağırdır, çəkə bilmək hər kəsin işi deyil. Amma nə etmək olar ki, Vətən sağ olsun!

## Səbuhi Gündüz oğlu Tağıyev

*(22.06.1998-11.04.2023)*

## Torpağın çağırdığı şəhid





Səbuhini lap balaca vaxtından nənəsi, yəni mənim anam saxlayıb böyüdüb. Məktəbə gedəndə mənim yanıma gəlib. Birinci sinfə gedirdi. Amma nə qədər edirdik bizimlə qalmırdı. Elə hey ağlayıb nənəsini istəyirdi. Hətta böyümüşdü, məzuniyyətə gələndə də, əsgərlikdən gələndə də birinci nənəsigilə gedərdi. Nənəsi ilə, xalası ilə nəfəs alırdı. Balaca vaxtından mehriban, qoçaq, mərd idi. Heç nədən qorxmazdı. Böyüklüyü də tam başqa idi. Bacısı dörd il universitetdə oxudu. Hər ay bacısına pul göndərərdi. Əməkhaqqını alan kimi bacısına zəng vurardı ki, kartına pul göndərdim. İki ay bacısına pul göndərə bilmədi. Bacısı universiteti qurtarmağına 2 ay qalmış Səbuhi şəhid oldu.

Hərbiyə marağı çox idi. İlk olaraq hərbi liseyə sənəd vermişdi. İmtahandan keçdi, amma ürək döyüntüsü yüksək olduğu üçün qəbul edilmədi.

Amma Səbuhi çox mübariz idi. Əsgərlikdən gəldikdən sonra hərbidə işləməyə qərar verdi. 2019-cu ildə işləməyə başladı. 2020-ci ildə müharibə başlayanda dəfələrlə müraciət etdi ki, onu müharibəyə aparsınlar. Alınmadı. Sonra yenə könüllü olaraq yazıldı. Yenə aparmadılar. Elə bil ki, şəhid olmağa can atırdı. Qarabağ torpaqlarını arzulayırdı. Burada komandir sürücüsü idi. Komandirinin təyinatı Qarabağa çıxanda Səbuhi də getdi. Sanki torpaq onu çağırırdı. Həmişə deyirdi ki, ana, Laçın bir başqadır. Nə qədər ki işləyirəm mən Laçında qalacağam.

Şəhid olmamışdan bir gün qabaq, aprelin 10-da görüntülü danışdıq. Heç vaxt görüntülü danışmağa imkan olmurdu. Həmişə yanında kimsə olurdu. Gördüm maşındadır. Dedim, bu gün niyə təksən. Dedi, ana, komandiri gətirmişəm, danışığa gedib. Balam həsrət olduğu torpaqda şəhid oldu. Düşmənin üzərinə igid Azərbaycan əsgəri kimi getdi. Ən təhlükəli yerlərə maşınını sürürdü. Heç qorxusu olmadan. Sevdiyi torpaq uğrunda da şəhid oldu. Təskinliyimiz ondadır ki, Səbuhi kimi oğulların sayəsində torpaqlarımız azad edildi.



# Muxtariyyət sevdalısı olan Naxçıvan teatrı



Bu il Naxçıvan muxtar respublika kimi özünün 100 illik yubileyini ölkə başçısının Sərəncamı ilə təntənəli şəkildə qeyd edir. Bir əsrdir ki, Azərbaycanın tərkibində onun "yavru məmləkəti" kimi mövcudluğunu qoruyub saxlayan və milli dəyərləri, məfkurəni, iqtisadiyyatı, sosial və ictimai həyatın digər sahələrini inkişaf etdirən Naxçıvan mədəniyyəti də özünəməxsus şəkildə təbliğ olunur. Təbii ki, bu sahədə Naxçıvan teatrı öndə gedir. Hətta muxtar respublikadan 41 il əvvəl yaranan Naxçıvan teatrı muxtariyyətdən öncə də özünün inkişafı ilə diqqəti çəkir. Lakin 1924-cü ildən sonra teatra göstərilən dövlət qayğısı və teatrın mədəniyyət ocağı olmaqla bərabər, həm də cəmiyyət üçün təsirli "təbliğat maşını" olmasını yaxşı dərk edən ziyalılar, teatr biliciləri bundan ustalıqla istifadə ediblər.

Muxtariyyət Naxçıvan camaatı üçün çox əhəmiyyətli və vacib olan bir fakt idi. Hələ də sovet hökumətinin tərkibində olan Ermənistan bu əzəli və qədim türk torpaqlarına iştahasını və son ümidini itirməmişdi. Lakin buranın yerli və köklü sakinləri hər cəhdlə ermənilərin bu "iştaha dişini" dolayı və birbaşa təsirlərlə çəkib atmağa hazır idi. Bu mənada, daha sivil və təsirli vasitə olan mədəniyyətdən, eyni zamanda o zaman onun daha avanqard qolu olan teatrın gücündən istifadə edilirdi.

Naxçıvan teatrının 100 illik tarixinə baxanda (1920-ci illərin sonuna qədər afişalarda Naxçıvan Türk Hökumət Tiyatrosu yazılırdı) daha çox milli, eyni zamanda azadlıq və istiqlaliyyəti tərənnüm edən mövzularda əsərlərin səhnəyə qoyulduğu müşahidə edilir. Teatrda islahatların aparılması üçün muxtariyyətin ilk ilində – 1924-cü ilin əvvəlində Naxçıvan Xalq Maarif Komissarlığının əmri ilə Naxçıvan Ölkə Teatr Komitəsi təşkil edilir. Elə bunun nəticəsində ilk dəfə olaraq 100 il əvvəl – 1924-cü ildə Zina Budaqova və Nadirə Rzayeva kimi iki istedadlı türk qadın aktrisa Naxçıvan teatrının səhnəsinə gəlir. Halbuki buna qədər qadın rollarını kişilər və ya başqa millətlərə məxsus olan qadınlar kobud ləhcə ilə oynayırdı. Həmin il görkəmli sənətkar Kazım Ziya da Bakıdan Naxçıvan teatrına dəvət edildi. 1924-cü ilin may ayından 1925-ci ilin may ayına qədər bu teatrda baş rejissor kimi çalışan korifey sənətkar gürcü dramaturqu Mçedlişvilinin "Qaçaq Kərəm", Kazım Ziyanın özünün ərsəyə gətirdiyi "Qanlı toy", H.Cavidin "Şeyda" əsərlərinə quruluş verib.

Yenicə əldə olunmuş muxtariyyət teatr adamları, fədailəri üçün yeni üfüqlər demək idi. Artıq dövlət statusu alan sənət məbədində milli dəyərlərin qorunub saxlanması və təbliği işinin bir hissəsini də məhz teatr öz üzərinə götürmüşdü. 1924-cü ildə bu teatrda C.Məmmədquluzadənin "Ölülər" (rejissoru Həsən Səfərli) və yuxarıda qeyd etdiyimiz kimi, Kazım Ziyanın quruluğu tamaşaların hazırlanması bunu bir daha təsdiqləyir. Bundan başqa, həmin ilin mart ayında Tiflis Türk Akademik Dram Teatrının aktyorları Naxçıvana qastrola gəlmiş və avqustun axırına kimi yerli aktyorlar bu tamaşaları vermişlər: Ş.Sami "Gaveyiahəndar" ("Dəmirçi Gavə"), Ü.Hacıbəyov "Əsli və Kərəm", Ü.Hacıbəyov "Leyli və Məcnun", N.Nərimanov "Nadir şah", Ü.Hacıbəyov "Arşın mal alan", C.Cabbarlı "Aydın", Ü.Hacıbəyov "Şah Abbas və Xurşidbanu", Ü.Hacıbəyov "Məşədi İbad", M.Kazimovski "Daşdım-daşdım" (bu tamaşa o zaman Tiflis Teatrında işləyən Naxçıvan teatrının aktyoru – rejissoru Səməd Mövləvi, Nadirə xanım və yerli aktyorların birgə iştirakı ilə təqdim edilib). Yəni muxtariyyətin ilk ilində 20-dək tamaşa hazırlanıb və ya əvvəllər hazırlanan tarixi və milli mövzuları əhatə edən oyunlar tamaşaçılara göstərilib. (Faktlar "Naxçıvan teatrının salnaməsi" kitabından götürülüb).

Teatr 1930-cu illərin ictimai-siyasi həyatından bəhs edən tamaşalarla izləyicilərin görüşünə gəlib. Daha çox isə Cəfər Cabbarlının həmin illərdə məşhur olan "Sevil", "Almaz", "Yaşar" kimi əsərləri davamlı olaraq səhnələşdirilib. 1940-cı illərdə – İkinci Dünya müharibəsi zamanı isə arxa cəbhədə "vuruşan" sadə insanların əhvali-ruhiyyəsini yüksəltmək, gələcəyə inam yaratmaq üçün S.Vurğunun "Vaqif", "Fərhad və Şirin", U.Şekspirin "Otello", Süleyman Rüstəmin "Qaçaq Nəbi", Məmmədhüseyn Təhmasibin "Aslan yatağı", Üzeyir Hacıbəyovun komediyalarını səhnələşdirməklə faşizmə qarşı mübarizə aparırlar. 1943-cü ilin iyun ayında İbrahim Həmzəyev, Səməd Mövləvi, İsa Musayev və Əyyub Haqverdiyevə "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adı verilib. Bu mükafata onlar teatr sənətinin inkişafında xidmətlərinə və arxa cəbhədə mədəni xidməti səmərəli təşkil etdiklərinə görə layiq görülüblər.

1941-45-ci illər müharibəsindən sonrakı illərdə teatrın repertuarına salınan tamaşalar insanlara müharibə travmalarını sağaltmaq, yeni həyata başlamaq, dəyən maddi və mənəvi zərbənin fəsadlarını aradan qaldırmaq üçün insanlara əlavə motivasiya verilməsinə hesablanmışdı. Yenə də milli dramaturgiyadan və dünya ədəbiyyatından seçilən komediyalar, vətənpərvərlik, qəhrəmanlıq ruhunda dram əsərlərinə üstünlük verilirdi. Təbii ki, M.F.Axundov, Üzeyir Hacıbəyov, Səməd Vurğun, Sabit Rəhman, U.Şekspir, Molyerin əsərləri üstünlük təşkil edirdi.

Naxçıvan teatrının sonrakı illərdə də muxtar respublikanın yubileyləri münasibətilə maraqlı repertuarı olub. Hətta teatrın bugünkü müasir binası da 1964-cü ildə Naxçıvan Muxtar Respublikasının 40 illik yubileyi ərəfəsində Kəmalə Ağayevanın "Məhsəti" pyesi ilə fəaliyyətə başlayıb. Artıq bu istiqamətdə yetərincə püxtələşən Naxçıvan teatrı ən yaxşı əsərlərini məhz həmin illərdə təqdim edib. Naxçıvan MSSR-in 40 illiyi münasibətilə Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Naxçıvan Dövlət Dram Teatrında (1965-ci ildən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı) göstəriləcək əsərlərin bədii-estetik keyfiyyətini artırmaq məqsədilə Bakıdan rejissor dəvət edilib və rejissor Niyaz Şərifovun quruluşunda Əbil Yusifovun "Çiçəklənən arzular" əsəri səhnələşdirilib.

1970-80-ci illər isə Naxçıvan teatrının əsl intibah dövrü idi. Korifey sənətkarlarla yanaşı, alitəhsilli gənc aktyor və rejissorların bu sənət ocağına axını öz təsirini göstərdi. Baxşı Qələndərli, İbrahim Həmzəyev, Vəli Babayev, Vaqif Əsədov, Əliqismət Lalayev kimi rejissorlar məmnuniyyətlə Zemfira Əliyeva, Rövşən Hüseynov, Yasəmən Ramazanova, Həsən Ağasoy, Əli Əliyev, Nəzakət Xudiyeva, Rza Xudiyev, Behruz Haxverdiyev kimi aktyorlarla tamaşalar hazırlayırdılar.

Hətta 1987-ci ildə Vaqif Əsədovun quruluş verdiyi Sofoklın "Elektra" tamaşası keçmiş SSRİ məkanında, Tiflisdə keçirilən festivalın qalibi olaraq Mərkəzi Televiziya ilə bütün ölkədə yayımlanmışdı.

1990-cı illərdə də iqtisadi və siyasi çətinliklərə baxmayaraq, teatr öz fəaliyyətini bir il də olsun, dayandırmadı. Həmin illərdə Zakir Fətəliyev, Cəbrayıl Nəbiyev, Vidadi Rəcəbli, Zülfiyyə Zeynalova, Günay Qurbanova, Kəklik Novruzova, bu sətirlərin müəllifi teatra gələrək bu sənət məbədinin ənənələrini yaşatmaq üçün çalışıblar.

Muxtariyyətin mövcud olduğu 100 illikdə Naxçıvan teatrının səhnəsində 800-ə yaxın müxtəlif mövzulu əsərlər tamaşaya qoyulub. Bunların arasında dünyaşöhrətli Sofokl, U.Şekspir, Lope de Veqa, Molyer, Şiller, H.İbsen, G.Fiqereydo, Ç.Aytmatov, N.Qoqol, A.Çexov, Meterlink, Hüqo, N.Hikmət, Ə.Nesin, A.Makayonok, K.Simonov və onlarla dramaturqun əsərini Naxçıvan tamaşaçısı məhz teatrımızın səhnəsindən izləyib. Bundan başqa, yerli müəlliflər C.Məmmədquluzadə, H.Cavid, E.Sultanov, C.Cabbarlı, S.Vurğun, B.Vahabzadə, M.Nəsirli, H.Arzulu, H.Razi, A.Babayev, H.Eyvazlı, E.Həbib və onlarla yerli dramaturqun pyeslərinə quruluş verilib.

Teatra 1923-cü ildə Dövlət Dram Teatrı, 1937-ci ildə M.F.Axundovun adı, 1965-ci ildə Cəlil Məmmədquluzadənin adı və Musiqili Dram Teatr və 2022-ci ildə isə Milli Dram Teatr statusu verilib. Hazırda teatrda 4 Xalq artisti, 5 nəfər Azərbaycan Respublikasının Əməkdar artisti, 3 nəfər Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, 1 nəfər Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, 1 nəfər Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, 3 nəfər "Tərəqqi" medalı olan sənətkar çalışır. İki nəfər isə bu il Prezident mükafatına layiq görülüb.

Naxçıvan teatrının ikinci dəfə, müstəqillik illərində yenidən doğulması isə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, 1991-92-ci illərdə ölkədə hakimiyyətdə olan qüvvələr Naxçıvan teatrının fəaliyyətini məlum səbəblərdən gəlirgətirən müəssisə olmadığı üçün dayandırmaq istəyirdi. Lakin teatrın hamisi və ən yaxşı tamaşaçısı olan Ümummilli Lider həmin illərdə teatrda hazırlanan Ü.Hacıbəyovun "Ordan-burdan" tamaşasına özü şəxsən gəlib baxmış və sonra səhnə arxasına keçərək aktyorlarla görüşmüşdür. Bundan sonra isə ətrafında teatrın bağlanmasını israr edən adamlara üzünü tutaraq ***"Sizin görə bilmədiyiniz işi teatr görür. Siz bir neçə adamın qarşısında çıxış edə bilmirsiniz, amma teatr minlərlə insanın qarşısında öz sözünü deyir!"*** söyləyib. Bundan sonra isə Naxçıvan teatrının fəaliyyətinin dayandırılması mövzusu bağlanıb.

O da faktdır ki, Naxçıvan teatrının kollektivinin hazırladığı N.Həsənzadənin "Atabəylər" tamaşasını 2004-cü il mayın 14-də teatrın zalında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva da izləyib. Bu da teatrın kollektivi üçün ən unudulmaz hadisədir.

Son illər Naxçıvanda müsbət istiqamətdə gedən ictimai-siyasi proseslər Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrından yan keçməyib. Teatrın repertuarının öz əməkdaşları tərəfindən sərbəst şəkildə seçilməsi, yaradıcı mühitin formalaşmasında görülən işlər diqqəti çəkir. Ötən il teatrın yaranmasının 140-cı yubileyi ərəfəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin M.Ü.Görgülünün "Cibimizdəki dəlilik" komediyasını və şəhid övladları üçün Yeni il ərəfəsində hazırlanan tamaşanı izləməsi və bundan sonra yaradıcı heyətlə görüşü, eyni zamanda 2023-cü ildə teatr kollektivinin Bakı, Gəncə, Sumqayıt, qardaş Türkiyənin İzmir, Foça, Sardes, İğdır şəhərlərində qastrollarda və festivallarda iştirakı da bu sənət ocağına diqqətin təzahürüdür.

Naxçıvan teatrı bu gün də bu ənənəni davam etdirir. Belə ki, Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə repertuara salınan H.Eyvazlının "Araz sahilində doğan günəş" əsəri hazırlanaraq tamaşaçılara təqdim olunub. Tamaşanın mövzusu 1923-24-cü illərdə Naxçıvanda baş verən gərgin ictimai-siyasi hadisələr, eyni zamanda bu hadisələrin Bakıda, Moskvada və Ankarada əks-sədasından bəhs edir. Həmin illərdə sovet Rusiyası, bir çox ermənipərəst bolşeviklər və daşnaklar Naxçıvanı Azərbaycandan qoparıb Ermənistana vermək üçün dəridən-qabıqdan çıxırlar. Lakin Nəriman Nərimanovun rəhbərlik etdiyi Bakıda fəaliyyət göstərən Behbud ağa Şahtaxtinski, Mirzə Davud Hüseynov, eyni zamanda Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Kamal Paşa Naxçıvana muxtariyyət verməklə Azərbaycanın tərkibində qalması üçün siyasi mübarizə aparırlar. Nəticədə, Naxçıvan camaatı, Bakı və Ankara bu mübarizədən qalib çıxır. Uğurlu alınan tamaşanın quruluşçu rejissoru Mir Qabil Əkbərov, rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, musiqi tərtibatçısı Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Azər Cəfərlidir. Tamaşa bundan sonra da uzun illər teatrın repertuarında qalacaq.

**Səməd CANBAXŞİYEV**
*Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti*





# Tanrıya saf və sonsuz sevgidən doğan müqəddəs bayram

İslam dünyasının müqəddəs bayramlarından sayılan Qurban bayramı hər il ölkəmizdə dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunur. Dünya müsəlmanlarının birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramını Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımız da sevinclə qeyd edirlər. Bu, xalqımızın mənəvi dəyərlərinə dövlət qayğısının nəticəsidir. Ümumilikdə, dini-mənəvi dəyərlərə həssas münasibət, müxtəlif dinlərə və sivilizasiyalara hörmət, tolerantlıq demokratik Azərbaycan cəmiyyətinin mənəvi əsaslarını təşkil edir.

Müqəddəs Qurban bayramı İslam aləmində ən əziz bayramlardan biri, eyni zamanda müsəlmanların Həcc ziyarəti mərasiminin bir hissəsidir. Bütün müsəlman aləmində hər il Hicri təqvimi ilə Zilhiccə ayının 10-cu günündən başlayır və adətən, üç gün davam edir. İslam dinində bu ayin xüsusi mahiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman işığı durur.

Dostluğun, qardaşlığın, fədakarlığın cəmiyyətdə inkişafı və gələcək nəsillərə təlqin edilməsi üçün gözəl fürsət kimi dəyərləndirilən Qurban bayramı hicrətin ikinci ilində fərz qılınıb. "Qurani-Kərim"in "Kövsər" surəsində deyilir: *"Rəbbin üçün namaz qıl və qurban kəs. De ki: "Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi – Allah üçündür". "Biz hər bir ümmət üçün bir qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi verdiyi dördayaqlı heyvanların üstündə (onları kəsdikləri zaman) Allahın adını çəksinlər".*

Sovet imperiyasının tərkibində yaşadığımız 70 il ərzində də xalqımız tarixi keçmişindən, dini və milli-mənəvi dəyərlərindən uzaqlaşmadı. Bütün dövrlərdə Azərbaycan xalqı insani kamilliyə, mənəvi paklığa qovuşmağa, xeyirxah işlər görərək savab qazanmağa can atıb, İslam dininin mahiyyətini dərk edərək onun müqəddəs çağırışlarına, mərasim və ayinlərinə əməl etməyə çalışıb. Azərbaycan xalqı hələ sovet dönəmində bütün qadağalara baxmayaraq, müqəddəs Qurban və Ramazan bayramlarını da qeyd edirdi.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bütün sahələrə ayrılan diqqət kimi, milli-mənəvi dəyərlərimizə də xüsusi önəm verildi. Dini ocaqların, müqəddəs yerlərin təmir və bərpa işlərinin əsası da o vaxtdan qoyuldu. Ümummilli Lider Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra respublikamızın ərazi hüdudlarında yaşayan bütün xalqların mədəniyyətinə, adət-ənənəsinə, dini baxışlarına tolerant münasibətin vacibliyini xüsusi vurğulamışdır. Konstitusiyanın qəbulundan sonra ölkədə dini-mənəvi münasibətləri tənzimləyən milli qanunvericiliyin təkmilləşdirilməsi də bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Ulu Öndər Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbriklərindən birində demişdi: ***"Qoy bütün milli və dini bayramlarımız kimi, mübarək Qurban bayramı da xalqımızın yüksək ideallar ətrafında daha sıx birləşməsini təmin etsin, azad, müstəqil və demokratik Azərbaycan dövlətinin gələcək inkişafı naminə bütün azərbaycanlılar arasında ümummilli həmrəyliyi möhkəmləndirsin!"***

Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə müəyyən etdiyi dəst-xəti cənab İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin elə ilk dövründən əsas istiqamət kimi götürüldü. Prezident cənab İlham Əliyev dini-mənəvi dəyərlərin, maddi mədəniyyət abidələrinin bərpası və təmiri ilə bağlı ardıcıl tədbirlər görməyə başladı. Azərbaycan xalqının dini dəyərlərinə böyük ehtiram göstərən Prezident cənab İlham Əliyev hər il Azərbaycan xalqına bayram təbriki ünvanlayır və xoş arzularını çatdırır. Dövlətimizin başçısı müraciətində Qurban bayramının Allahın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi özündə mənəvi birliyi, həmrəyliyi, xeyirxahlığı və dözümlülüyü ehtiva edərək insanın ən çətin məqamlarda düzgün mövqe seçmək və ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini əks etdirdiyini vurğulayır: ***"Dünya müsəlmanlarının mənəvi həmrəyliyinin təcəssümü olan Qurban bayramında mömin insanlar Allah və din yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirmək fürsəti qazanır, Uca Yaradana yaxınlığın sevincini yaşayırlar.***

***Bəşər mədəniyyətinə və elmi-fəlsəfi fikir xəzinəsinə misilsiz töhfələr vermiş Azərbaycan xalqının dünyagörüşünün təşəkkülündə və milli-mədəni inkişafında İslam dini mühüm mərhələ təşkil edir. Ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları ölkəmizdə qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında mütərəqqi islami dəyərlərin rolu danılmazdır".***

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyev tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin dirçəldilməsi, xüsusən də dini ziyarətgahların əsaslı təmiri və yenidən qurulmasına da xüsusi diqqət yetirmişdir. Azərbaycan Prezidentinin İslam mədəniyyəti nümunələri olan tarixi-memarlıq abidələrinin, məscidlərin, ziyarətgahların, müqəddəs dini sitayiş və inanc yerlərinin təmiri, bərpası ilə bağlı xüsusi sərəncamlar imzalaması və bu işi şəxsi nəzarətinə götürməsi deyilənlərin əyani təsdiqidir.

Azərbaycan Prezidentinin cəmiyyətin mühüm təbəqəsi olan dindarlarla mütəmadi görüşləri, onların dini-mənəvi ehtiyaclarına həssaslıqla yanaşması, dini bayram və mərasimlərdə şəxsən iştirak etməsi xalq arasında böyük razılıq və minnətdarlıqla qarşılanır, cəmiyyətdə etnik-dini dözümlülüyün təbliğində və təşviqində mühüm stimul rolu oynayır. Dövlətin bu sahəyə diqqət və qayğısı Azərbaycandakı bütün mövcud milli-etnik qrupları, dini-mənəvi təşkilatları əhatə edir. Bu gün Azərbaycanda dünya dinləri ənənəvi olaraq qarşılıqlı etimad və əmin-amanlıq şəraitində fəaliyyət göstərir, İslam və qeyri-islam dini icmalar öz etiqadlarını azad və sərbəst şəkildə icra edirlər.

Bu gün Azərbaycan beynəlxalq arenada etibarlı tərəfdaş və təmsil olunduğu təşkilatların fəal üzvüdür. Azərbaycanda mövcud olan tolerantlıq, multikulturalizm, ölkəmizin mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa verdiyi töhfələr diqqət mərkəzindədir və nümunə kimi göstərilir. Dünya siyasətinə əsaslı təsir imkanı olan müsəlman dövlətləri arasında həmrəyliyin möhkəmləndirilməsi prioritet məqsədə çevrilib. Artıq İslam həmrəyliyinin zamanın çağırışı olması Bakıdan bütün müsəlman dünyasına yayılır. Azərbaycan xalqı öz liderinin – Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Qüdrətli dövlət başçımız yalnız hərb meydanında Müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Bütün bunların məntiqi nəticəsi olaraq 30 il işğal altında olan əzəli torpaqlarımız işğaldan azad edildi. Hər bir kəndin, qəsəbənin, şəhərin azad olunması xalqımız tərəfindən el bayramı kimi böyük sevinclə qarşılandı. İşğaldan azad olan torpaqlarımızda ilk azan səsi ucaldı. Hazırda erməni vandalizminə məruz qalmış məscidlər, mədrəsələr, dini abidələr bərpa edilir.

Qeyd etdiyimiz kimi, digər müsəlman ölkələri kimi, İslam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş edən respublikamızda da İslam dinindən irəli gələn vəzifələr böyük ehtiramla yerinə yetirilir. Qurban bayramı ilə əlaqədar hər il yüzlərlə zəvvarın Həcc ziyarətində olması xalqımızın öz dinimizə bağlılığının nümunəsidir. Əzəli torpaqlarımıza – doğma Qarabağımıza qayıdan soydaşlarımız dini bayramlarımızı, xüsusilə də həmrəylik, humanizm kimi ali dəyərlər aşılayan Qurban bayramını öz ata-baba yurdlarında ikiqat təntənə ilə qeyd edirlər. İnsanlara birlik, həmrəylik, şəfqət və xeyirxahlıq duyğuları aşılayan bu bayram ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da hər il geniş şəkildə qeyd olunur. Məscidlərdə bayram namazı qılınır, qurban əti paylanılır. Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın bütün rayonlarında da sağlamlıq imkanları məhdud şəxslərə, aztəminatlı və xüsusi qayğıya ehtiyacı olan ailələrə, şəhid ailələrinə və qazilərə, Naxçıvan Hərbi Hospitalına, muxtar respublikada təhsil alan əcnəbi tələbələrə və digərlərinə bayram payı verilir.

Milli-mənəvi dəyərlərə, ənənələrə sədaqət və qayğı ilə yanaşan bütün müsəlmanları halallıq, paklıq, birlik, şəfqət və mərhəmət duyğularının təntənəsi olan Qurban bayramı münasibətilə təbrik edir, kəsilən qurbanların Tanrı dərgahında qəbul olunmasını diləyirik!

**Gülcamal TAHİROVA**



Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Aparatı və Gənclər Birliyinin təşkilatçılığı ilə gənclər arasında 15 İyun – Milli Qurtuluş Günü münasibətilə "Qurtuluşdan Zəfərə" adlı intellektual yarış keçirilib.

## "15 İyun – Milli Qurtuluş Günü"nə həsr olunmuş intellektual yarış keçirilib

Yarışdan əvvəl Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Aparatının şöbə müdiri Rail Tağızadə və Gənclər Birliyinin sədri Arzu Qasımov çıxış edərək iştirakçılara uğurlar arzulayıblar.

Çıxış edənlər Qurtuluş Günü haqqında danışıb, bu cür intellektual oyunların əhəmiyyətinə toxunub, oyunun keçirilməsində məqsədin gənclərin intellektual düşünmə qabiliyyətlərini stimullaşdırmaq, istedadlı gənclərin üzə çıxarılması və Qurtuluş tariximizlə bağlı biliklərinin yoxlanılmasından ibarət olduğunu diqqətə çatdırıblar.

Gənclər Mərkəzində baş tutan oyunda 10 komanda olmaqla, ümumilikdə, 60 gənc mübarizə aparıb.

Oyunda ən çox xal toplayan "Paradoks" komandası I yerin sahibi olub. "Difai" komandası II yerə, "Könüllü gömrükçülər" komandası isə III yerə çıxıb.

Sonra qalib komandalara diplom, medal və qiymətli hədiyyələr təqdim olunub.

## Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxs tərəfindən 18 iyul 2024-cü il tarixdə hərraca çıxarılacaq özəlləşdirmə obyektləri barədə məlumat

| S/s | Obyektin adı | Ünvanı | İstismara verildiyi il | Obyektin tam dəyəri 100 faiz | Obyektin satış qiyməti (manatla) | Behin həcmi 10 faiz |
|---|---|---|---|---|---|---|
| 1. | Kərimbəyli kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 12,2 kv.m olan gözəllik salonu | Babək rayonu, Kərimbəyli kəndi | 2012 | 2800,0 | 2800,0 | 280,0 |
| 2. | Kərimbəyli kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 14,3 kv.m olan ət mağazası | Babək rayonu, Kərimbəyli kəndi | 2012 | 3250,0 | 3250,0 | 325,0 |
| 3. | Aşağı Buzqov kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 8,4 kv.m olan bərbər salonu | Babək rayonu, Aşağı Buzqov kəndi | 2018 | 2250,0 | 2250,0 | 225,0 |
| 4. | Nəhəcir kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 19,0 kv.m olan ət mağazası | Babək rayonu, Nəhəcir kəndi | 2011 | 3200,0 | 3200,0 | 320,0 |
| 5. | Külüs kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 11,9 kv.m olan gözəllik salonu | Şahbuz rayonu, Külüs kəndi | 2012 | 4100,0 | 4100,0 | 410,0 |
| 6. | Külüs kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 11,9 kv.m olan ət mağazası | Şahbuz rayonu, Külüs kəndi | 2012 | 4100,0 | 4100,0 | 410,0 |
| 7. | Külüs kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 11,9 kv.m olan dərzi sexi | Şahbuz rayonu, Külüs kəndi | 2012 | 4100,0 | 4100,0 | 410,0 |
| 8. | Badamlı kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 14,16 kv.m olan məişət əşyalarının təmiri | Şahbuz rayonu, Badamlı kəndi | 2009 | 4600,0 | 4600,0 | 460,0 |
| 9. | Badamlı kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 7,95 kv.m olan bərbərxana | Şahbuz rayonu, Badamlı kəndi | 2009 | 2700,0 | 2700,0 | 270,0 |
| 10. | Badamlı kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 7,95 kv.m olan dərzi sexi | Şahbuz rayonu, Badamlı kəndi | 2009 | 2700,0 | 2700,0 | 270,0 |
| 11. | Qızıl Qışlaq kənd xidmət mərkəzində yerləşən ümumi sahəsi 8,16 kv.m olan ət mağazası | Şahbuz rayonu, Qızıl Qışlaq kəndi | 2014 | 1550,0 | 1550,0 | 155,0 |
| 12. | Qızıl Qışlaq kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 7,15 kv.m olan bərbərxana | Şahbuz rayonu, Qızıl Qışlaq kəndi | 2014 | 1400,0 | 1400,0 | 140,0 |
| 13. | Qızıl Qışlaq kənd xidmət mərkəzində yerləşən, ümumi sahəsi 6,89 kv.m olan gözəllik salonu | Şahbuz rayonu, Qızıl Qışlaq kəndi | 2014 | 1350,0 | 1350,0 | 135,0 |

**Qeyd:**

● Hərraca qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifariş və digər zəruri sənədləri hərracın başlanmasına ən geci 3 bank günü qalanadək təqdim etmiş və özəlləşdirmə obyektinin ilkin satış qiymətinin 10 faizi həcmində beh keçirmiş hüquqi və fiziki şəxslər buraxılırlar.

● Sifarişlər Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxs tərəfindən Naxçıvan şəhəri, 8-ci küçə, $1/5^A$ ünvanında hərracın keçirilməsinə ən geci 3 (üç) bank günü qalanadək qəbul olunacaqdır:

● Hərracda iştirak etmək istəyən şəxslər sifarişə aşağıdakı sənədləri əlavə edirlər:

*1. Satıcı tərəfindən müəyyən edilmiş hesaba (AZ21NABZ12360100000000005944) behin köçürülməsini təsdiq edən ödəmə sənədinin surəti;*

*2. Hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surətləri;*

*3. Fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;*

*4. Hərraclarda iştirak etmək üçün sifariş hüquqi və fiziki şəxsin nümayəndəsi tərəfindən verildiyi təqdirdə o, sifarişçi adından hərəkət etmək hüququnu təsdiq edən sənəd təqdim etməlidir.*

● Hərrac günü sifarişçilərin hərrac zalına daxil olmaq üçün qeydiyyatı saat $10^{45}$-dək aparılır.

● Hərrac 18 iyul tarixdə saat $11^{00}$-da Hərracların Təşkili Mərkəzində keçiriləcəkdir.

● Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxsin @nmr_herracmerkezi “Instagram” hesabından, yaxud *auksion.nmr.az* elektron portalı və *htm@nemlak.gov.az* e-mail ünvanından ala bilərsiniz. Əlaqə telefonu: (036)545-01- 38; (060)265-60-45

## Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxs tərəfindən 16 iyul 2024-cü il tarixdə keçiriləcək torpaq hərracları haqqında məlumat

| Sıra №-si | Torpağı müsabiqə və ya hərraclara çıxaran hüquqi şəxs | Müsabiqə və ya hərrac | Torpağın sahəsi (kv.m və ya ha), satılır və ya icarəyə verilir (icarə ili) | Hərracda ilkin qiymət, hərrac addımı və ya müsabiqədə qiymət, icarədə bir illik icarə haqqı (manatla) | Hansı məqsəd üçün satılır və ya icarəyə verilir | Kateqoriya, uqodiya (təsərrüfat yeri) növü, keyfiyyət qrupu, şəhərlərdə və rayon mərkəzlərində zona | Torpaq üzərində hüququ təsdiq edən sənədin nömrəsi |
|---|---|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri, Tumbul bələdiyyəsi | Hərrac | 300.67 kv.m Satılır | 12026,80<br>120,26 | Sahibkarlıq | Yaşayış məntəqələrinin torpaqları I qrup | 104012000110 |
| 2. | Şərur rayonu, Şərur bələdiyyəsi | Hərrac | 893 kv.m Satılır | 35720,0<br>357,20 | Sahibkarlıq | Yaşayış məntəqələrinin torpaqları I qrup | 102012000200 |
| 3. | Şərur rayonu, Xanlıqlar bələdiyyəsi | Hərrac | 3623 kv.m Satılır | 18115,00<br>181,15 | Sahibkarlıq | Sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqları I qrup | 102012000198 |
| 4. | Babək rayonu, Babək bələdiyyəsi | Hərrac | 6500 kv.m İcarə, 15 il | 1625,00<br>16,25 | Sahibkarlıq | Yaşayış məntəqələrinin torpaqları I qrup | 103012000329 |
| 5. | Babək rayonu, Babək bələdiyyəsi | Hərrac | 16106 kv.m İcarə, 15 il | 4027,50<br>40,27 | Sahibkarlıq | Yaşayış məntəqələrinin torpaqları I qrup | 103012000332 |
| 6. | Babək rayonu, Qahab bələdiyyəsi | Hərrac | 9 kv.m Satılır | 45,00<br>0,45 | Sahibkarlıq | Yaşayış məntəqələrinin torpaqları I qrup | 103012000317 |
| 7. | Babək rayonu, Qahab bələdiyyəsi | Hərrac | 406.69 kv.m Satılır | 2033,45<br>20,33 | Sahibkarlıq | Yaşayış məntəqələrinin torpaqları I qrup | 103012000233 |
| 8. | Babək rayonu, Qahab bələdiyyəsi | Hərrac | 400.00 kv.m Satılır | 2000,00<br>20,00 | Sahibkarlıq | Yaşayış məntəqələrinin torpaqları I qrup | 103012000326 |
| 9. | Babək rayonu, Zeynəddin bələdiyyəsi | Hərrac | 71 kv.m Satılır | 710,00<br>7,10 | Sahibkarlıq | Yaşayış məntəqələrinin torpaqları I qrup | 103012000316 |
| 10. | Şahbuz rayonu, Aşağı Qışlaq bələdiyyəsi | Hərrac | 156 kv.m Satılır | 2340,00<br>23,40 | Sahibkarlıq | Yaşayış məntəqələrinin torpaqları I qrup | 105012000202 |

**Qeyd:**

• Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, ərizə və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

• Ərizələr Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxs (Naxçıvan şəhəri, 8-ci küçə $1/5^A$) tərəfindən qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan hərracda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər müsabiqə və ya hərraca çıxarılan torpaq sahəsi və satıcı ilə bağlanacaq müqavilənin layihəsi ilə hərrac gününə 2 gün qalanadək Hərracların Təşkili Mərkəzində tanış ola bilərlər.

• Ərizələr “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxsin Torpaq müsabiqə və hərrac komissiyasında 20 iyun 2024-cü il tarixdən 12 iyul 2024-cü il tarixədək saat $9^{00}$-dan $18^{00}$-dək qəbul olunur. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

*- Ərizəçinin adından çıxış etməyə dair etibarnamə (ərizəçi iştirak etmədiyi hallarda).*

• Hərrac günü sifarişçilərin hərrac zalına daxil olmaq üçün qeydiyyatı saat $10^{45}$-dək aparılır.

• Hərrac 16 iyul 2024-cü il tarixdə saat $11^{00}$-da “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxsin yerləşdiyi binada keçiriləcəkdir.

• Hərrac aşağıdakı hallarda baş tutmamış hesab edilir:

*- iştirakçıların sayı ikidən az olduqda;*

*- hərracın heç bir üzvü ilkin qiymət üç dəfə təkrar olunduqdan sonra biletini qaldırmadıqda;*

*- hərracın qalibi hərracın nəticələri haqqında protokola imza atmaqdan boyun qaçırdıqda.*

• Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxsin @nmr_herracmerkezi “Instagram” hesabından və yaxud auksion.nmr.az elektron portalı və *htm@nemlak.gov.aze-mail* ünvanından ala bilərsiniz.Əlaqə telefonu: (036)-545-01-38; (060)-304-20-13

## Naxçıvanımızın ilk qadın dünya çempionu



Bu yaxınlarda daha bir naxçıvanlı idmançı möhtəşəm uğur əldə edərək adını hər kəsə duyurdu. Belə ki, universal döyüş üzrə dünya çempionatının qızıl medalını qazanan Röya Abdullayeva Naxçıvanın idman tarixində dünya çempionu olan ilk qız idmançı oldu. O həmçinin yeniyetmələr arasında kikboksinq üzrə Azərbaycan çempionudur. Elə biz də qrepplinq üzrə Avropa çempionatının qalibi 17 yaşlı Röya xanımla redaksiyamızda görüşüb söhbətləşdik. Onu da vurğulayaq ki, müsahibimizin adı həm də Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na düşüb.

Müsahibimiz bildirdi ki, o, 2016-cı ildən Naxçıvan şəhərində fəaliyyət göstərən “Turan Fight Club”da məşqlərə başlayıb. Məşqçisi olan Xəyal Abdullayev həm də onun atasıdır. Naxçıvanda keçirilən bir çox idman yarışlarında iştirak edən Röya daha sonra ölkə üzrə keçirilən yarışlara qatılıb. Bakı şəhərində 2021-ci ildə keçirilən qrepplinq üzrə yarışda iştirak edib və orada da birinci yerin qalibi olub.

Onu da qeyd edək ki, Röya həm də Kikboksinq Federasiyasının üzvüdür. Daim öz üzərində çalışan Röya 2021-ci ildə Türkiyənin Antalya şəhərində keçirilən universal döyüş üzrə dünya çempionatında Qazaxıstandan olan idmançı ilə qarşılaşıb və ona qalib gələrək dünya çempionu titulunu qazanıb. Deyir ki, bu onun üçün ikiqat sevindirici oldu. Çünki Naxçıvanda qızlar arasında bu idman növü üzrə ilk dünya çempionudur.

Daha sonra Azərbaycan çempionatında iştirak edərək ard-arda qızıl medala layiq görülüb. Belə ki, 2024-cü ildə Bakı şəhərində keçirilən Avropa çempionatında iştirak edərək finalda ukraynalı rəqibinə qarşı boğucu fənddən istifadə edərək qalib gəlib. Röya deyir ki, 17 yaşlı qızlar arasında da ilk Avropa çempionu olub. Qazandığı uğurların səbəbini müsahibim belə qiymətləndirir:

– Bütün əldə etdiyim uğurlar, təbii ki, gərgin məşqlərin, hazırlıqların sayəsində olub. Əlbəttə, bu işdə ilk dəstəkçim atam olub. O məni hər zaman həvəsləndirib, yarışlarda qalib olmağa inandırıb. Mən də ona inanaraq bütün yarışlara ciddi hazırlaşmışam, böyük zəhmət çəkmişəm. Qeyd etdiyim kimi, məni digərlərindən fərqləndirən əsas səbəb məşqçi ailəsində böyüməyim olub. Allaha şükürlər olsun ki, bu gün çəkdiyim zəhmətin bəhrəsini görürəm. İnanıram ki, gələcəkdə də uğurlarım olacaq. Mənim üçün ən əsası üçrəngli bayrağımızı bütün dünyada tanıtmaqdır.

✍ **Aidə İBRAHİMOVA**

## Elan

“Naxçıvan Tikiş” Açıq Səhmdar Cəmiyyətinin 2022-2023-cü illərin hesabatı haqqında səhmdarların növbəti yığıncağı keçiriləcəkdir. Yığıncağın gündəliyi aşağıdakılardan ibarətdir:

*1. Maliyyə uçotunun təhlili*

*2. Dividentin ödənilməsi*

*3. “Naxçıvan Tikiş” Açıq Səhmdar Cəmiyyətinin MMC-yə çevrilməsi haqqında*

*4. Digər məsələlər.*

Yığıncaq Naxçıvan şəhəri, İdris Məmmədov küçəsi 1-də, 28 iyun 2024-cü ildə saat $14^{00}$-da olacaqdır.

## İtmişdir

Şərur rayonu, Maxta kəndində yaşamış Qasımova Xanım Müseyib qızının adına olan JN-624 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Ağrı kənd sakini Fərəcov Məmmədhəsən Ələkbər oğlunun adına olan 107013001799 reyestr nömrəli, MH-0046213 seriya nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Maxta kənd sakini Qasımov Səfər Rza oğlunun adına olan JN-629 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Nəcəfov Şirxan Yalçın oğlunun adına AD-0527761 seriya nömrəli müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Boyəhməd kənd sakini Allahverdiyev İsa Balabəy oğlunun adına olan JN-$11^A$, $11^B$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Maxta kənd sakini Qasımov Səməd Rza oğlunun adına olan JN-627 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kəndində yaşamış Pənahova Xanım Qurban qızının adına olan JN-$197^A$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Şəhriyar kəndində yaşamış Kazımova Rəxşəndə Həsən qızının adına olan JN-$516^B$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Nəsibov İlham Elbəyi oğlunun adına olan 75 BA 825 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Bayramov İsfəndiyar Məhəmməd oğlunun adına verilmiş JN-118 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Tumbul kənd sakini Abdullayev Məmmədəli Fərəc oğlunun adına olan JN-$283^A$ nömrəli, 10307028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Məmmədov Əlövsət Əbdüləli oğlunun adına olan 0020553 nömrəli gizirin hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Vayxır kənd sakini İsmayılov Həsən Hüseyn oğlunun adına olan JN-$148^A$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Mühbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Ceyhun Məmmədov
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 169